BAKI BEYNƏLXALQ MULTİKULTURALİZM MƏRKƏZİ
BAKU INTERNATIONAL MULTICULTURALISM CENTRE

Azərbaycan Milli Elmlər Akademiyası

Azərbaycan Yaradıcılıq Fondu

Multikulturalizm

Ədəbi-bədii, elmi-publisistik jurnal

3 (7) 2017

iyul-avqust-sentyabr

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi,
Azərbaycan Milli Elmlər Akademiyası
və Azərbaycan Yaradıcılıq Fondunun
birgə nəşri

BAKI
2017

Redaksiya heyəti

Aleksandr İşein
Allahşükür Paşazadə
Anar Rzayev
Aytən Mustafayeva
Aytən Qəhrəman
Azərpaşa Nemətov
Etibar Babayev
Etimad Başkeçid
Firdovsiyyə Əhmədova
İsa Həbibbəyli
Kamal Abdulla
Kamran İmanov
Qismət Rüstəmov
Lidiya Qranovskaya
Mehman Qaraxanoğlu
Milix Yevdayev
Natiq Rəsulzadə
Nəriman Qasımoğlu
Paşa Əlioğlu
Rəhilə Qeybullayeva
Rəşad Məcid
Robert Mobili
Sevda Sultanova
Sərdar Fərəcov

Beynəlxalq redaksiya şurası

Aleksandr Nesterov *(Rusiya)*
Aleksandr Qriç *(ABŞ)*
David Qotsiridze (*Gürcüstan)*
Didye Frankfurt *(Fransa)*
Eero Tarasti *(Finlandiya)*
İrma Ratiani (*Gürcüstan)*
Klaus Volf *(Almaniya)*
Maija Burima *(Latviya)*
Ramazan Qorxmaz *(Türkiyə)*
Sandro Teti *(İtaliya)*
Sudha Svarnakar *(Braziliya)*
Takayuki Yokota Murakami *(Yaponiya)*
Tereza Damasio *(Portuqaliya)*
Valeri Pines (ABŞ)
Vidas Kavalyauskas *(Litva)*
Yeva-Mariya Aux *(Almaniya)*

Baş redaktor
Fəxri Uğurlu

Baş redaktorun müavini
Tahir Kazımlı

Redaktorlar
Azər Qaraçənli
Sərraf Balaxan
Qismət Rüstəmov

Məsul katib
Taleh Eminoğlu

Texniki direktor
Fuad Cəfərov

Texniki redaktor
Əliş Mirzallı

Dizayner
Mətanət Qaraxanlı

Korrektor
Kəmalə Cəfərli

Üz qabığının 1-ci səhifəsi – Multikulturalizm monumenti (Kanada, Toronto, müəl. Fransisko Pirelli). Dörd oxşar abidə dünyanın müxtəlif yerlərində – Buffalo (CAR), Çançun (Çin), Sarayevo (Bosniya və Herseqovina), Sidney (Avstraliya) şəhərlərində yerləşir.

Üz qabığının 4-cü səhifəsi – serb əsilli dahi ABŞ alimi, dünya şöhrətli fizik, maşın mühəndisi və ixtiraçı Nikola Teslanın (1856-1943) Bakı şəhərinin mərkəzində ucaldılmış abidəsi. Abidənin müəllifləri Azərbaycanın Xalq Rəssamı, heykəltəraş Ömər Eldarov və memar Sənan Salamzadədir.

Redaksiyanın ünvanı:
Az1001, Bakı şəhəri, N.Rəfibəyli küç., 6
tel.: (+994 12) 492 33 29
e-mail: multikulturalizmjurnali@gmail.com
facebook: Multikulturalizm jurnalı

Jurnal ildə 4 dəfə nəşr olunur.
Qeydiyyat: 05/ƏN11-5-5946

Materiallardan istifadə edərkən jurnala istinad vacibdir.

© "Multikulturalizm" jurnalı, 2017

İÇİNDƏKİLƏR

RƏSMİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 41-ci Dünya Skaut Konfransının iştirakçılarına təbrik məktubu..... 6

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbriki..... 7

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Roş-Ha-Şana – Yeni il münasibətilə Azərbaycanın yəhudi icmasına təbriki..... 8

BMT Baş Assambleyasının 72-ci sessiyasında Prezident İlham Əliyevin çıxışı..... 9

FORUMLAR, KONFRANSLAR, DƏYİRMİ MASALAR

Dünya Skaut Hərəkatı Təşkilatının 41-ci Bakı Konfransı..... 14

İSLAM HƏMRƏYLİYİ İLİ

Rövşən NƏZƏROV – İslam həmrəyliyi: problemlər və perspektivlər..... 20

DİALOQ

Этибар НАДЖАФОВ: «Наш опыт в области мультикультурализма проявляется в отсутствии у нас противоречий на этнической и религиозной почве»..... 27

ÇOXMƏDƏNİYYƏTLİLİK

Əli FƏRHADOV – Cənubi Qafqazda multikulturalizmin ədəbi-publisistik qaynaqları..... 35

Məlahət BABAYEVA – "Uçurum dərələrə" eşqdən körpü salan ədəbiyyatımız..... 39

AZƏRBAYCAN ƏCNƏBİLƏRİN GÖZÜ İLƏ

Villi DEŞ – Alman əsirinin gündəliyi (II hissə) 42

AXUNDOV ZALI

Poeziya guşəsi

Rüstəm BEHRUDİ – Şeirlər..... 50

HÖTE ZALI

Nəsr guşəsi

Qoderdzi ÇOXELİ – Küknarlara məktub (hekayə) 60

TƏNQİD VƏ ESSEİSTİKA

Rəşad İLYASOV – Kamal Abdullanın "Birun-Əndərun" dilemmasına metafizik baxış..... 68

MM – MULTİKULTURALİZM MOZAİKASI

"Azərbaycanın Gənc Dostları" multikultural birliyinin dünyadakı həmyaşıdlarına müraciəti 72

V Beynəlxalq multikulturalizm yay məktəbi 84

REGİON

"MULTİKULTURALİZM" təqdim edir:

Təbrizdən gələn səslər 96



Azərbaycan İslam aləmində çox böyük hörmətə malik bir ölkədir. Baxın, İslam Əməkdaşlıq Təşkilatının rəhbərləri bizim ölkəmizə necə yüksək qiymət verirlər. Bəzən bir-biri ilə yola getməyən müsəlman ölkələri də bizə böyük hörmətlə yanaşırlar. Nəyə görə? Çünki bizim siyasətimiz səmimidir, düzgündür, ədalətlidir, prinsipialdır və cəsarətlidir. Bax, budur bizim siyasətimiz.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

RƏSMİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 41-ci Dünya Skaut Konfransının iştirakçılarına təbrik məktubu

Dəyərli konfrans iştirakçıları!

Biz dünya ictimaiyyətinin ən çoxsaylı və nüfuzlu təşkilatının nümayəndələrini salamlayırıq. Əminəm ki, bu konfrans bir neçə məsələ ilə yadda qalacaq. Tarixdə ilk dəfədir ki, bu tədbir Avrasiya regionunda keçirilir. İştirakçıların və təmsil olunan ölkələrin sayına görə bu, skautlar hərəkatının tarixində ən böyük konfransdır. Bakıya 161 ölkədən qonaqlar təşrif buyurublar.

Azərbaycan Skautlar Assosiasiyası cəmi 15 ildir ki, Dünya Skautlar Komitəsinin üzvü seçilib və budur, biz artıq bu tədbirə ev sahibliyi edirik. Bu hadisə Azərbaycanda skautlar hərəkatının dinamik inkişafını özündə əks etdirir. Bizim ictimaiyyət skautinqin bir sıra ideyalarını təbii yolla qəbul etdi. Bura aktiv vətəndaşlıq, vətənə sevgi, ictimaiyyətin inkişafı üçün qoyulan töhfə aiddir. Çünki onlar bizim əsrlər boyu qoruduğumuz dəyərlərlə üst-üstə düşür. Ölkəmiz etibarlı tərəfdaş kimi bütün beynəlxalq əməkdaşlıqlara açıqdır. Azərbaycan 2012-ci ildə Avroviziya mahnı müsabiqəsi, 2014-cü ildə Gənc Siyasətçilərin Birinci Beynəlxalq Forumu, 2015-ci ildə İlk Avropa Oyunları, 2017-ci ildə Dördüncü İslam Həmrəyliyi və Formula-1 kimi mötəbər yarışlara ev sahibliyi edib. Bütün bunlar göstərir ki, Azərbaycan multikulturalizm dəyərlərinin inkişaf etdiyi bir mərkəzdir.

Hazırda 40 milyondan çox insanı özündə birləşdirən təşkilatınızın konfransda iştirak edən bütün nümayəndələrinə nailiyyətlər arzulayıram, gələcəkdə təşkilatın daha da populyarlaşmasına töhfə verəcək, uğur gətirəcək qərarların qəbul olunmasını arzu edirəm.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 avqust 2017-ci il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbriki

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı mənəvi kamillik və vəhdət rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Öz demokratizmi, humanizmi və bəşəri idealları ilə dünya sivilizasiyasının möhtəşəm səhifəsini təşkil edən İslam dini xalqımızın dünyagörüşünün formalaşmasında və milli-mədəni inkişafında müstəsna rol oynamış, mütərəqqi islami dəyərlər və ənənələr Azərbaycanda həmişə uca tutulmuşdur.

İslamın bir din kimi tamamlanmasını və mənəvi-əxlaqi qurtuluş yolu olaraq bəşəriyyətə göndərilməsini özündə təcəssüm etdirən mübarək Qurban bayramı insanları mərhəmətə, həmrəyliyə və qardaşlığa dəvət edən bir bayramdır. Bu əziz gündə müsəlmanlar Allah yolunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirir, uca Tanrıya yaxınlığın fərəhini yaşamaq fürsəti əldə edirlər.

Xalqımız öz milli-mənəvi dəyərlərinə və ənənələrinə həmişə ehtiramla yanaşır. Bütün dini mərasimlər, o cümlədən Qurban bayramı hər il böyük təntənə ilə qeyd edilir. Ölkəmizin hər yerində Allahın adına qurbanlar kəsilir, geniş xeyriyyəçilik işləri görülür, dövlətimizin tərəqqisi və əmin-amanlığı üçün dualar edilir, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Əminəm ki, builki Qurban bayramı da cəmiyyətimizdə milli-mənəvi həmrəyliyin, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevriləcəkdir.

Əziz bacı və qardaşlarım!

Bu mübarək gündə bir daha hamınıza ulu Tanrıdan möhkəm can sağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 avqust 2017-ci il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Roş-Ha-Şana – Yeni il münasibətilə Azərbaycanın yəhudi icmasına təbriki

Hörmətli həmvətənlər!

Sizi yəhudi xalqının yeni il bayramı – Roş-Ha-Şana münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Sivilizasiyaların qovuşuğunda yerləşən Azərbaycan bu gün multikultural ənənələrin qorunub saxlanıldığı, ayrı-ayrı dinlər və mədəniyyətlər arasında qarşılıqlı hörmət və etimad mühitinin mövcud olduğu nadir məkanlardandır.

Tarixən Azərbaycanda məskunlaşıb yaşayan yəhudi icmasının cəmiyyətimizdə özünəməxsus yeri vardır. Əlamətdar haldır ki, yəhudi vətəndaşlarımız ölkə həyatının bütün sahələrində yaxından iştirak edir, dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində fəal vətəndaş mövqeyi nümayiş etdirirlər.

Əziz dostlar!

Roş-Ha-Şana özündə yeniliyi, mənəvi saflığı və həmrəyliyi təcəssüm etdirən bir bayramdır. Yəhudi xalqının bu əziz günü qoy hamınızın həyatına xoş ovqat, ailələrinizə xoşbəxtlik və sevinc gətirsin.

Bayramınız mübarək olsun!

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 sentyabr 2017-ci il

BMT Baş Assambleyasının 72-ci sessiyasında
Prezident İlham Əliyevin çıxışı

2017-ci ilin sentyabr ayının 20-də ABŞ-ın Nyu-York şəhərində BMT Baş Assambleyasının 72-ci sessiyasının açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sessiyada nitq söyləyib. Həmin çıxışın mətnini diqqətinizə çatdırırıq.



Cənab sədr!

Xanımlar və cənablar!

25 ildən çoxdur ki, Ermənistan Azərbaycanın 20 faiz ərazisini – Dağlıq Qarabağı və ölkəmizin digər 7 rayonunu işğal altında saxlayır.

Dağlıq Qarabağ Azərbaycanın əzəli və tarixi torpağıdır. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin təxminən 20 faizi işğal altındadır. Bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Ermənistan azərbaycanlılara qarşı Ermənistanda, Dağlıq Qarabağda və Azərbaycanın digər 7 rayonunda etnik təmizləmə siyasəti həyata keçirib.

Ermənistan Xocalıda azərbaycanlılara qarşı soyqırımı törədib. Xocalı soyqırımı 10-dan artıq ölkə tərəfindən rəsmən tanınıb. 1992-ci il fevralın 26-da Ermənistan Xocalının 613 dinc sakinini, o cümlədən 106 qadın və 63 uşağı qətlə yetirərək hərbi cinayət törədib. Bəşəriyyətə qarşı bu dəhşətli cinayəti törədən hərbi kriminallardan biri Ermənistanın hazırkı prezidentidir.

Aparıcı beynəlxalq təşkilatlar Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılmasını tələb edən qətnamələr qəbul ediblər. 1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin

Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir.

İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurasının Parlament Assambleyası və Avropa Parlamenti kimi digər beynəlxalq təşkilatlar oxşar qərar və qətnamələr qəbul etmişlər. Ermənistan bu qərar və qətnamələri icra etmir. Ermənistan 24 ildir ki, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymur və əfsuslar ki, o, buna görə cəzalandırılmır. Bəzi hallarda BMT-nin Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra olunur. Bizə gəldikdə isə, 24 ildir ki, qətnamələr icra olunmur. Bu, ikili standarta əsaslanan yanaşmadır. Bu yanaşma qəbuledilməzdir. Ermənistana qarşı beynəlxalq sanksiyalar qəbul edilməlidir. BMT-nin mühüm islahatlarından biri Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizminin yaradılması olmalıdır.

Ermənistan status-kvonun dəyişməz qalması üçün əlindən gələni edir, substantiv danışıqların qarşısını alır. ATƏT-in Minsk qrupunun həmsədrləri – Fransa, Rusiya və ABŞ dəfələrlə bildirmişlər ki, status-kvo qəbuledilməzdir.

Sual olunur: necə olur ki, despotik və orta əsrlər rejiminin idarə etdiyi bu cür korrupsiyaya uğramış, uğursuz dövlət uzun illər ərzində beynəlxalq hüququ pozmağa, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə və dünyanın aparıcı ölkələrinin bəyanatlarına məhəl qoymamağa müvəffəq olur? Buna cavab isə ikili standartlardır. Təcavüzkara heç bir beynəlxalq təzyiq göstərilmir, Ermənistan diktatorluğuna heç bir beynəlxalq sanksiya tətbiq edilmir. Bu siyasətə son qoyulmalıdır.

Təcavüzkara münasibətdə bu cür siyasət təkcə ədalətsizliyi nümayiş etdirmir, eyni zamanda, Ermənistan diktatorluğunda elə bir illüziya yaradır ki, sanki onlar öz terror siyasətini bundan sonra da davam etdirə bilərlər.

Ötən ilin aprelində Ermənistan şəhər və kəndlərimizə hücum edərək təmas xəttində növbəti hərbi cinayət törətdi. Bu hücum nəticəsində 6 dinc azərbaycanlı qətlə yetirildi, onların sırasında bir uşaq da var idi. Bundan əlavə, 26 mülki şəxs yaralandı. Yüzlərlə evlərimiz dağıdıldı.

Azərbaycan öz vətəndaşlarını müdafiə etməli oldu. Uğurlu əks-hücum nəticəsində Azərbaycan üç işğal olunmuş rayonda – Ağdərə, Füzuli və Cəbrayılda bir neçə əraziləri azad etdi və öz bayrağını azad edilmiş ərazilərdə qaldırdı. Ermənistan rəhbərliyi bu dərsi yaddan çıxarmamalıdır. Əks təqdirdə Ermənistanın növbəti təxribatının nəticələri onlar üçün daha ağrılı olacaq.

Döyüş meydanında məğlub olan Ermənistan şəhərlərimizə və kəndlərimizə hücum çəkmək kimi məkrli siyasətindən istifadə edir. 2017-ci il iyulun 4-də Ermənistan 82 və 120 millimetrlik mina və qumbaraatanlardan istifadə edərək Füzuli rayonunun Alxanlı kəndinə məqsədli hücum etmiş, 2 dinc sakini – 2 yaşlı Zəhra Quliyevanı və onun nənəsini qətlə yetirmişdir.

2017-ci il avqustun 7-də Ermənistanla sərhəddə yerləşən Tovuz rayonunda 13 yaşlı oğlan erməni əsgərləri tərəfindən yaralanmışdır. Bey-

nəlxalq ictimaiyyət erməni faşizminə və terroruna son qoymalıdır. Azərbaycan münaqişənin sülh yolu ilə həllinə sadiqdir, lakin eyni zamanda, Ermənistanın hərbi təxribatı davam edərsə, ölkəmiz BMT-nin xartiyasına uyğun olaraq, öz vətəndaşlarını qoruyacaq və lazım gələrsə, təcavüzkarı 2016-cı ilin aprelində olduğu kimi yenidən cəzalandıracaq.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələri əsasında həll olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü tam şəkildə bərpa olunmalıdır. Ermənistan işğalının yaratdığı böyük çətinliklərə baxmayaraq, Azərbaycan sürətlə və uğurla inkişaf edir.

Azərbaycan Birləşmiş Millətlər Təşkilatının fəal üzvüdür.

2011-ci ildə Azərbaycan BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildi. 155 ölkə Azərbaycana səs verdi. Üzv dövlətlərin tam əksəriyyəti Azərbaycana və onun siyasətinə öz dəstəyini nümayiş etdirdi. Həmin vaxt cəmi 20 yaşı olan ölkə üçün bu, böyük nailiyyət oldu. Azərbaycan müasir, sabit və demokratik ölkədir. Demokratiyanın inkişafı və insan hüquqlarının müdafiəsi hökumətimizin əsas prioritetlərindəndir. Azərbaycanda bütün fundamental azadlıqlar, o cümlədən ifadə, mətbuat, yığıncaq və dini azadlıqlar tam şəkildə təmin edilir.

Azərbaycan dünyanın tanınmış multikulturalizm mərkəzlərindən biridir. Multikulturalizm Azərbaycanda dövlət siyasətidir. Bütün etnik qrupların və dinlərin nümayəndələri Azərbaycanda sülh və harmoniya şəraitində yaşayırlar. Azərbaycanda 2016-cı il "Multikulturalizm İli", 2017-ci il isə "İslam Həmrəyliyi İli" elan olunmuşdur.

Ərazisində, demək olar ki, milli azlıqlar olmadığı, monoetnik ölkə kimi tanınan və ksenofobiya dövlət siyasəti olan Ermənistandan fərqli olaraq, Azərbaycan çoxmillətli ölkədir, cəmiyyətimizin mədəni, etnik və dini müxtəlifliyi böyük sərvətimizdir. İslamofobiyanı pik həddinə çatdırmış Ermənistan işğal olunmuş ərazilərdə bütün məscidlərimizin dağıdılması kimi bir çox vandalizm aktlarını törətmişdir.

Azərbaycan dinlərarası dialoqun gücləndirilməsinə yönəlmiş çox sayda beynəlxalq tədbirlərə ev sahibliyi etmişdir. Onların sırasında BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunu, Dünya Dini Liderlər Forumunu, dörd dəfə keçirilmiş Mədəniyyətlərarası Dialoq və beş dəfə keçirilmiş Bakı Beynəlxalq Humanitar forumlarını və digər mühüm tədbirləri qeyd etmək olar.

İslam Əməkdaşlıq Təşkilatının və Avropa Şurasının üzvü olan Azərbaycan 2008-ci ildə BMT-nin dəstəklədiyi "Bakı Prosesi"nə start verdi. "Bakı Prosesi"nin əsas məqsədi müsəlman aləmi ilə Avropa arasında dialoqu, tərəfdaşlığı və əməkdaşlığı gücləndirməkdir.

2015-ci ildə Azərbaycan 1-ci Avropa Oyunlarına ev sahibliyi etdi. 50 ölkədən gəlmiş 6000 atlet həmin Oyunlarda iştirak etdi. 2017-ci ildə Azərbaycan 54 ölkəni təmsil edən təxminən 3000 idmançının iştirakı ilə 4-cü İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etdi.

İki il ərzində paytaxtımız Bakıda Avropa və İslam Oyunları keçirildi. Bu, həmçinin multikulturalizmin təşviq edilməsinə böyük töhfə oldu. Azərbaycan yığması 1-ci Avropa Oyunlarında ikinci yeri, İslam Həmrəyliyi Oyunlarında isə birinci yeri tutdu. Bu göstərir ki, Azərbaycan dünyanın aparıcı idman ölkələrindən biridir. İdman nailiyyətlərimizin digər sübutu Azərbaycanın "Rio 2016" Olimpiya Oyunlarında medalların sayına görə 14-cü yeri tutması oldu. Bütövlükdə Azərbaycan 18 medal qazandı.

Azərbaycan sosial və iqtisadi sahələrdə böyük inkişafa nail olub.

2004-cü ildən başlayaraq Azərbaycanın iqtisadiyyatı 3 dəfədən çox artmış, ölkəmizdə 1 milyon 600 mindən artıq iş yeri açılmışdır. İşsizlik səviyyəsi dünyada ən aşağı göstəricilərdən biridir – 5 faiz. Prioritetlərimizdən biri yoxsulluğun azaldılması idi. 2004-cü ildə yoxsulluğun səviyyəsi 40 faizdən artıq idi. İndi bu, cəmi 5-6 faizdir. Nağd valyuta ehtiyatlarımız ölkənin ÜDM-nə bərabərdir. Xarici dövlət borcu ÜDM-in 20 faizindən azdır.

2009-cu ildə Azərbaycan Dünya Bankının "Doing Business" hesabatında "Dünyanın aparıcı islahatçı ölkəsi" kimi qiymətləndirilmişdir. Davosun Dünya İqtisadi Forumunun "2016-2017-ci illər üzrə qlobal rəqabətə davamlılıq hesabatı"nda Azərbaycan 138 ölkə sırasında 37-ci yeri tutmuşdur.

2015-ci ildə Azərbaycan Minilliyin İnkişaf Məqsədlərinin icrasında əldə etdiyi böyük nailiyyətinə görə həmin ilin "Cənub-Cənub" mükafatını almış və 2010-cu ildən etibarən yüksək insan inkişafı kateqoriyalı ölkələr sırasına daxil edilmişdir.

Azərbaycanın kosmik sənayesinin sürətli inkişafı, 2 telekommunikasiya və yer səthinin müşahidəsi peykləri – "Azerspace" və "Azersky" və bu yaxınlarda buraxılacaq "Azerspace-2" adlanan üçüncü peyk ölkəmizin dünya kosmik klubunun üzvləri sırasına daxil olmasını mümkün etdi.

Bu gün Azərbaycan nəinki sənaye və kənd təsərrüfatı, o cümlədən əqli məhsullarını ixrac edir. Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi – "ASAN xidmət" ictimai münasibətlərin və xidmətlərin müasir modelidir.

Eyni yerdə 251 xidmətin göstərilməsi, tam şəffaflıq, korrupsiya və rüşvətxorluğun sıfıra endirilməsi "ASAN xidmət"i bir çox ölkələr üçün cəlbedici edib.

Sırf Azərbaycan brendi olan "ASAN xidmət" yaradıldığı gündən ötən 5 il ərzində 5 milyon insana 1 milyon 600 min xidmət göstərib. Müraciətlərin ümumi sayı 17 milyona çatıb. "ASAN xidmət"in ictimaiyyət tərəfindən bəyənilməsi 98 faiz təşkil edir.

2015-ci ildə dövlət xidmətlərinin əhəmiyyətli dərəcədə sadələşdirilməsinə, təkmilləşməyə verdiyi töhfəsinə və yaradıcı olmağına görə "ASAN" Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidməti Mükafatına layiq görülmüşdür.

Siyasətimizin əsas məqsədi vətəndaşlarımızın rifah halının daha da yaxşılaşdırılmasıdır. 2004-cü ildən etibarən ölkəmizdə əməkhaqları 5,6 dəfə, pensiyalar isə 8,2 dəfə artmışdır.

Xarici maliyyə dəstəyi olmadan biz erməni işğalından əziyyət çəkən qaçqın və məcburi köçkünlər üçün təxminən 100 yeni qəsəbə və şəhərcik salmışıq. Bu günə qədər 250 mindən artıq insanın həyat şəraiti yaxşılaşdırılıb, onlara yeni evlər və mənzillər verilib. Həmin şəhərcik və qəsəbələrdə 152 məktəb, 59 tibb mərkəzi və 60 bağça tikilmişdir.

Ümumilikdə 2004-cü ildən başlayaraq 3000-dən artıq məktəb, 600-dən çox xəstəxana və tibb mərkəzləri tikilmiş, yaxud təmir edilmişdir. Azərbaycanda savadlılıq səviyyəsi 100 faizə yaxındır. Hər il 5 milyondan artıq insan, yəni ölkə əhalisinin yarısı tamamilə dövlət büdcəsindən maliyyələşən tibbi yoxlamadan keçir.

Azərbaycan qlobal enerji bazarında mühüm rol oynayır. Beynəlxalq bazarlarda etibarlı neft və qaz təchizatçısı olan Azərbaycan dünyanın bir çox ölkələri üçün enerji təhlükəsizliyini təmin edir. Bu gün Azərbaycan öz beynəlxalq tərəfdaşları ilə birlikdə "Cənub Qaz Dəhlizi" layihəsinin başa çatdırılmasına çox yaxındır. Sərmayələrinin həcmi 40 milyard dollara çatan bu layihə dünyanın ən iri infrastruktur layihələrindən biridir.

Digər mühüm prioritet nəqliyyatdır. Avropa ilə Asiya arasında yerləşən Azərbaycan Avrasiyada aparıcı nəqliyyat qovşaqlarından birinə çevrilmək istiqamətində öz coğrafi mövqeyindən müdrikcəsinə istifadə edir.

Son illərdə Azərbaycanda 6 beynəlxalq hava limanı tikilmiş, 11 min kilometr müasir şose və yollar çəkilmişdir. Xəzər dənizində Azərbaycanın 270 gəmidən ibarət ən iri ticarət donanması var.

Azərbaycanda müasir gəmiqayırma zavodu bütün növ və ölçüdə gəmiləri tikməyə qadirdir. Azərbaycan özünün dəmiryol infrastrukturunu müasirləşdirir. Ərazimizin tam əksəriyyəti dəmir yolları ilə əhatə olunur.

Gələn il biz Xəzər regionunda ən iri beynəlxalq dəniz ticarəti limanını istismara verəcəyik.

Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinə böyük sərmayələr yatırır. Ölkəmizdən keçən hər iki marşrut Şərqdən Qərbə, Şimaldan Cənuba gedən ən qısa yollar olacaq.

Sonda bildirmək istərdim ki, ötən il biz müstəqilliyimizin bərpasının 25-ci ildönümünü qeyd etdik. Azərbaycanın uğurlu inkişafı bir daha göstərir ki, yalnız azad və müstəqil olduqda, ölkənin taleyi öz xalqının əlində olduğu halda uğur əldə etmək olar. Azərbaycan xalqının ən böyük xoşbəxtliyi ondan ibarətdir ki, biz xalqımızın milli maraqlarına əsaslanan müstəqil siyasət aparan müstəqil ölkədə yaşayırıq.

Sağ olun!

Dünya Skaut Hərəkatı Təşkilatının 41-ci Bakı Konfransı

Avqustun 14-də Gənclər və İdman Nazirliyinin dəstəyi ilə Bakıda 41-ci Dünya Skaut Konfransı öz işinə başlayıb. Dünyanın 161 ölkəsindən ümumilikdə 1500-dən çox skautun qatıldığı tədbirdə Dünya Skaut Hərəkatı Təşkilatı (DSHT) üzvlərinin nümayəndələri, müxtəlif ölkələrdən yüksək vəzifəli rəsmilər iştirak ediblər.

Azərbaycan 2013-cü ilin fevralında DSHT-nin əsas tədbirləri olan və üç ildə bir dəfə keçirilən Dünya Skaut Konfransı və Dünya Skaut Gənclər Forumuna ev sahibliyi edəcək tərəf kimi namizədliyini irəli sürüb. Seçim nəticəsində qalib ölkə elan olunmuş Azərbaycan növbəti dəfə dünya miqyasında əhəmiyyətli beynəlxalq tədbirlərə ev sahibliyi edən ölkəyə çevrilib.

Konfransda müzakirəyə çıxarılan əsas mövzular skaut təşkilatlarının gələcək inkişafı, strategiya və fəaliyyətlərinin yaradılması, eləcə də təşkilatın rəhbər orqanlarına sədrin və üzvlərin seçilməsi olub.

41-ci Dünya Skaut Konfransı Avrasiya Skaut Regionunda keçirilmiş ilk irimiqyaslı və müsəlman ölkələri arasında ikinci ən böyük tədbir kimi yadda qalıb.



41-ci Dünya Skaut Konfransının açılış mərasimi

Dünya Skaut Hərəkatı Təşkilatı fəal vətəndaşlıq mövqeyi tutan, yaşadığı cəmiyyətdə müsbət dəyişikliklər edən milyonlarla gənci bir araya gətirmiş aparıcı gənclər hərəkatlarından biridir. 1907-ci ildə lord Baden-Pauel tərəfindən təsis edilmiş DSHT sıralarında 40 milyondan artıq insanı birləşdirən 165 Milli Skaut Təşkilatının konfederasiyasıdır. Azərbaycan Skautlar Assosiasiyası Azərbaycan Respublikası Gənclər Təşkilatlarının Milli Şurasının üzvüdür. Assosiasiya 1997-ci il oktyabrın 11-də təsis edilib. Hazırda qurumun Azərbaycanın 16 regionundan 1750-dən artıq üzvü var. 2000-ci il avqustun 20-dən Assosiasiya Dünya Skaut Hərəkatı Təşkilatına qoşulub.

Dünya Skaut Konfransı skaut hərəkatının "hesabat-seçki assambleyası" adlanan ali idarəedici orqanıdır və burada Dünya Skaut Təşkilatının bütün iştirakçı ölkələri təmsil olunur.

***

Konfransın ikinci günündə skaut hərəkatının beynəlxalq aləmdə gənclərin əsas təhsil hərəkatına çevrilməsi üçün vacib qərarlar qəbul edilib.

Panel sessiyalarında təşkilatın büdcəsinin daha səmərəli şəkildə xərclənməsi ilə bağlı təkliflər irəli sürülüb.

Konfransın ikinci günü 2020-ci ildə keçiriləcək Dünya Skaut Hərəkatı Liderlərinin 42-ci Ümumdünya Konfransına hazırlığın müzakirəsi ilə yadda qalıb. Qeyd olunub ki, 42-ci Dünya Konfransının keçirilməsi zamanı Bakının yüksək təşkilatçılıq təcrübəsindən də istifadə olunacaq. Çünki beynəlxalq tədbir iştirakçıları Bakı konfransının yüksəksəviyyəli təşkilatçılığından heyrətləniblər, Azərbaycanın füsunkar təbiətindən, Bakının gözəlliyindən, xalqımızın qonaqpərvərliyindən heyranlıqla danışıblar.

Dünya Skaut Hərəkatı Təşkilatının baş katibi Əhməd əl-Hindavi deyib: "Azərbaycan hökuməti skaut hərəkatına çox böyük dəstək nümayiş etdirdi. Biz bu dəstəyi Azərbaycanın konfransı yüksək səviyyədə təşkil etməsində gördük. Bakı konfransına hazırlıq səviyyəsi məni, dünya skaut liderlərini, ümumiyyətlə, bütün iştirakçıları heyrətləndirdi. Bu, təşkilatın uzun illərdən bəri keçirdiyi ən böyük konfrans idi. Burada daha çox ölkə iştirak edirdi, ən xırda detallar belə nəzərə alınmışdı, hər şey yüksək səviyyədə təşkil olunmuşdu. Konfransın təşkilatçıları öhdələrinə düşən işləri yüksək səviyyədə həyata keçirdilər".

***

Avqustun 15-də 41-ci Dünya Skaut Konfransı çərçivəsində 2017-2020-ci illər üzrə Dünya Skaut Komitəsinin üzvlüyünə namizədlərin təqdimatı olub. Ümumilikdə 19 milli skaut assosiasiyasının rəhbərləri Dünya Skaut Komitəsinə üzv olmaq üçün namizədliklərini irəli sürüblər. Onların arasında Azərbaycan Skautlar Assosiasiyasının prezidenti İlyas İsmayıllı da var.

Təqdimatla çıxış edən İlyas İsmayıllı ölkəmizdə daha çox gənci skaut hərəkatına cəlb etmək üçün var gücü ilə çalışacağını vurğulayıb.

Sonra ABŞ, Danimarka, İsveçrə, Belçika, İngiltərə, İspaniya, Kanada, Braziliya, Avstraliya, Liviya, Livan, Kamerun, Qana, Sudan, Şri-Lanka, Kosta-Rika, Banqladeş və Sudandan olan skaut liderləri təqdimatla çıxış ediblər.

***

Bakıda keçirilən 41-ci Dünya Skaut Konfransının ikinci gününün yekun tədbiri iştirakçı dövlətlərin mədəniyyətləri ilə tanışlığa həsr edilib.

160-dək dövlətin mədəniyyət nümunələrinin təqdim edildiyi gecədə əvvəlcə iştirakçı ölkələrin milli mətbəxini əks etdirən təamlar təqdim olunub.

Çoxsaylı iştirakçıların qatıldığı gecə əlamətdar anlarla yadda qalıb. Belə ki, iştirakçı ölkələrin milli rəqsləri, bir-birindən şən ifalar gecəyə xüsusi rəng qatıb.

İştirakçılar ölkələrinin mədəni-tarixi müxtəliflikləri ilə bağlı məlumatları ziyarətçilərlə bölüşüblər. Ayrıca vurğulanıb ki, dünyanın hər yerindən bu mühüm tədbirə qatılan skautlar yer üzündə sülhün bərqərar olunması naminə səylərini birləşdirəcəklər.

Mədəniyyətlərin tanışlığına həsr edilən gecə xoş ovqatla başa çatıb.



41-ci Dünya Skaut Konfransında iştirak edən dövlətlərin mədəniyyətləri ilə tanışlıq mərasimi

***

Dünya Skaut Konfransının iştirakçıları avqustun 16-da Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri, müasir Azərbaycanın memarı Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanına gedən skautçular ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, məzarları üzərinə tər güllər düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.



41-ci Dünya Skaut Konfransının iştirakçıları Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edir



41-ci Dünya Skaut Konfransının iştirakçıları Şəhidlər xiyabanını ziyarət edir

***

Həmin gün konfrans iştirakçıları üçün "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğunda Azərbaycan mədəniyyəti gecəsi təşkil edilib.

Qonaqlar əvvəlcə "Atəşgah məbədi" ilə yaxından tanış olublar. Konfrans iştirakçılarına məlumat verilib ki, Bakının mərkəzinin 30 kilometrliyində, Suraxanı rayonu ərazisində yerləşən "Atəşgah məbədi", demək olar, bütün dünyada tanınır. Qədim dövrlərdə bu ərazidə zərdüşti atəşpərəstlərin məbədi yerləşib. Əbədi alova mistik əhəmiyyət verən atəşpərəstlər müqəddəs oda tapınmaq üçün buraya gəliblər.

Bildirilib ki, XV-XVII əsrlərdə ticarət karvanları ilə Abşerona gələn atəşpərəst hindlilər Suraxanını ziyarət ediblər. Hindli tacirlər qədim məbədin yerində yeni tikililər inşa ediblər. "Atəşgah məbədi"nin ən erkən tikilisi 1713-cü ilə aiddir. XVIII əsrdə məbədin ətrafında ibadətgah, hücrələr, karvansara da tikilib.

Məbədlə tanışlıqdan sonra qonaqlar üçün musiqili gecə və ziyafət təşkil edilib. Tanınmış incəsənət ustalarının qatıldığı konsert proqramında bir-birindən maraqlı ifalar təqdim olunub.

Gecə əlamətdar anlarla yadda qalıb. Qonaqlar "Atəşgah məbədi"ndən zəngin təəssüratla ayrılıblar.

***

Bakıda keçirilən 41-ci Dünya Skaut Konfransının dördüncü günündə 2017-2020-ci illər üçün Dünya Skaut Komitəsinə yeni üzvlər seçilib. 19 namizəddən 12-si komitəyə üzv qəbul olunub. Azərbaycan Skautlar Assosiasiyasının prezidenti İlyas İsmayıllı da seçilən üzvlər sırasında yer alıb. Beləliklə, ilk dəfə olaraq Azərbaycan nümayəndəsi Dünya Skaut Komitəsinin rəhbər orqanına seçilib.

İlyas İsmayıllı deyib ki, 40 milyon üzvü öz ətrafında birləşdirən Dünya Skaut Hərəkatı Təşkilatının Skaut Komitəsi kimi çox böyük bir ictimai təşkilatın üzvü olmaq böyük şərəfdir: "Skaut Komitəsinin qəbul etdiyi qərarlar bütövlükdə təşkilatın inkişaf istiqamətini müəyyən edir. Skaut hərəkatının ölkəmizdə nisbətən gənc – 20 yaşı olduğunu nəzərə alaraq deyə bilərəm ki, bu, Azərbaycan üçün böyük uğurdur".

***

Dünya Skaut Konfransının sonuncu günü – avqustun 18-də Dünya Skaut Komitəsinin sədri və sədr müavinləri vəzifələrinə seçkilər keçirilib.

Dünya Skaut Komitəsinin yeni seçilmiş 12 üzvünün gizli səsverməsi nəticəsində təşkilatın yeni sədri Böyük Britaniya nümayəndəsi Qreq Turpi seçilib. Sədrin müavinləri vəzifəsinə isə ABŞ nümayəndəsi Edvard Endryu Çapman və Qana nümayəndəsi Cemima Narti seçiliblər.

Tədbirdə dünyada skaut hərəkatına öz töhfəsini vermiş 11 nəfərə "Bürünc canavar mükafatı" ("Bronze Wolf Award") təqdim olunub.

***

Avqustun 18-də Bakıda keçirilən 41-ci Dünya Skaut Konfransı başa çatıb.

Konfransın son iclasında Dünya Skaut Hərəkatı Təşkilatının rəsmiləri yüksək təşkilatçılığa və dəstəyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Qeyd olunub ki, Dünya Skaut Komitəsinin tarixində ilk dəfədir belə yüksək təşkilatçılıqla konfrans baş tutub. Elə buna görə də Azərbaycan skaut hərəkatı konfranslarının tarixində ilk dəfə təsis edilən təşəkkür diplomu və rəmzi hədiyyə ilə təltif olunub.



41-ci Dünya Skaut Konfransının yekun iclası

***

Həmin gün "Buta" sarayında 41-ci Dünya Skaut Konfransının bağlanış mərasimi keçirilib.

Mərasimdə Azərbaycan Skautlar Assosiasiyasının rəhbəri, Dünya Skaut Komitəsinin yeni üzvü İlyas İsmayıllı çıxış edərək qonaqları salamlayıb.

Dünya Skaut Komitəsinin yeni sədri Qreq Turpi öz çıxışında Bakı konfransının skautların bu günə qədər keçirdikləri ən iri toplantı olduğunu, burada 151 rəsmi nümayəndə heyətinin təmsil olunduğunu bildirib. Diqqətə çatdırılıb ki, skaut hərəkatının insanların həyatına böyük təsiri olub, təşkilat inkişaf etdikcə onun üzvlərinin sayı da artıb, hazırda isə hərəkat əlavə ehtiyatlar axtarışındadır.

Daha sonra skautlar müxtəlif dillərdə qonaqpərvər Bakıya təşəkkürlərini bildiriblər.



41-ci Dünya Skaut Konfransının bağlanış mərasimi

İSLAM HƏMRƏYLİYİ İLİ

Redaksiyadan:

Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən ölkədə islam həmrəyliyinin bərqərar olunması yolunda mühüm işlər görülüb. 1991-ci ildə dövlət müstəqilliyimizi tanıyan ilk dövlətlər sırasında Türkiyə, Pakistan kimi ölkələrin olması bu istiqamətdə bizə doğru atılan ilk addımlardandırsa, keçmiş sovet respublikalarından ən birinci Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatına (o zaman İslam Konfransı Təşkilatına) üzv olmaq barədə müraciət etməsi və 1991-ci ilin dekabrında bu quruma üzv seçilməsi bizim islam həmrəyliyinə doğru atdığımız ilk addımlardandır. Hazırda Azərbaycan Respublikasının İslam Əməkdaşlıq Təşkilatı (İƏT) ilə münasibətlərinin inkişafı ölkəmizin xarici siyasət kursunda prioritet istiqamətlərdəndir və strateji əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası 1991-ci ildən həm də təhsil məsələləri üzrə islam təşkilatı olan İSESKO-nun üzvüdür. Müsəlman ölkələrini birləşdirən digər mötəbər qurumlar sırasında Azərbaycanın İslam İnkişaf Bankının, Körfəz Əməkdaşlıq Şurasının işində iştirakını da qeyd etmək olar. İslam İnkişaf Bankı bugünədək Azərbaycan iqtisadiyyatına 18 layihə çərçivəsində 1 milyard ABŞ dollarına yaxın investisiya yatırıb. Kənd təsərrüfatı, enerji, nəqliyyat, sosial, su təchizatı və başqa sahələri əhatə edən bu layihələrin 14-ü artıq başa çatıb, 4 layihənin icrası isə davam edir.

Azərbaycanın islam ölkələri ilə həmrəyliyi və bu həmrəyliyin əhəmiyyəti BMT Baş Məclisində ölkəmizin suverenliyinə, ərazi bütövlüyünə hörmət ifadə edən, erməni silahlı qüvvələrinin işğal edilmiş ərazilərimizdən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələblərini qoyan qətnamələrin qəbulunda da özünü göstərir. Sonuncu belə qətnamə BMT Baş Məclisinin 2008-ci il martın 14-də keçirilmiş 62-ci sessiyasının 86-cı plenar iclasında qəbul edilib. Qətnamə səsverməyə çıxarılarkən Azərbaycanı dəstəkləyən 38 ölkədən 29-u əhalisinin əksəriyyətini müsəlmanlar təşkil edən ölkələrdir: Əfqanıstan, Bəhreyn, Banqladeş, Bruney Sultanlığı, Komor adaları, Cibuti, Qambiya, İndoneziya, İraq, İordaniya, Küveyt, Liviya, Malayziya, Maldiv Respublikası, Mərakeş, Niger, Nigeriya, Oman, Pakistan, Qətər, Səudiyyə Ərəbistanı, Seneqal, Syerra Leone, Somali, Sudan, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Özbəkistan, Yəmən.

2011-ci ilin oktyabrında Azərbaycan iki il müddətinə BMT Təhlükəsizlik Şurasına üzv seçiləndən sonra dövlətimiz BMT və İƏT arasında əməkdaşlığın genişləndirilməsi mövzusunda yüksəksəviyyəli görüşün təşkilini həyata keçirib. Konfransın nəticəsi olaraq qəbul

edilmiş bəyanatda (S/PRST/2013/16) Təhlükəsizlik Şurası İslam Əməkdaşlıq Təşkilatının BMT-nin işindəki aktiv rolunu tanıyıb. Bəyanatda beynəlxalq sülh və təhlükəsizliyin təmin olunmasında İƏT ilə əməkdaşlığın gücləndirilməsinin vacibliyi vurğulanıb.

2013-cü ilin iyulunda İslam Həmrəyliyi İdman Federasiyasının 8-ci Baş Assambleyası 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi haqda qərar qəbul edib. Bu mötəbər yarışın keçirildiyi 2017-ci il isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilib. Sərəncamda deyildiyi kimi, ölkəmizin islam aləmində qazandığı nüfuz 2009-cu ildə Bakı, 2018-ci ildə Naxçıvan şəhərlərinin İslam mədəniyyətinin paytaxtı elan olunmasında da öz ifadəsini tapır.

2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilməsi, 4-cü İslam Həmrəyliyi Oyunlarının Bakı şəhərində keçirilməsi ölkəmizin islam həmrəyliyinin möhkəmləndirilməsi sahəsində növbəti əməli addımlar atmasına şərait yaradıb. "Multikulturalizm" ədəbi-bədii, elmi-publisistik jurnalının "İslam Həmrəyliyi İli" bölməsi də bu missiyanın tərkib hissəsidir.



Rövşən NƏZƏROV
Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Təhlil və proqnozlaşdırma şöbəsinin aparıcı məsləhətçisi, ilahiyyatçı

İslam həmrəyliyi: problemlər və perspektivlər

Həmrəylik tarix boyu müəyyən ərazidə məskunlaşaraq formalaşmış, eyni dil, düşüncə mədəniyyətinə sahib qrupların və ya etnosların birliyidir. Bu birlik qarşılıqlı maraqların birləşməsi sayəsində meydana çıxır. Həmçinin həmrəylik özü ayrıca olaraq maraqların birliyini yaradır. Həmin birliyə qarşılıqlı anlaşma və normalar daxildir. Bununla bərabər, həmrəylik kəlməsini cəmiyyətdə şəxsləri vahid strukturda birləşdirmək metodu kimi də istifadə etmək mümkündür.

Həmrəylik məsələsinin ən əsas cəhətlərindən biri onun müxtəlif cəmiyyətlərdə fərqli məzmun ifadə etməsidir. Bəşəriyyətin ilkin inkişaf dövrünə aid cəmiyyətlərdə həmrəylik əsasən qohumluq münasibətləri üzərində qurulmuşdusa, hazırda həmrəyliyə nail olmaq üçün xüsusi mexanizmlərə ehtiyac var. Şübhəsiz ki, həmin mexanizmlər birləşdirici rol oynamalıdır. Bu da, əsasən, münasib ideoloji fikirlər və ideyalarla bağlı olur. Həmin ideoloji düşüncələr müəyyən toplum və ya xalqın dünyanın istənilən yerindəki nümayəndələri arasında birlik və həmrəyliyə nail olmağa imkan verir. Bu səbəbdən istər müasir müsəlman cəmiyyətləri, istərsə də milli cəmiyyətlər üçün düzgün ideoloji konsepsiya müəyyənləşdirmək İslam dünyasının düşdüyü çətin vəziyyətdən xilas olmasına və nəticədə bu ölkələrin yaşadığımız dünyada bir güc kimi formalaşmasına gətirib çıxaracaq. Bu, həm də müstəqil dövlətçilik ənənələri və vətəndaş cəmiyyəti formalaşdırmaq baxımından müstəsna əhəmiyyət kəsb edir.

İslamın həmrəylik, birlik məsələsinə münasibəti birmənalıdır. Dinimiz insanları birliyə və vəhdətə dəvət edir. Bunu islamın ana qaynağı olan Qurani-Kərimin bir çox ayələrində müşahidə etmək mümkündür: "Hamılıqla Allahın ipinə (dininə, Qurana) möhkəm sarılın və (firqələrə bölünüb bir-birinizdən) ayrılmayın!" (Ali-İmran, 103)[1].

Həmçinin Həzrət Peyğəmbərimizdən (s) nəql edilən hədisdə: "Vəhdət hər iki tərəfi birləşdirən bir həqiqətdir", yaxud "Möminlər bir-birlərini sevməkdə, bir-birlərinin qayğısına qalmaqda bir tək bədənə bənzərlər. Bədəndə bir üzv rahatsız olarsa, bədənin o biri üzvləri də rahatsız olub yuxusuz qalar", – deyə buyurulur [2]. Bu hədislərdən bir daha aydın olur ki, Allahın birliyinə, varlığına inanan, eyni Peyğəmbərin (s) ümməti olan, İslamın halalına halal, haramına haram deyən, eyni Kitaba uyan, namazda eyni qibləyə yönələn, axirətin varlığını təsdiq edən hər iki tərəf təfərrüata aid məsələlərdə azacıq fərqliliyə görə Allah Peyğəmbərinin müsəlman ümmətinə əmanət olaraq qoyub getdiyi İslam dinində parçalanmaya, bölünməyə yol verməməli, əksinə, bir olub bu əmanəti göz bəbəyi kimi qorumalıdır.

Ümumiyyətlə, İslamda vəhdət nümunələri çoxdur. Camaatla birgə yerinə yetirilən ibadətlərdə, xüsusən həcc mövsümü zamanı millətindən, irqindən, cinsindən asılı olmayaraq müxtəlif millətlərin nümayəndələrinin bir yerə toplaşaraq düşüncə və şüarlarında vəhdət nümayiş etdirməsi ən bariz nümunədir.

Həmçinin hər il eyni vaxtda – ramazan ayında məzhəbindən, yaşadığı ərazidən asılı olmayaraq, müsəlmanlar bir ay müddətində oruc tuturaq Allaha ibadət edir, ayın sonunda isə hamı bir nəfər kimi Ramazan bayramını qeyd edir. İslam dünyasında bütün müsəlmanların qeyd etdiyi daha bir bayram isə müqəddəs Qurban bayramıdır. Hər il Hicri təqvimi ilə zilhiccə ayının 10-da müsəlmanlar Allahın razılığını qazanmaq və imkanı olmayan din qardaşlarına yardım etmək məqsədilə qurbanlar kəsirlər. Qeyd edilən bu bayramlar İslamda həqiqi yardımlaşmanın, birliyin və vəhdətin əyani göstəriciləridir.

İslam tarixinə nəzər saldıqda digər bir vəhdət nümunəsi kimi müsəlmanların hicrətindən sonrakı zamanı göstərmək olar. Belə ki, Həzrət Peyğəmbərimizin (s) Məkkədən Mədinəyə hicrətindən sonra gördüyü ilk iş müsəlmanlar arasında qardaşlıq əhdi bağlamaq olub. Mədinə şəhərinin yerli əhalisi ilə Məkkə şəhərindən köçənlər arasında vəhdət yaratmaq məqsədilə o, hər iki tərəfdən bir nəfər seçərək həmin şəxsləri bir-birinə qardaş elan edib.

Hər il İslam dünyasında Həzrət Məhəmmədin (s) doğum günü bayram kimi qeyd olunur. Tarixi mənbələrdə həmin gün iki variantda – Rəbiüləvvəl ayının 12-si və 17-si olaraq keçdiyi üçün hər il həmin həftə "Vəhdət həftəsi" elan olunur. Həmin günlər məzhəblər arasındakı anlaşılmazlıqların aradan qaldırılması və müsəlman birliyi baxımından çox böyük önəm daşıyır.

İslamın təşəkkül tapdığı zamandan Allah-Taalanın insanları birliyə, qardaşlığa çağırmasına baxmayaraq, təəssüf ki, müsəlmanlar hələ də öz aralarında vəhdət və həmrəyliyə nail ola bilməyiblər. Bunun əsas səbəblərindən biri 14 əsrlik tarixi olan İslamda məzhəbçilik məsələsinin qabardılmasıdır.

Məzhəblərarası vəhdət və birliyə maneçilik törədən bir sıra amillər var:

Bəzi dairələrin fitnələri. Müsəlman dünyasının inkişafında maraqlı olmayan bəzi qüvvələr hər vəchlə İslam məzhəbləri arasında ayrı-seçkilik salmaqla öz çirkin məqsədlərinə nail olmaq istəyirlər. Son iki əsrdə müsəlman

aləmindəki təfriqələrin səbəbləri araşdırılan zaman bu qüvvələrin izləri açıq-aydın görünür.

Cahillik və məzhəblərin bir-birinə radikal yanaşması. İslamda məzhəblərin yaxınlaşmasının qarşısını kəsən əsas maneələrdən biri – cəhalət və məlumatsızlıqdır. Lazımi səviyyədə dini-elmi hazırlığı olmayan məzhəb nümayəndələri bir-birinin əqidə məsələləri və ehkam prinsipləri ilə tanış olmadan dərhal qarşılıqlı tənqidə başlayırlar. Müəyyən müddətdən sonra ortaya çıxan həqiqət tərəflərin nə qədər səhv mövqedə olduğunu nümayiş etdirsə də, cahillik ziddiyyətləri xeyli dərinləşdirir.

Təəssübkeşlik və inadkarlıq. Məzhəb təəssübkeşliyi və inadkarlıq müsəlmanların həmrəy olması yolunda duran növbəti maneədir. Belə ki, İslama mükəmməl bələd olmayan, köhnə adət-ənənələrə, ata-baba qayda-qanunlarına bağlı bəzi şəxslər vəhdət fikrini heç cür qəbul edə bilmirlər. Beləsi qarşı tərəfə edilən hər hansı güzəşti öz məzhəbinə qarşı xəyanət kimi qavrayır.

Məhz bu təəssübkeşlik və inadkarlığı aradan qaldırmaq məqsədilə 1945-ci ildə Qahirədə "Dar ət-təqrib" (İslam Məzhəbləri arasında Yaxınlaşma Mərkəzi) mərkəzi yaradıldı [3]. Bunun məntiqi davamı kimi 1948-49-cu illərdə şiə və sünni məzhəblərinin önəmli şəxslərinin təşəbbüsü ilə Misirdə "İslam Məzhəbləri arasında Yaxınlaşma Təşkilatı" təsis olundu.

Tarix boyu müsəlmanlar vəhdət nümayiş etdirmək, İslam ölkələrinin siyasi birliyinə nail olmaq istiqamətində bir sıra cəhdlər göstəriblər. Uzun illər davam edən bu səylər nəticəsində qazanılan ən böyük uğur 1969-cu ildə İslam Əməkdaşlıq Təşkilatının yaradılması oldu. Ölkəmiz də ikinci dəfə müstəqillik əldə etdikdən sonra bu təşkilatın fəal üzvünə çevrilib, İƏT-in işində aktiv iştirak edib. Ölkəmizin İslam dünyasının ayrılmaz parçası olduğunu dönə-dönə vurğulayan Ulu Öndər Heydər Əliyevin İƏT-in Mərakeş Krallığında keçirilən zirvə toplantısında səsləndirdiyi "Azərbaycan Respublikasının Prezidenti kimi mən öz qardaşlarımla – müsəlman dövlətlərinin başçıları ilə şəxsi münasibət yaratmağa, aramızda həmrəyliyi möhkəmlətməyə böyük əhəmiyyət verirəm" fikri dövlətimizin İslam dünyası ilə əlaqələrə verdiyi əhəmiyyətin bariz göstəricisidir [4].

Müsəlman birliyinə nail olmaq üçün daha bir addım 2005-ci ilin iyul ayında atıldı. Belə ki, həmin vaxt İordaniya Haşimilər Krallığının Əmman şəhərində təşkil edilmiş Beynəlxalq İslam Konfransında müsəlmanları həmrəyliyə çağıran "Əmman bəyannaməsi" qəbul olundu [5].

Lakin təəssüflə qeyd etməliyik ki, atılmış addımlar müsəlman birliyi, həmrəyliyi baxımından kifayət qədər səmərəli olmayıb.

İslam dünyasının, İslam sivilizasiyasının əsas mərkəzlərindən olan Azərbaycan tarix boyu İslam mədəniyyətinə və elminə böyük töhfələr verib. Ölkəmiz bu gün də dünyada tolerantlıq mühitinin inkişafına, multikulturalizm, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun yaradılmasına, İslam dəyərlərinin beynəlxalq səviyyədə təbliğinə böyük töhfələr verir. Bütün bu nailiyyətlərin qazanılmasında xalqımızın Ümummilli Lideri Heydər Əliyevin müstəsna xidmətləri olub. Məhz bu şəxsiyyətin danılmaz zəhməti sayəsində

ölkəmizdə milli və dini baxımdan birlik və vəhdət mədəniyyəti formalaşıb. Fikrimizi Ulu Öndərin bu sözləri də təsdiqləyir: "Bizə birlik və vəhdət lazımdır. Vəhdət Azərbaycan xalqına, bütün müsəlmanlara böyük bəlalardan xilas olmaqda həmişə kömək etmişdir" [6].

Xalqımız hər zaman İslam dəyərləri və irsinə həssas münasibət göstərib, dövlətimiz də öz növbəsində bu dəyərlərə qayğı ilə yanaşıb. Bu gün Azərbaycanın İslam ölkələri ilə qarşılıqlı səmərəli, dostluq münasibətlərinin mövcudluğu heç kəsə sirr deyil. Bunun məntiqi nəticəsi kimi ölkəmiz son illərdə qlobal əhəmiyyətli vacib forumların yüksək səviyyədə təşkilatçısına çevrilib. Tanınmış çilili jurnalist Markos Borkoskinin təbirincə desək: "Azərbaycan – dini birgəyaşayışın oazisidir" [7].

Bu gün İslam dünyasının ölkəmizin təcrübəsindən öyrənəcəyi çox şey var. Müsəlmanlar yaşayan ərazilərdə baş verən münaqişələr və bunun nəticəsində yaranan problemlər islam həmrəyliyini daha da aktual məsələyə çevirib. Məhz həmrəyliyin lazımi səviyyədə olmaması özünü müsəlman hesab edən hər kəsi düşündürən məsələdir. Bunu nəzərə alan Azərbaycan Prezidenti İlham Əliyev 2017-ci ili ölkədə "İslam Həmrəyliyi İli" elan edib. Prezident bununla həm də onu göstərir ki, Azərbaycan dünyada islam həmrəyliyinin güclənməsində maraqlıdır və bu istiqamətdə hər cür əməkdaşlığa hazırdır.

2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsi dünya ictimaiyyətinə sülh çağırışı olmaqla yanaşı, Azərbaycanda əsrlərdən bəri qorunub saxlanan tarixi nailiyyətlərin və mədəni dəyərlərin təbliği baxımından da çox vacibdir. Dövlət başçısının belə bir təşəbbüslə çıxış etməsi dövrün ən ciddi çağırışlarındandır: "Düşünürəm ki, indi müsəlman dünyasının əvvəl heç zaman olmadığı qədər daha çox birliyə ehtiyacı var. Müsəlman dünyasında bu birlik çatışmır. Düşünürəm ki, Azərbaycan bu istiqamətdə mühüm rol oynayır" [8]. Azərbaycan Prezidentinin bu çağırışı İslam dünyasında yüksək qiymətləndirilir və böyük dəstək almaqdadır.

2017-ci ilin "İslam Həmrəyliyi İli" elan olunması özündə təkcə dini məzhəb həmrəyliyini ehtiva etmir. İslam ölkələrinin bu gün qarşılıqlı siyasi, iqtisadi, mədəni və mənəvi yardımlaşmasına daha böyük ehtiyac var. Dövlət başçısının islam həmrəyliyi ilə əlaqədar müraciətində də adıçəkilən məsələ öz əksini tapıb.

Ölkəmizdə 2016-cı ilin "Multikulturalizm İli", onun məntiqi davamı olaraq 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi ölkəmizdə təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-din münasibətləri modelinin digər dövlətlər tərəfindən öyrənilməsi və tədqiq olunması baxımından da əhəmiyyətlidir. Müsəlmanların gələcəyi, dünyaya inteqrasiyası ilə əlaqədar məsələlərlə bağlı iş aparılarkən ölkəmiz xüsusilə diqqət mərkəzində olacaq. Müsəlman dünyasının gələcəyi, İslamın müasir dünyaya uğurla transformasiyası məsələsini müzakirə edərkən Azərbaycan modeli əminliklə nümunə göstərilə bilər. Məlumdur ki, 2016-cı ilin yanvar ayında Bakıda Qafqazın ən böyük məscidi olan Heydər məscidində ölkə Prezidentinin ideyası ilə məzhəbindən asılı olmayaraq müsəlmanlar ilk dəfə eyni vaxtda, bir yerdə

vəhdət namazı qılıblar. Həmin gündən vəhdət namazı Azərbaycanda ənənə halını almaqla ölkənin digər məscidlərinə də sirayət edib.

İslam dünyasında vəhdət, birlik və həmrəyliyə nail olmaq üçün ilk növbədə dini rəhbərlər, müsəlman alimləri, ziyalılar, ağsaqqallar səylə çalışmalıdırlar. Çünki müsəlmanların uğur qazanması və xoşbəxt gələcəyi ictimai birlikdən asılıdır.

Müsəlmanların vəhdəti üçün ilk meyar bir olan Allaha, bir Peyğəmbərə və bir Kitaba etiqad prinsipidir. Özünü müsəlman hesab edən hər kəs "la ilahə illəllah" kəlməsi ətrafında sıx birləşərək, bəşəriyyəti parçalayan, təfriqə salan təkfirçilik, məzhəbçilik kimi bataqlıqlardan xilas ola bilər.

Bütün bunlara riayət olunacağı təqdirdə İslam dünyasında münaqişələrin, dini, milli zəminli təfriqələrin qarşısını almaq da mümkün olacaq.

Ədəbiyyat

1. Qurani-Kərim (tərcümə edənlər: Ziya Bünyadov, Vasim Məmmədəliyev). Bakı: 2015.
2. https://islamiyyatdotorg.wordpress.com/2012/04/09/musəlmanların-muttəfiq-olduqları-muhum-məsələlər/
3. https://islamiyyatdotorg.wordpress.com/2012/02/06/məzhəblərarası-yaxınlasma-hərəkatının-tarixinə-dair/
4. Mübariz Qurbanlı. "Azərbaycan islam həmrəyliyinin ideya və real fəaliyyət mərkəzinə çevrilir". "Dövlət və din" İctimai fikir toplusu, № 01(48), yanvar-fevral 2017, səh. 10-11.
5. https://az.wikipedia.org/wiki/ İslamda həmrəylik
6. Heydər Əliyev siyasəti: Tolerantlıq// DQİDK, 2015, səh 64.
7. http://scwra.gov.az/vnews/1991/
8. http://www.president.az/articles/22719



Этибар НАДЖАФОВ
главный консультант Отдела по межнациональным отношениям, вопросам мультикультурализма и религии Администрации Президента Азербайджанской Республики, профессор

«Наш опыт в области мультикультурализма проявляется в отсутствии у нас противоречий на этнической и религиозной почве»

В столице Польши – Варшаве завершило свою работу Совещание ОБСЕ по рассмотрению выполнения обязательств, посвященных человеческому измерению. На мероприятии Азербайджан представлял главный консультант Отдела по межнациональным отношениям, вопросам мультикультурализма и религии Администрации Президента Азербайджанской Республики Этибар Наджафов

– Этибар муаллим, прежде всего, хотелось бы вкратце узнать об особенностях мероприятия, в котором вы приняли участие...

– Со времени учреждения Бюро ОБСЕ по демократическим институтам и правам человека (1990) ежегодно осенью в Варшаве проводится Совещание ОБСЕ по рассмотрению выполнения обязательств по человеческому измерению со стороны государств – участников этой организации. Организатором Совещания выступает Бюро ОБСЕ по демократическим институтам и правам человека (БДИПЧ), и оно является крупнейшим в Европе форумом по правам человека. На совещании государства – участники ОБСЕ, в первую очередь, представляют отчет о проделанной работе относительно принятых путем консенсуса обязательств в области человеческого измерения.

– Что подразумевается под человеческим измерением, и каковы обязательства государств – участников ОБСЕ в профильной сфере?

– Говоря о человеческом измерении, мы имеем в виду, прежде всего, соблюдение прав человека, обеспечение верховенства закона и построение демократического общества. Концепция человеческого измерения ОБСЕ является одной из трех составных частей, формирующих основу концепции безопасности этой организации. Две другие составные части концепции безопасности ОБСЕ связаны с военно-политической и экономико-экологической безопасностью. Иначе говоря, ОБСЕ как крупнейшая в мире региональная организация, занимающаяся вопросами безопасности, подходит к выполнению функций с трех измерений (аспектов) – военно-политического, экономико-экологического и человеческого. К военно-политическому измерению безопасности относятся такие вопросы, как разоружение, контроль над вооружениями, борьба с терроризмом, укрепление доверия между государствами. Эти вопросы обсуждаются государствами – участниками ОБСЕ в Вене еженедельно.

Экономико-экологическое измерение безопасности охватывает устойчивое экономическое развитие, транспортную и энергетическую безопасность, регулирование миграционных процессов, охрану окружающей среды, предотвращение экологических бедствий и др. Указанные вопросы обсуждаются на экономическом форуме, который проходит раз в год в Праге.

Будучи одним из основных институтов мира в области прав человека, БДИПЧ способствует выполнению государствами – участниками ОБСЕ своих обязательств в области человеческого измерения. Конечно же, вышеуказанное совещание, организованное БДИПЧ, играет важную роль в достижении человеческого измерения безопасности. Государства – участники ОБСЕ рапортуют о проделанной работе в области обеспечения человеческого измерения, неправительственные организации, международные организации представляют доклады о состоянии дел в указанной области в той или иной стране, идет активное обсуждение, обмен мнениями относительно путей улучшения положения дел в сфере прав человека. Совещание ОБСЕ в конечном итоге позитивно воздействует на выполнение государствами – участниками ОБСЕ своих обязательств в области человеческого измерения.

– Вы отметили, что на совещании государства – участники ОБСЕ рапортуют о проделанной работе в области человеческого измерения. О чем вы поведали авторитетной аудитории, выступая в ранге официального представителя Азербайджана?

– В рамках совещания в общей сложности состоялось 18 сессий. Обсуждались фундаментальные свободы (свобода мирных собраний и ассоциаций, свобода мысли, совести, вероисповедания и убеждений), демократические институты (демократия на национальном, региональном

и местном уровнях, демократические выборы), терпимость и недискриминация (борьба с расизмом, ксенофобией и дискриминацией, борьба с антисемитизмом, с нетерпимостью и дискриминацией в отношении христиан, мусульман и представителей других религий, права лиц, принадлежащих к национальным меньшинствам), борьба с торговлей людьми, вопросы беженцев и перемещенных лиц, верховенство права (недопущение пыток, защита прав человека и борьба с терроризмом) и т.д. В соответствии с основными направлениями деятельности Отдела по межнациональным отношениям, вопросам мультикультурализма и религии Администрации Президента Азербайджанской Республики я принял участие в сессиях, где обсуждались вопросы борьбы с расизмом, ксенофобией и дискриминацией в отношении христиан, мусульман, евреев и представителей других религий, а также защиты прав лиц, принадлежащих к национальным меньшинствам. На сессии, где обсуждались вопросы обеспечения религиозной свободы, я рассказал об основных признаках отношений между государством и религией в Азербайджане.

В частности, рассказал об обеспечении свободы религии, о равенстве всех религиозных конфессий в нашей стране, об оказании государством необходимой, в том числе финансовой, помощи религиозным организациям, а также о развивающейся дружбе, взаимопомощи и сотрудничестве между религиозными конфессиями. Я отметил, что по своему содержанию, будучи положительными явлениями, указанные признаки обусловлены политикой мультикультурализма Азербайджанской Республики. Именно благодаря государственной политике мультикультурализма, которая предполагает сохранение существующего в обществе этнического, религиозного, лингвистического разнообразия, Азербайджану удалось предотвратить наблюдающийся даже в передовых демократических странах мира рост нетерпимости, ксенофобии и дискриминации в отношении национальных, лингвистических и религиозных меньшинств.

На сессии по вопросам национальных меньшинств я рассказал о достижениях национальной политики Азербайджана, что является одной из составных частей политики мультикультурализма. В этих рамках государство успешно решает экономические, социальные и культурные вопросы национальных меньшинств. Особое внимание уделяется сохранению их этнокультурных ценностей. В стране функционируют культурные центры национальных меньшинств, издаются газеты и журналы, ведутся радиопередачи, действуют школы на их языках.

В Азербайджане зарегистрировано около 50 неправительственных организаций (НПО), которые специализируются на социально-экономических и культурных вопросах нацменьшинств. Они изучают указанные вопросы и направляют свою деятельность на их решение.

Мои выступления носили характер отчетного доклада. В них отразились достижения политики мультикультурализма в Азербайджане, позитивный опыт страны в регулировании существующего этнического,

религиозного и культурного разнообразия, сохранении и развитии этнокультурных ценностей всех народов, проживающих в стране.

– Какова была реакция участников мероприятия на Ваши выступления?

– В случаях, когда выступления не отражают действующее положение вещей, не соответствуют реалиям, то они подвергаются критике со стороны участников мероприятия. В таких случаях, как правило, аудитория проявляет свое недовольство, даже антипатии к стране, о достижениях которых говорится в выступлениях, или же к организации, деятельность которой находится в противоречии с установленными критериями. В качестве критиков могут выступить как представители различных государственных делегаций, так и представители НПО, или международной организации.

Говоря о достижениях политики мультикультурализма в Азербайджане, я опирался на конкретные факты. Именно поэтому участники мероприятия восприняли мои выступления без возражений. Более того, многие участники совещания с интересом восприняли информацию о реальном положении дел в области регулирования этнокультурного разнообразия, о возможностях интеграции в обществе Азербайджана.

Даже члены армянской делегации, которые всегда стремятся очернить наши достижения в различных областях, в том числе и в области мультикультурализма, слушали молча и не реагировали на мои заявления. Хотя могли воспользоваться правом ответа, могли возразить или, по крайней мере, огульно очернить, как это они любят делать, достижения, о которых я говорил.

Дело в том, что достижения нашей страны в области регулирования этнического, религиозного и культурного разнообразия действительно внушительны. В настоящее время Азербайджан является одним из основных центров мультикультурализма. Наш опыт в области регулирования этнокультурного разнообразия по многим показателям превосходит практику многих стран, в том числе и передовых западных. Это, прежде всего, проявляется в отсутствии в нашем обществе каких-либо противоречий на этнической и религиозной почве. В то время как в западных странах происходят конфликты на этнорелигиозной почве, особенно участившиеся в связи с иммиграцией беженцев из Ближнего Востока, Африки, а также распространяются такие негативные явления, как ксенофобия, исламофобия, антисемитизм, дискриминация, Азербайджан, опираясь на политику мультикультурализма, успешно предотвращает конфликты на этнорелигиозной основе. Не случайно во время сессий в адрес некоторых западных государств (Франция, Великобритания, США) за попустительство распространению этих негативных явлений звучала критика со стороны представителей различных НПО, международных организаций.

Кстати, замечу, что на сессиях с моим участием в выступлениях представителей государств-участников была очень скудная информация о достижениях в области регулирования этнического, религиозного и культурного разнообразия. Это еще раз показывает, что Азербайджан действительно является одним из опорных центров мультикультурализма в мире.

– О чем говорили представители армянской государственной делегации?

– Армения как государство, оккупировавшее территорию Азербайджана, осуществившее политику этнической чистки против азербайджанцев в Армении и на оккупированных наших территориях, разрушающее мечети, не имеет положительного опыта в обеспечении прав национальных и религиозных меньшинств. Она фактически превратилась в моноэтническое государство. Поэтому членам армянской государственной делегации нечего было сказать об опыте Армении в обеспечении прав национальных и религиозных меньшинств.

В официальном заявлении Армении представитель армянской государственной делегации ограничился лишь общими словами о необходимости соблюдения государствами-участниками обязательств ОБСЕ в области обеспечения прав и свобод этнических и религиозных меньшинств. Относительно того, чего достигла Армения в указанной области, он ничего не сказал. По той простой причине, что Армения не имеет каких-либо достижений.

Наоборот, им пришлось ответить на обвинения представителя Фонда по Евразийскому партнерству (ФЕП), базирующегося в Ереване, Ануш Маркарян о практике нетерпимости и дискриминации в Армении. Она, опираясь на факты, представленные экспертами в области прав человека, сообщила о совершении преступлений на почве ненависти в стране. Хотя армянское правительство скрывает эти преступления, тем не менее, они совершаются на этнической, религиозной и гендерной основе.

По ее словам, СМИ и социальные сети Армении изобилуют ненавистническими речами (hate speech). Кроме того, Ануш Маркарян подвергла резкой критике армянское правительство за пропаганду этнического национализма и нетерпимости в школьных учебниках. Особой критике она подвергла армянскую церковь. Из-за вмешательства церкви в учебную программу средней школы с 2002 года предмет «История армянской апостольской церкви» преподается в государственных школах с 5-го по 10-й классы как обязательный предмет. Во время преподавания этого предмета выполняются различные религиозные церемонии. При этом игнорируются интересы учеников других вероисповеданий.

Представители гражданского общества не раз выступали с требованием ограничить вмешательство армянской церкви в образование. Однако ничего не изменилось. Также в докладе Ануш Маркарян содержалась

критика распространяемой в школьных учебниках идеи об исключительности армянской нации, о ее высшем характере. Автор доклада совершенно правильно отмечала, что пропаганда подобных идей ведет к распространению нетерпимости и дискриминации в Армении.

На основе изложенных фактов Ануш Маркарян представила конкретные рекомендации правительству Армении, направленные на преодоление нетерпимости и дискриминации в стране. Факты распространения нетерпимости и дискриминации, нарушения прав человека в Армении достоверны, потому членам армянской государственной делегации было нелегко их опровергнуть.

– Несмотря на изложенные вами достижения в области мультикультурализма, на миролюбивую политику нашей страны, в мире наблюдается предвзятый подход в отношении Азербайджана. Это находит отражение, прежде всего, в том, что наши справедливые требования игнорируются, а агрессивные действия Армении замалчиваются…

– Да, вы правы. Это и есть проявление политики двойных стандартов в отношении Азербайджана. Президент Азербайджанской Республики Ильхам Алиев в своих многочисленных выступлениях обвиняет ведущие государства мира в применении политики двойных стандартов. Так, недавно 21 сентября в своем выступлении на 72-й сессии Генеральной Ассамблеи ООН наш Президент по этому поводу сказал: «В 1993 году Совет Безопасности ООН принял 4 резолюции, требующие безотлагательного и безоговорочного вывода вооруженных сил Армении с территории Азербайджана... Вот уже 24 года Армения игнорирует резолюции Совета Безопасности ООН и, к сожалению, не несет наказания за это. В ряде случаев резолюции Совета Безопасности ООН исполняются в течение нескольких дней. Когда же дело касается нас, резолюции не исполняются уже 24 года. Это подход, основанный на двойных стандартах. Такой подход неприемлем. Против Армении должны быть приняты международные санкции».

К сожалению, политика двойных стандартов в отношении Азербайджана – это реальность наших дней. Причем этой политики придерживаются не только отдельные государства, но и некоторые международные организации, базирующиеся в западных странах. Некоторые из них в своих оценках о положении дел в обеспечении прав и свобод этнических и религиозных меньшинств в Азербайджане стремятся исказить реальную ситуацию. Так, например, созданная в 1998 году Конгрессом США организация «Комиссия по международной религиозной свободе» (КМРС) (the U.S. Commission on International Religious Freedom) ежегодно готовит доклад о состоянии религиозной свободы, в частности, о нарушении религиозной свободы в различных странах мира. На основе этого доклада организация вырабатывает рекомендации и представляет их Президенту,

Государственному секретарю и Конгрессу США. Эти рекомендации в определенной степени влияют на внешнюю политику США. С 2013 года КМРС поместила Азербайджан в группу стран, в которых в определенной степени нарушается религиозная свобода. В то время как Армения, оккупировавшая территорию Азербайджана, изгнавшая из своих и оккупированных территорий мусульман, разрушающая мечети и другие исламские культовые объекты, ущемляющая права национальных и религиозных меньшинств, не попала в доклад КМРС. Это еще одно свидетельство политики двойных стандартов.

Как же нам следует поступить в такой ситуации, когда против нас активно проводится политика двойных стандартов? Естественно, надо бороться с этой политикой. В частности, необходимо обуздать косность, раскрыть все проявления политики двойных стандартов в отношении Азербайджана, разоблачить ее субъектов и довести все полученные факты до мировой общественности. Необходимо также распространить правду о нашей стране, о ее достижениях в области обеспечения прав и свобод этнических и религиозных меньшинств, в области успешного проведения политики мультикультурализма.

Участие азербайджанской государственной делегации в совещаниях подобного рода является одним из конкретных путей для достижения указанных задач.

– В чем вы конкретно видите значение этого совещания ОБСЕ в борьбе против политики двойных стандартов, в особенности в отношении Азербайджана?

– Как я уже отметил, ежегодное Совещание ОБСЕ по рассмотрению выполнения обязательств, посвященных человеческому измерению, является крупнейшим в Европе форумом по правам человека. На этом совещании члены делегаций государств – участников ОБСЕ представляют отчет о достигнутых обязательствах в области человеческого измерения. Это совещание предоставляет широкие возможности для достижения вышеуказанных мною задач, связанных с борьбой против политики двойных стандартов в отношении Азербайджана.

Наряду с сессионными выступлениями, можно также организовать так называемые дополнительные мероприятия (side events), которые имеют ряд преимуществ по сравнению с сессионными заседаниями в плане пропаганды достижений страны в области человеческого измерения. Во-первых, организатор побочного события сам определяет тему; во-вторых, если в сессионных заседаниях каждому участнику дается всего 3 минуты для выступления, то дополнительные мероприятия длятся 80-90 минут. Здесь у организаторов и участников имеется гораздо больше времени и способов, чтобы лучше донести до аудитории факты, отражающие достижения страны в определенной области человеческого измерения; в-третьих, в дополнительных мероприятиях присутствуют те участники

совещания, которые имеют интерес к обсуждаемой теме. Потому во время дополнительных мероприятий наблюдается активное обсуждение поставленных вопросов.

Учитывая эти перечисленные и другие преимущества дополнительных мероприятий, в последующем и нам необходимо их организовать.

Беседу вел Г. Рустамов



Əli FƏRHADOV
Milli Azərbaycan Tarixi Muzeyinin elmi işçisi, tarix üzrə fəlsəfə doktoru

Cənubi Qafqazda multikulturalizmin ədəbi-publisistik qaynaqları*
(XIX əsrin sonu – XX əsrin əvvəlləri)

XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan xalqının qonşu xalqlarla əlaqələri dövrün Cənubi Qafqazda nəşr olunan müxtəlif mətbu orqanlarında işıqlandırılıb, qarşılıqlı mədəni münasibətlər tədqiq edilib. Bu dövrün mətbu orqanlarında Azərbaycan multikulturalizminin qonşu xalqlara təsiri haqqında xeyli məlumata rast gəlinir.

XIX əsrin ikinci yarısından etibarən erməni dilində nəşr olunan "Mşak" ("Zəhmətkeş"), "Murc" ("Çəkic"), "Nordar" ("Yeni əsr") kimi qəzetlərdə Azərbaycan ədəbi-ictimai mühiti haqqında geniş məlumatlar var. Məsələn, Azərbaycanda yaşayıb-yaradan erməni yazıçısı Aleksandr Şirvanzadənin də əməkdaşlıq etdiyi "Mşak" qəzetində "Əkinçi" qəzetinin nəşr olunması alqışlanırdı. "Əkinçi"nin redaktoru Həsən bəy Zərdabinin "Mşak"ın redaktoru Arzuniyə məktubunda təşəkkür ifadə olunur, qarşılıqlı mədəni əlaqələrin inkişaf etdirilməsi arzulanırdı. "Mşak"da H.Zərdabinin maarifçilik, xalqlar dostluğu ideyaları təbliğ edilir, mədrəsə təhsilinin, eləcə də Azərbaycan mətbuatının ərəb-fars ağırlıqlı olmasının türkdilli əhalinin milli inkişafına müsbət təsir göstərmədiyi vurğulanırdı. "Mşak"ın "Bakıda nəşr olunan yeganə türk qəzeti bağlandı" başlıqlı xəbərində "Əkinçi"nin nəşrinin dayandırılması təəssüflə bildirilirdi.

---

* *Məqalə Azərbaycan Respublikası Təhsil Nazirliyi və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin birgə nəşri olan, ali məktəblər üçün dərslik kimi nəzərdə tutulmuş "Azərbaycan multikulturalizmi" kitabından götürülmüşdür. Dərsliyin elmi redaktorları akademik Kamal Abdullayev və professor Etibar Nəcəfovdur.*

Maraqlıdır ki, Mirzə Şəfi Vazehlə, Mirzə Fətəli Axundzadə ilə dostluq eləyən, Azərbaycan türkcəsinin erməni xalqı tərəfindən sevilərək işləndiyini deyən yazıçı Xaçatur Abovyan da İrəvandakı ibtidai siniflərdə rus dili ilə yanaşı erməni və türk dillərinin də tədris olunmasının vacibliyini qeyd edirdi. Abovyan yazırdı: "Onların dili bizim millətin ağzına o qədər dadlı gəlib ki, ermənilər öz dillərini buraxıb nəğmə, nağıl, zərbi-məsəlləri türkcə deyirlər. Çünki buna adət ediblər. Dinləyənin, görənin ruhu cənnətə gedib-gəlir".

İrəvanda 1882-ci ildən başlayaraq Azərbaycan tamaşalarının göstərilməsi, erməni əlifbası ilə türkcə pyeslər yazan Vasak Mədətovun, eləcə də M.F.Axundzadənin əsərlərinin səhnələşdirilməsi "Nordar", "Murc" kimi erməni qəzetlərinin xəbəri olurdu. "Nordar" qəzetində "Kəşkül"ə abunə elanı verilir, Səid Ünsizadənin "Ziya" qəzeti haqqında xəbərlər yer alırdı. "Murc"da isə Məhəmməd ağa Şahtaxtlının Azərbaycan türkcəsini saflaşdırıb osmanlı, ərəb, fars kimi yad ünsürlərdən təmizləmə cəhdi təşviq edilirdi.

Qeyd edək ki, Hovanes Tumanyan, Aleksandr Şirvanzadə kimi erməni yazıçılarının xalqlar dostluğundan bəhs edən ədəbi-bədii, publisistik əsərləri, Cəlal Ünsizadə, Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Abdulla Şaiq kimi yazıçı və şairlərimizlə dostluq əlaqələri çarizm dövründə "Kəşkül" qəzetində, eləcə də bir sıra başqa nəşrlərdə geniş əks olunub. C.Ünsizadənin xahişi ilə "Kəşkül" məcmuəsində A.Şirvanzadənin Azərbaycan türkcəsində yazdığı "Fatma və Əsəd" hekayəsi nəşr olunmuşdu. Qeyd edək ki, adıçəkilən erməni yazıçısının Azərbaycanın ağır iqtisadi həyatından bəhs edən "Namus", "Xaos" kimi əsərləri də var. M.F.Axundzadənin ruhu qarşısında baş əyən A.Şirvanzadə belə yazırdı: "Sizə bəllidir ki, mən Azərbaycan vətəndaşı olduğuma görə ilk vətənimin mədəniyyət məsələləri ilə və birinci növbədə türk teatrı və ədəbiyyatının vəziyyəti ilə həmişə maraqlanmışam. Ona görə də türk xalqının mədəniyyət sahəsində əldə etdiyi böyük müvəffəqiyyətləri görmək mənim üçün çox fərəhlidir. Sizi əmin edirəm ki, bunların hamısı məni hədsiz dərəcədə sevindirir". Məhz belə humanist mövqeyinə görə sonralar o, Azərbaycan SSR-də Xalq Yazıçısı adına layiq görülən ilk qələm adamı oldu.

H.Tumanyanın ədəbi əsərlərində, məqalələrində isə çarizmin ermənilərlə müsəlmanlar arasında yaratdığı münaqişə tənqid edilirdi. Yazıçı "İnsan istər türk, istərsə də erməni olsun, birdir" deyir, Sayat Nova kimi türkcə yazan erməni aşıq və şairlərinin bütün Qafqaza aid olduğunu vurğulayırdı.

"Qoç-Dəvət" qəzeti də öz səhifələrində Qafqaz xalqlarının qardaşlığını təbliğ edirdi. Bu beynəlmiləlçi məfkurə sonralar – sovet hakimiyyəti illərində ayrıca araşdırıldı, orta əsrlərdən başlanan erməni-müsəlman ədəbi-mədəni əlaqələri, xüsusilə erməni əlifbası ilə Azərbaycan türkcəsində yazan Miran, Sayat Nova kimi erməni şairlərinin, aşıqlarının yaradıcılığı geniş tədqiq olundu. H.Araslı, M.Seyidov, Ə.Yerevanlı, İ.Abbasov, Y.Ramazanov və başqa ədəbiyyatşünaslar "Azərbaycan", "Literaturnıy Azerbaydjan", "Sovet Ermənistanı" kimi jurnalların səhifələrində bu mövzunu hərtərəfli işıqlandırdılar.

***

XIX əsrin sonu – XX əsrin əvvəllərində gürcü-Azərbaycan ədəbi əlaqələri də multikulturalizm baxımından maraq doğurur. Həmin dövrdə gürcü dilində nəşr olunan "Saxalxo" qəzetində və "Teatri da sxovreba" ("Teatr və həyat") jurnalında dahi Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin tamaşaya qoyulmuş operettaları haqqında məlumat verilir, bu tamaşaların nə qədər rəğbətlə qarşılandığı ifadə olunurdu. "İsari" qəzetində isə Azərbaycan mədəniyyətinin parlaq nailiyyətləri yüksək qiymətləndirilirdi. Gürcü və Azərbaycan ədəbi nümunələrinin qarşılıqlı tərcüməsinin vacibliyini qeyd edən ədəbiyyatşünas Abdulla Tofiq Surun "Həyat" qəzetində nəşr olunmuş "Qafqaziyada qonşularımızdan gürcülərin maarif və ədəbiyyatına bir nəzər" adlı məqaləsində şair Şota Rustaveli və yazıçı İlya Çavçavadze haqqında Azərbaycan oxucularına geniş məlumat verilirdi. Qeyd edək ki, İlya Çavçavadze də öz növbəsində "İveriya" qəzetinin səhifələrində "Azərbaycanlılar... ürəyiaçıq, sakit, təmkinli və vüqarlıdırlar" yazmaqla xalqımızı müsbət səciyyələndirmişdi. Çavçavadze Azərbaycan xalqına, onun adət-ənənəsinə, şərəfli keçmişinə böyük ehtiram göstərir, gürcülər arasında savadlanmanı təbliğ eləyən cəmiyyətin sədri kimi Borçalı qəzasında savadsızlığın ləğvi üçün müfti M.H.Qayıbova və Şeyxülislam Ə.Axundzadəyə müraciət edərək onları xalqın qayğısına qalmağa, yerlərdə məktəblər açmağa çağırır, M.Şahtaxtlı, C.Məmmədquluzadə, E.Sultanov, E.Acalov, M.Vəkilov, Terequlov qardaşları, F.Köçərli, S.M.Qənizadə, Ö.F.Nemanzadə kimi Tiflisdə yaşayan azərbaycanlı ziyalılarla tez-tez görüşür, onlara dəyərli məsləhətlər verirdi. Bundan başqa, Çavçavadze Azərbaycan türkcəsini də öyrənib xalq mahnılarımızın motivlərində bir sıra şeirlər yazmış, habelə Azərbaycan yazıçılarının əsərlərindən ayrı-ayrı nümunələri gürcü dilinə tərcümə edərək o dövrdə nəşr olunan "İveriya" qəzetində çap etdirmişdi.

Görkəmli gürcü şairi və diplomatı Akaki Sereteli də Qafqaz xalqları arasında dostluğun, qardaşlığın fəal təbliğatçısı idi. O, milli münasibətlər haqqında belə yazırdı: "Xalqın inkişafı milli zəminə əsaslanır. Milləti sevmək lazımdır, lakin əlbəttə, millətçi olmaq lazım deyil. Bizim vətənə bəslədiyimiz məhəbbət başqa xalqlara rəğbətimizi, onlara münasibətdə dostluq və qardaşlıq duyğularımızı heç vaxt zəiflətməyib". Azərbaycan ədəbiyyatına, incəsənətinə və mədəniyyətinə böyük maraq göstərən Sereteli Bakıda bir neçə dəfə olmuşdu. Yeri gəlmişkən deyək ki, gürcü şairi M.F.Axundzadənin komediyalarını gürcü dilinə tərcümə etmişdi.

Mütərəqqi gürcü yazıçısı, publisisti Georgi Sereteli də Azərbaycana xüsusi maraq göstərirdi. Onun nəşr etdiyi "Droeba" qəzetinin 1909-cu il tarixli 63-cü nömrəsində "Azərbaycan mədəniyyəti haqqında" adlı bir məqalə işıq üzü görmüşdü. Məqalədə Azərbaycan xalqının qədim tarixinə, incəsənətinə nəzər salınır, azərbaycanlıların mədəniyyət sahəsində qazandığı uğurlardan bəhs olunurdu: "Qonşumuz azərbaycanlıların mədəniyyət yolunda irəliləməsi hamımızı sevindirir. Onların mədəniyyət sahəsində qazandığı hər qələbə ittifaqımızın möhkəmlənməsi üçün yeni zəmin yaradır".

Firidun bəy Köçərlinin "İrşad" qəzetində dərc olunan "Qarabağda Cavanşir aləminin əhval və övzasına dair" adlı məqaləsində isə ədibin gürcü xalqı haqqında xoş təəssüratları yer almışdı. "Nə qədər ki Gürcüstanın ab-havası xoşdur, bir o qədər də gürcülərin özü gözəl tayfadır. Qəribnəvaz, sadədil, eyş-işrət sevən, açıq üzlü, şirin sözlü, halal, kin və küdurətsiz, nəcib bir millətdir" yazan müəllif Azərbaycan-gürcü əlaqələrinə öz töhfəsini vermişdi. Bu münasibət sovet hakimiyyəti dövründə S.Vurğun, S.Rüstəm və başqaları tərəfindən daha da inkişaf etdirildi. Sonrakı illərdə isə D.Əliyeva, S.Süleymanov, N.Qasımov, V.Ömərov kimi ziyalıların əsərlərində Azərbaycan-gürcü mədəni əlaqələri dərindən tədqiq olundu.

XX əsrin əvvəllərində Azərbaycan mətbuat orqanlarında erməni və gürcü yazıçıları ilə yanaşı qonşu Rusiyanın görkəmli qələm adamları da təbliğ edilir, əsərlərindən nümunələr verilirdi. Məsələn, H.Vəzirovun nəşr etdirdiyi "İttifaq" qəzetində Tolstoy, Qoqol, Qriboyedov, Nekrasov barədə ardıcıl yazılar nəşr olunur, "Füyuzat", "Şərqi-Rus" qəzetlərində Tolstoy haqqında məlumatlar verilir, əsərlərinin tərcüməsi çap edilirdi. "Kəşkül" mətbəəsində isə Lermontovun "Hava gəmisi", A.Çernyayevski və S.Vəlibəyovun "Vətən dili", "Kəlilə və Dimnə" kitabları nəşr olunmuşdu.

Bir sözlə, nəzər saldığımız dövrün ziyalılarının ədəbi-publisistik yaradıcılığı beynəlmiləlçilik, dünya mədəniyyətinə inteqrasiya və Qafqazda multikultural ənənələr baxımından çox zəngindir, gənc nəsillər üçünsə həm qiymətli bir qaynaq, həm də bir nümunədir.

Ədəbiyyat

1. Antonyan Q. "Erməni və Azərbaycan xalqlarının ədəbi əlaqəsi". Bakı, Azərnəşr, 1955.
2. Şükürov S. "M.F.Axundov erməni ədəbiyyatında" // "Azərbaycan" jur., № 10, 1962.
3. Tarverdiyeva K. "Azərbaycan mədəniyyəti erməni dövri mətbuatında" (1850-1920).
4. N.Qasımov. "Borçalı türkləri ilə gürcü xalqının ədəbi-mədəni əlaqələri".
5. http://sesqazeti.az/news/kivdf/390201.html // V.Ömərov. XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan–Gürcüstan pedaqoji, mətbuat və ədəbi əlaqələri.
6. http://sdu.edu.az/az/truths // Azərbaycan həqiqətləri erməni mənbələrində.
7. http://kulis.lent.az/news/3320 // Azərbaycanın ilk xalq yazıçısı erməni imiş.



Məlahət BABAYEVA
filologiya üzrə fəlsəfə doktoru

"Uçurum dərələrə" eşqdən körpü salan ədəbiyyatımız

Mən özümü sizin bir hissəniz bilirəm. Əcəba! Necə ola bilər ki, bizi "uçurum dərələr" ayıra? Əcəba! Bu "uçurum dərələri" biz insanlar düzəldibsə, onları məhv etmək bizim ixtiyarımızda deyilmi?.. Nə üçün mən müsəlman, siz xristian, qeyrisi yəhudi və ya bütpərəst adlansınlar? Nə üçün bu insanlar sonradan düzəlmiş dürlü-dürlü qanunlara sitayiş etsinlər? Təbiimi? Yox! Təbii, qanun hamı insanlar üçün bir gərəkdir ola. Hamı insanlar bir nöqtəyə gərəkdir yeriş etsinlər. Bu nöqtə isə hürriyyət, məhəbbət aləmidir.

Nəriman Nərimanov – "Bahadır və Sona"

Azərbaycan ədəbiyyatında öz müasirliyini və aktuallığını qoruyub saxlayan başlıca mövzulardan biri də milli və dini ayrı-seçkiliyin tənqididir. Bu mövzu müxtəlif dövrlərin, ictimai-siyasi şəraitin tələbinə uyğun olaraq zaman-zaman gündəmə gətirilib, lakin istər şifahi, istərsə də yazılı ədəbiyyatda nikbin sonluğa vara bilməyib. Maraqlısı budur ki, bu tipli əsərlərdə baş qəhrəmanlar çox zaman digər xalqların da dini-milli dəyərlərinə, adət-ənənələrinə hörmətlə yanaşan Azərbaycan övladlarından seçilib və onların məşəqqətli mübarizəsi sonda qəhrəmanların faciəli ölümü ilə nəticələnib.

Məlumdur ki, ötən əsrin əvvəlləri dünyanı bürüyən inqilabi proseslərlə, dünyanın yenidən bölüşdürülməsi uğrunda aparılan müharibələr və qanlı olaylarla zəngindir. 1905-ci il inqilabından sonra çöküşünün labüdlüyünü anlayan Rusiya imperiyası da müstəmləkələrdə baş qaldıran azadlıq mübarizələrini milli və dini-etnik qarşıdurmalarla ört-basdır etmək istəyir, bunun üçün əsrlərdən bəri yanaşı yaşayan xalqlar arasında ilk növbədə dini zəmində münaqişələr törədirdi. Təəssüf ki, belə münaqişələr Cənubi Qafqazdan da yan keçmir, çarizmin fitnələrinə uyan bəzi siyasətçilər düşmənçiliyin daha da

alovlanmasına rəvac verirdilər. Məhz belə bir zamanda Azərbaycan ziyalıları qardaşlığı, humanizmi, sülhü təbliğ edən əsərlər yazmağa başladılar.

Həmin dövrdə Azərbaycan ədəbiyyatında milli-azadlıq meyillərinin güclənməsi dönməz bir proses kimi özünü göstərir, milli problemlərin həllinə diqqət artır, Cəlil Məmmədquluzadə, Əbdürrəhimbəy Haqverdiyev, Nəriman Nərimanov, Cəfər Cabbarlı, Hüseyn Cavid, Yusif Vəzir Çəmənzəminli kimi böyük ədiblər etnik münaqişə mövzusunda əsərlər yazırdılar.

C.Məmmədquluzadə 1920-ci ildə yazdığı «Kamança» pyesində musiqinin ecazkar təsir gücündən istifadə etməklə insanları sülhə, barışığa çağırırdı. Əsərdə kamançaçalanın ifa etdiyi həzin musiqi bir-birinə düşmən kəsilmiş iki millətin nümayəndələrinə ani də olsa dostluq və qardaşlıq içərisində yaşadıqları günləri xatırladır, Mirzə Cəlil bədii vasitələrlə xalqları müstəmləkəçilərin fitnələrinə uymamağa səsləyir.

C.Cabbarlı da 1931-ci ildə qələmə aldığı «1905-ci ildə» adlı pyesində xalqlar dostluğunu, beynəlmiləlçilik ideyalarını təbliğ edir, əsarətdə olan xalqların azadlıq uğrunda mübarizəsini milli münaqişələrə yönəltməklə boğmağa çalışan çar Rusiyasının müstəmləkəçilik siyasətini ifşa edirdi.

Etnik münaqişələrin qaynar dövründə – 1896-1908-ci illər arasında yazdığı «Bahadır və Sona» romanında N.Nərimanov bir-birini sevən, mənsub olduqları xalqlar arasındakı düşmənçilik sədlərini aşmağa çalışan gənclərin faciəsini qələmə almışdı. Bu gənclərin bir-birini saf məhəbbətlə sevməsiylə yanaşı, həm də amal, əqidəcə bir-birinə yaxın olduğunu göstərən ədib onların ayrılığına yalnız "uçurum dərələr"in səbəb olduğunu göstərmişdi.

Yaradıcılığının son dövründə Ə.Haqverdiyev də bu mövzuya toxunmuş, «Çox gözəl» (1932) adlı pyesində Simon və Əmiraslan adlı iki məktəbli uşağın dostluğunu təbliğ etmişdi.

Mövzuya müxtəlif aspektdən yanaşan klassiklərimiz problemin çözümünə də fərqli rakurslardan işıq salırdılar. N.Nərimanov milli və dini qütbləşmənin səbəbini münaqişəyə cəlb olunan xalqların savadsızlığında, maarifsizliyində görürdü. Y.V.Çəmənzəminli, C.Məmmədquluzadə, C.Cabbarlı kimi sənətkarlar tarixə müraciət etməklə bu xalqlara asudə, mehriban şəraitdə yaşadıqları dövrləri xatıladır, yaranan münaqişələrin müstəmləkəçilərin oyunu olduğunu onlara çatdırmaq istəyirdilər. Ə.Haqverdiyev kimi ədiblər mədəniyyətlər arasındakı fərqliliklərə xoşməramlı yanaşmağı, beynəlmiləlçiliyi, xalqlar dostluğunu təbliğ edirdilər.

Müstəmləkəçiliyin iç üzünü, gerçək mahiyyətini yaxşı görən H.Cavid də əsərlərində ictimai ədalətsizliyi, nadanlığı tənqid edir, öz müasirlərini siyasi fitnələrin mahiyyətini düzgün qiymətləndirməyə çağırırdı. «Şeyx Sənan», «Səyavuş», «Peyğəmbər», «Topal Teymur», «Xəyyam» kimi əsərlərində böyük dramaturq tarixi hadisələrin və şəxsiyyətlərin dili ilə öz dövrünün ictimai-siyasi, mənəvi-əxlaqi problemlərini qabardır, hər zaman aktuallığını qoruyan mövzulara diqqət çəkirdi.

H.Cavidin məhəbbət mövzusunda qələmə aldığı «Şeyx Sənan» (1914) faciəsi müsəlman şeyxi ilə xristian qızının ilahi məhəbbətindən bəhs edən və

dövrümüzə əfsanə dilində çatmış tarixi reallıqlara əsaslanan bir əsərdir. Ömrünü din elmində kamilləşməyə həsr etmiş Sənan gürcü qızı Xumara aşiq olmaqla eşqin ən yüksək mərtəbəsinə çatır. Şair bu əsərində dinindən, dilindən, irqindən, milliyyətindən, rəngindən asılı olmayaraq bütün insanları vahid Yaradanın əsəri sayır, hər kəsin sevib-sevilmək haqqı olduğunu vurğulayır. Müsəlman şeyxi Sənan göylərdən nazil olan ilahi sevginin cazibəsi içində insanları bir-birindən ayıran bütün zahiri atributlardan imtina edir, eşqin zirvəsinə gedən yolda qarşısına çıxan maneələri aşır və xaçpərəst qızı Xumarla birlikdə cənnətdə əbədi rahatlığa qovuşur.

Cavid üçün xristian-müsəlman qütbləşməsi deyilən bir qarşıdurma yoxdur. Böyük şair bu fəlsəfi mövqeyini "Birsə Həqq, cümlə din də bir" deyə ifadə edir. Belə yanaşma adını çəkdiyimiz-çəkmədiyimiz başqa klassiklərimiz üçün də xarakterikdir.

AZƏRBAYCAN ƏCNƏBİLƏRİN GÖZÜ İLƏ

Redaksiyadan:

Məlum olduğu kimi, 2017-ci ildə Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyi tamam olub. Azərbaycan xalqının tarixində və mədəniyyətində dərin iz qoymuş bu hadisə UNESCO-nun "2016–2017-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri proqramı"na daxil edilib. Bununla bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 30 avqust 2016-cı ildə imzaladığı sərəncamda deyilir: "Azərbaycanda yüzillər boyu bərqərar olmuş tolerantlıq mühiti XIX əsrin əvvəllərində buraya köçürüldükləri ilk vaxtlardan alman mühacirlərinin yerli əhali ilə qısa müddətdə dərin ünsiyyət qurması üçün əlverişli zəmin yaratmışdır. Məskunlaşdıqları və qaynayıb-qarışdıqları bu yerləri İkinci Dünya müharibəsi dövründə tərk etmək məcburiyyətində qalsalar da, onların özlərindən sonra qoyub getdikləri tarixi-mədəni irsi Azərbaycan xalqı multikultural təbiətinə sadiqlik nümayiş etdirərək lazımınca qoruyub saxlamışdır. Bir-birinin milli dəyərlərinə qarşılıqlı hörmət və ehtiram Azərbaycan və alman xalqlarının mədəni əlaqələrini səciyyələndirən başlıca cəhətdir. Alman şərqşünasları Azərbaycan xalqının möhtəşəm söz sənəti yadigarlarının dünya elm aləminə tanıdılmasında mühüm xidmətlər göstərmiş, alman memarları isə Azərbaycanda şəhərsalma mədəniyyətinə dəyərli töhfələr vermişlər".

Bu əlamətdar tarixi hadisənin ildönümünə öz töhfəsini vermək məqsədilə "Multikulturalizm" jurnalı 5 il sovet hərbi əsirliyində olmuş alman zabiti Villi Deşin xatirələrindən parçaları dərc edir.

7 aprel 1925-ci ildə Reyn sahilindəki Vorms şəhərində doğulmuş Villi Deş 1945-ci ildə əsir düşəndən ta vətəninə yola salınana qədər gündəlik yazıb. Azərbaycan ərazisindəki əsir düşərgəsində saxlanmış, Mingəçevir şəhərinin və buradakı su bəndinin tikintisində iştirak etmiş alman zabitinin maraqlı müşahidələri həmin gündəliklərdə əksini tapıb. Villi Deş qeyd dəftərçələrində müxtəlif peyzajlar da çəkib, adı bizə məlum olmayan azərbaycanlıların portretlərini kağız üzərinə köçürüb. Villi Deşin gündəliyində Mingəçevirin hələ tikilməmişdən əvvəlki fotosu, Kür çayı üstündən salınan körpünün və digər obyektlərin çertyojları da təsvir olunub. Qeydlərində yerli əhali haqqında müsbət fikirlər yazan Villi Deş müstəqillik dönəmində Azərbaycana gəlib, Mingəçevirdə olub. Keçmiş hərbi əsir ölkəmizdə olarkən almanların dəfn edildiyi qəbiristanlığın necə abad və səliqəli saxlandığından çox təsirlənib.

Villi DEŞ

Alman əsirin gündəliyi[1]

(ixtisarla)

Müəllifdən

Mənim 1945-50-ci illər arası sovet hərbi əsirliyində olduğum dövrdən bəhs edən qeydlərim düşərgədə yazdığım və vətənimə böyük risk altında, gizli şəkildə keçirdiyim gündəliyin xeyli hissəsini əhatə edir.

Əsirlikdə müntəzəm aparılan yoxlamalar zamanı sovet hərbçiləri bütün yazılı qeydləri zorla əlimizdən alırdılar. Sonuncu belə axtarış mən evə qayıdarkən Brest-Litovskda aparıldı. Yoxlamadan çılpaq şəkildə keçdiyimizə, olan-qalan əşyalarımızı qolumuzun üstündə daşıdığımıza baxmayaraq, üzərimizdə yenidən hərtərəfli axtarış aparıldı. Burada hərbi əsirlərin hamısına qarşı eyni münasibət vardı. Bütün çətinliklərə baxmayaraq, mən öz gündəliyimi gözdən yayındırmağı bacardım.

Burada yazılanlar sovet hərbi əsirliyində olduğum zaman sağ qalmaq üçün apardığım çətin mübarizədə yaşadıqlarımın əksidir. Başıma gələnləri bacardığım qədər obyektiv təsvir və şərh etməyə çalışmışam.

Düşünürəm ki, mənim yaşadıqlarımın tarixi əhəmiyyəti var, bunları qorumağa dəyər. Mən öz qeydlərimin surətini Almaniyanın İlava, Thorn, Breslau-Hundsfeld düşərgələrində, eləcə də Azərbaycanda, Mingəçevirdə mənimlə birlikdə əsirlikdə olmuş dostlarıma da göndərmək fikrindəyəm. Onlardan bu qeydləri nəzərdən keçirməyi və öz əlavələrini mənə göndərməyi xahiş edirəm. Hər birinin xatirələrini öz adı, imzası altında yazılarıma əlavə etmək niyyətindəyəm.

Aprel, 1992-ci il

Düşərgə 30 il qabaq Rusiyada baş vermiş Oktyabr inqilabının ildönümünə hazırlaşırdı. Biz vətənimizin Sovet İttifaqı tərəfindən işğal olunmuş parçasında çıxan qəzetləri mütəmadi qaydada əldə edirdik. Bu nəşrləri yaxşı tanıyırdıq, onların vasitəsilə hər gün təzə xəbərlər alır, yeni bir şey öyrənirdik.

İnqilabın 30-cu ildönümünə (7 noyabr 1947-ci il) düşərgədə ciddi, təmtəraqlı hazırlıq görülmüşdü. Amma ərzaq payı sonra veriləcəkdi, biz hələ gözləməli idik.

Noyabrın 6-7-si yaddaşıma daha dərindən həkk olunub. O günlər klubda çalışan rəssamların siyahısında adımın olması məni ruhlandırmışdı. Tədbirlər həqiqətən gözəl keçdi, tamaşaçılar son dərəcə razı qaldılar.

1947-ci ilin dekabr ayının 2-də mən 2-ci qrupa təyinat aldım. İndi mən mühəndis təyin edilmiş Erich-in köməkçisi işləyəcəkdim (Dr. Erich Schwan və bu iş üzrə səlahiyyətli şəxs Lang Münhen şəhərində bir müddət mənim təlimatçım olmuşdular).

Əvvəli ötən sayımızda

Məndən 13 yaş böyük olan Erich öz barakında Milad bayramı keçirmək istəyirdi. Bir müddət idi buna səylə hazırlaşırdı. Erich məni də bu işə cəlb etdi, danışığa görə, mən onun köməkçisi olmalı idim. Təklifi həvəslə qəbul elədim, üç il idi Milad bayramının nə olduğunu bilmirdim.

Erich-in barakı şam işığında parıldayırdı. Hər kəs öz yerini Milad bayramına uyğun bəzəmişdi. Barakın ortasında qurulmuş bayram yolkasının üstündə 16 şam yanırdı. Ağacı Erich özü gətirib bəzəmişdi.

Bizi sevdiklərimizə və vətənimizə bağlayan ənənəvi bayramlaşma mərasimi başlandı. Şeirlər, bayram mahnıları, Milad bayramına aid söhbətlər bir-birinə qarışdı. Bütün bunları Erich Schwan böyük ustalıqla təşkil etmişdi. "Səssiz gecə" mahnısından sonra Şaxta baba (Erich) gəlib barakdakılara hədiyyə payladı. Hədiyyə hamıya çatacaq qədər deyildi. Bununla belə, şən ab-hava, birlik, mehribanlıq bizim Miladımızı parlaq bayram kimi yaddaşımıza həkk edirdi. Hamı xəyalən özünü ailəsinin, doğmalarının əhatəsində sanırdı. Hər kəs bir-birinə gələn Milad bayramını yaxınlarının arasında keçirməyi arzulayırdı.

Knecht Ruprecht mənə pay gətirmişdi: kiçik küknar ağacı, 10 ədəd "Aktive" (zabitlərin çəkdiyi siqaretə əsgərlərin verdiyi ad) və Theodor Strom-un kitabçası. Erich Milad üçün şirniyyat da hazırlamışdı. Mənim sobada bişirilmiş, üzərində xaşxaş toxumları olan çoxlu dəyirmi peçenyem vardı. Mayalı xəmirdən hazırlanmış şirniyyat əhvalımıza ayrıca bir şirinlik qatırdı.

Bayramın ilk günü iş yox idi. Dostlarıma baş çəkdim, sonra da onlar mənim barakıma gəldilər. Mənim yerim rahat idi. Biz buradakı sakitlikdə bir neçə dəqiqəni öz yaxınlarımıza həsr edə bilərdik.

Mətbəxə yeni ərzaq gətirilmişdi (əvvəllər olduğu kimi, hər şeyin üstü bağlıydı). Sonra bu ərzaq əsirlərə verildi: 600 qram çörək, səhər yeməyinin 1/3-i miqdarında darı sıyığı, günorta verilən şorbanın 1/2 miqdarı, qiymə və meyvə qarışığı ilə kartof püresinin 1/3-i, axşamlar undan hazırlanmış horra və nar çayının 1/2 miqdarı. Əsirlikdə olandan bəri ilk dəfəydi belə şey görürdüm.

Növbəti günün səhəri mən və Villy Behrens bişirdiyimiz qatışıq un sıyığından yedik. Aclığı yaxşı yatırırdı. Tütünümüz də vardı, dostum Christkind gətirmişdi. Papiros kefimizi kökəltdi. Vidalaşma zamanı Erich çox dadlı şirniyyat hazırladı. İndi, Milad bayramı artıq geridə qaldığı vaxt mən ürəklə deyə bilərdim ki, bu il mənə bayram keçirməyə "icazə verilib". Bu şəraitdə bundan yaxşı bayram ola bilməzdi. Özümü çox rahat, çox azad hiss eləyirdim.

***

Dekabrın 27-də bizi yeni tikinti sahəsinə gətirdilər: bura 3-cü düşərgənin yaxınlığında, Kür çayı üzərində yerləşən Pitomnik-Raboçi idi. Həmin axşam yenilik baş verdi: iclas keçirildi və mən yenə "3-cülər"ə aid edildim.

İl başa çatır, bizim vətənə dönəcəyimiz yeni il qapını döyürdü. Xarici İşlər Nazirliyi konfransının 4 oktyabr 1946-cı il tarixli qərarına əsasən, müharibədə əsir düşənlər 1948-ci ilin sonunadək öz vətənlərinə qayıtmalı idilər. Buna amerikalılar, ruslar, ingilislər və fransızlar birgə qərar vermişdilər.

Moskva qəzetlərindən biri "Əsir götürülənlərə aid məlumatlar" rubrikasında bu qərarı ətraflı şərh etmişdi.

30 dekabr 1947-ci il. Dadlı yeməklərdən yeyib doyandan sonra kefimiz durulmuşdu. Yeni il qabağı dost-tanışlarımın hamısına baş çəkdim. Söz-söhbətimiz, arzu-xəyalımız bir idi: haradanıqsa ora qayıtmaq, orada – vətənimizdə, sevdiklərimizin yanında yaşamaq istəyirdik.

3 yanvar 1948-ci il. Böyük qardaşımın xatirəsini bir neçə dəqiqəlik sükutla yad etdim. O, 1942-ci il yanvarın 3-də həlak olmuşdu. Onunla bağlı xatirələr, fikirlər məni heç vaxt tərk etməyəcək.

...Hava əla idi. Qismətimizə belə bir gün çıxardığına görə taleyimizə minnətdarlıq etdik. Yeməklər də indi yetərincə dadlı idi. Yanvarın 10-dan briqadasının planı tam yerinə yetirib-yetirməməsindən asılı olmayaraq hər əsirə 600 qram çörək verilirdi. Düşərgənin rus rəhbəri buranı daha yaxşı vəziyyətə gətirmək üçün böyük səy göstərirdi. Müharibə başa çatandan, demək olar, 3 il sonra, nəhayət, müalicə və qulluq yaxşılaşırdı, özü də gündən-günə yaxşılaşırdı.

Zülmət mağaradan fərqli olaraq, yeni baraklarda həyat üzümüzə gülürdü. Boş meydançalar, düşərgənin küçələri qara tut ağacları və hasarlarla əhatə olunmuşdu. Son zaman görülən gigiyenik tədbirlər çox xoşagələn idi. Daha ərzaq təminatında kəskin çatışmazlıq olmurdu. Hər şey yaxşıya doğru gedirdi.

...Dünən, yanvarın 20-də bizim bu səhraya gətirilməyimizin 2 ili tamam oldu. İndi-indi dərk edirdik ki, arzularımızın çin çıxması üçün 1948-ci il də ötüb keçməlidir.

...Dünən İngiltərənin avqustun sonunadək bütün əsirləri sərbəst buraxacağı barədə məlumat gəldi. Bəlkə başqa ölkələr də İngiltərə kimi edəcək, dünyadakı qarışıqlıq ucbatından bir-birindən ayrı düşmüş milyonlarla insanı sevindirəcəkdilər.

Fevralın 7-də və 24-də məktublar paylandı. Mən iki məktub aldım. Bu özü də işlərin yaxşılığa doğru getdiyindən xəbər verirdi. Ayın 10-u və 25-i keçirilən iclaslarda mənimlə bağlı heç bir qərar çıxarılmadı. Mən gözətçi kimi 98-ci barakda qaldım.

Son zamanlar yenə şahmat oynayır, vaxtımı maraqlı keçirirdim. Fevralın 13-dən bizə əlavə çörək verilirdi. Düşərgəmizin mədəni həyatı çox qaynar idi. Sehrli fleytada çalınan mahnıların sədaları altında keçirilmiş "Xoşbəxt və şən" adlı tədbir də bizi xeyli sevindirdi.

13 mart 1948-ci il. Axır ki, öz peşəm üzrə işləyə biləcəkdim. "Naçalnik"imdən razıydım, ümid eləyirdim ki, əsirliyin sonuna qədər burada qalacağam. Rəis azərbaycanlı olsa da, almanca yaxşı danışırdı. 55 yaşı olardı. İxtisasca mühəndis idi. İşimlə bağlı əmrləri ondan alırdım. Mən onun yanında tək işləyirdim. Rəislə münasibətimiz necə yarandı, özüm də bilmədim.

Aprelin 3-də növbəti dəfə Bakıdan qayıdan rəhbərim mənə 600 qram çörək, bir neçə ədəd də papiros verdi.

Aprelin 6-dan mən artıq 1 kiloqram çörək payı alırdım ki, bu da məni tam doyururdu.

...23 yaşım aprelin 4-də tamam olmuşdu. O yaş mənə həyatdan razı qalmağı öyrətdi. Həmin gün səhər saat 5-in yarısında artıq oyaq idim. Ad günümü hamıdan qabaq dostum Villi təbrik etdi, o mənə çiçək və çörək gətirmişdi. Sonra gənc Güntherlin gəlib həmyerlisini təbrik elədi, üstəlik mənə tütün və 300 qram çörək verdi.

Erich də dolu sini ilə yanıma gəldi: sinidə 300 qram çörək, 1 yumurta, soğan, pendir, yağ, şəkər, içində 15 ədəd siqaret olan qutu, çiçək və məktub vardı. Yüngülvarı qəlyanaltıdan sonra mən məmnun bir şəkildə işləməyə getdim. Bu ovqatla çalışmaq mənə daha çox zövq verirdi.

Aprelin 14-dən çiy kərpicdən tikilmiş barakda qalırdım. Burada çox rahat yaşamaq olardı. Səliqə-sahman, parıltılı təmizlik ağlımızı başımızdan almışdı. Mən bu şəraitdən çox razı idim. Öz peşəm üzrə işləyirdim.

1948-ci ilin mart ayı üçün mənə 280 rubl, aprel ayı üçün 480 rubl "naryad" yazıldı. Artıq mən əməyimin qarşılığında pul da alacaqdım və beləliklə, daha yaxşı yaşayacaqdım. Pul veriləndə birinci çörək aldım, beləcə, qismən də olsa səhhətimin qayğısına qalmağa çalışdım. Burada pulla yalnız ərzaq almaq olardı, geyim və başqa şeylər pulsuz verilirdi, ona görə də pulum çox idi. Təsəvvür yaratmaq üçün deyim ki, 1 kilo çörək 3 rubla, 1 kilo ağ pendir 6 rubla, 100 qram tənbəki 2 rubla satılırdı.

Təxminən 8 gün sonra 1500 nəfərin vətənə göndəriləcəyi deyilirdi, hamı o günü intizarla gözləyirdi. Azad olunanlar vur-tut beş həftə sonra öz yaxınlarını qucaqlaya biləcəkdilər...

Burada gündəliyimin yaşadıqlarımı isti-isti qeydə aldığım hissəsi başa çatır. Mingəçevirdə bunlardan başqa qeyd aparmamağımın səbəbi hələ də mənə aydın deyil. Güman ki, bu, 1948-ci ilin sonunadək evə qayıdacağımı gözləməyimlə bağlı olub (müttəfiqlər belə anlaşmışdılar). Üstəlik, daha ağır şəraitdən xilas olmuşdum. Həm fiziki baxımdan dinclik tapmışdım, həm də peşəmdə uğur qazanmışdım, bu səbəbdən mühəndis briqadasında yaxşı vəzifə almışdım. Qeydləri dayandırmağımın ən əsas səbəbi isə, yəqin ki, qələmə aldığım bu xatirələri evə aparıb çıxara biləcəyimə inamsızlığım idi. Bu, çox riskli bir iş olardı.

Gündəliyimdəki qeydlər 1945-ci ilin dekabr ayının 31-dən 1948-ci ilin iyul ayının 2-dək olan dövrü əhatə edir.

Həyatın ən ağır sınaqları elə yerindəcə qeydə alınmış, yazılmışdı. Ümumilikdə mən 1945-ci ilin 8 mayından vətənə qayıdışıma –1950-ci ilin 5 yanvarınadək rus-sovet hərbi əsirliyində olmuşam.

2 iyul 1948-ci ildən 14 dekabr 1949-cu ilədək Mingəçevirdəki əsirliyim haqqında

Əlavə

Əsirliyin sonuna qədər mühəndis briqadasında çalışdım. Səhhətim düzəlmiş, məni qane edən iş yeri tapmışdım. Beton zavodunun rus direktorunun köməkçisi işləyirdim. İlk direktorun soyadı Korsini, təxminən 1949-cu ildə onun yerinə gələnin soyadı isə Şevçenko idi. Zavodun əsas mütəxəssisi Sivakovu qısaca "gümüşdiş" çağırırdılar. Yalnız indi rus dili ilə yaxşı məşğul olmağa imkanım yaranmışdı, həm də bu, məndən tələb olunurdu. Beton zavodu Kür çayının qarşısına vurulacaq bənd üçün beton tədarükü görməli idi, özü də çaydan 40-60 metr yüksəklikdə yerləşirdi. Zavodda 1200 litrlik 12 stasionar (hərəkətsiz) betonqarışdıran avadanlıq var idi.

Həddən artıq ağır olan iş öhdəliklərimiz 1948-ci ilin oktyabr-noyabr aylarında qəfildən başa çatdı. Bakıdan anlaşılmaz izahatlar verən, cəfəng şərhləri ilə bizi sakitləşdirməyə, bundan sonra da Azərbaycanda qalmağımızın vacibliyinə bizi inandırmağa çalışan siyasi işlər üzrə zabit gəldi. Əsirliyimiz dövründə ilk dəfə hiddət və qəzəbimizi açıq ifadə etməyə başladıq. Evə getmək istəyirdik, amma icazə vermirdilər. Özümüzü dəhşətli bir hiylənin qurbanı kimi hiss edirdik. 1948-ci ilin Milad bayramını belə bir mənəvi-psixoloji gərginlikdə keçirdik, yeni ilə fikirli və sarsılmış halda qədəm qoyduq.

1949-cu ildən şüarımız belə oldu: evə sağ-salamat qayıtmaq üçün mümkün qədər az güclə işləmək. Hamımız bu əhvali-ruhiyyədə idik. Əsirlik həyatının sona çatdığı artıq göz qabağındaydı.

1949-cu ilin iyulunda uzun aylardan sonra əsirlərin böyük bir qismi vətənə yola salındı. Demək olar, bütün dostlarım getdilər, qaldım mən. Üzülmüşdüm. Günter Han və mən ən axıra qalanlardan olduq. Ümumilikdə burada hələ 1000 nəfər əsir qalırdı. Tikinti sahələrində daha çox ruslar və azərbaycanlılar işlədilirdi.

1949-un sonu, 50-ci illərin gəlişi, rus hərbi əsirliyindən qayıdış

...1949-cu ilin 14 dekabrında Azərbaycanda, Mingəçevirdəki 7444 saylı düşərgədə öyrəndik ki, hərbi əsir düşərgəsinin ləğvi və bizim ölkəmizə buraxılmamız gözlənir. Düşərgədə olan 1000 nəfərdən 300 nəfərini ayırıb bir yerə topladılar. Onlar hələ gedə bilməzdilər, çünki onlara qarşı qaldırılmış cinayət işinin istintaqı davam edirdi. Qalan əsirləri aralarında 5 gün fərqlə iki dəfəyə – hər birində təxminən 350 nəfər olmaqla daşıyıb apardılar.

Mənim vətənə qayıdışım 17 dekabr 1949-cu ildə yük maşını ilə Bakı–Tbilisi dəmiryol xəttinin üstündə, bizdən 35 kilometr aralıda yerləşən Yevlaxa aparılmağımla başlandı. Yola düşməzdən qabaq üst-başımız hərtərəfli yoxlandığına görə mən gündəlik qeydlərimi tanıdığım sürücüyə verdim və o, Yevlax stansiyasında gündəliklərimi mənə qaytardı.

Bakı şəhərindən, iri neft mədənlərinin yanından ötdük, Xəzər dənizini gördük. Sonra biz Dərbənd şəhərinin küçələrindən keçdik. Xəzər dənizi ilə Qafqaz sıra dağlarının arasında yerləşən bu şəhər qədim zamanlardan çox gözəl

diyar, həm də strateji cəhətdən mühüm aşırım və keçid məntəqəsi kimi məşhurdur. Dəmiryol xətti birbaşa Xəzər dənizinin yanından keçirdi.

...1949-cu ilin Milad bayramı günü Ukrayna ərazisindən keçirdik; bizə küknar ağacının bir budağı da kifayət edirdi. Bunun özü belə bizim üçün 1945-ci ildəki Milad bayramından qat-qat artıq idi. Beləcə, 1945-ci ildə olduğu kimi, 1949-cu ilin də Milad gününü qatarda keçirdik.

Dekabrın 27-si axşamı alatoranlıqda Brest-Litovska çatdıq. Beynimdə yalnız bir fikir vardı: mənim gündəliyim! Qarovulun nəzarətinə baxmayaraq, alaqaranlıqda qatarın vaqonları arasında ayaqyolu bəhanəsi ilə dizimi qatlayıb aşağı çökdüm, balaca çantamı gündəliyim və məktublarımın bir hissəsi qarışıq çınqıl daşların arasında gizlətdim, həmin yeri yadımda dəqiq saxladım: işıq dirəyi, sonra 5 metr sağa və s. O biri gün – dekabrın 28-də yoxlanışa getdik. Olan-qopan əşyalarımız qolumuzdan asılı çılpaq vəziyyətdə durduq. Üzərimizdə axtarış aparıldı və biz yenə nələrdənsə məhrum olunduq. Mən özümdən arxayın idim: axı dəyərli "xatirə dəftəri"m təhlükəsiz yerdəydi! Bu arada üç uğursuz cəhddən sonra yenidən qiymətli "xəzinə"mə qovuşdum.

Əsir daşıyan daha dörd nəqliyyat vasitəsinin bizə tərəf gəldiyini öyrəndik. Bununla 1949-50-ci illərin sonuncu "böyük köç"ü başa çatacaqdı. Cinayət işi üzrə məhkumluq cəzası çəkdiyi deyilən şəxslər isə yalnız 1953-cü və 1955-ci illərdə vətənə qayıtdılar.

"Zonalar" üzrə bölüşdürüldükdən və yemək yedikdən sonra bizə 50 Şərqi Almaniya markası məbləğində cib xərcliyi verildi. Sonra platformada dincəldik. Mən Tuttlinqen/Baden-Vürtemburq istiqamətində – fransız işğal zonasına gedən nəqliyyat vasitəsinə təhkim edildim.

Yeni iliniz mübarək, mən azadam!

Yeni ilin gəlişinə qədər oyaq qaldım, sonra uzanıb arxayınca yuxuya getdim.

1950-ci il yanvarın 1-də, saat 05:00-da bizi yuxudan oyatdılar. Saat 05:30-dan sürət qatarında vətənə doğru yolumuza davam etdik. Qatarın içi istiydi. Tək qalmaq, azadlığımın ilk saatlarından zövq almaq istəyirdim. Yanvarın 2-də Bebraya doğru istiqamətləndik. Sovet zonası arxada qaldıqdan sonra vaqondakı bələdçidən soruşdum: "İndi biz Qərbdəyikmi?" O dedi: "Bəli".

Yanvarın 4-də Tuttlinqendə buraxılış şəhadətnaməmi əldə etdim. Saat 19:40-da artıq Ştutqartda idim. 22:00-a qədər şəhərin əsas küçələri boyunca gəzişdim. İnsanlar söhbətləşmək üçün tez-tez mənə yaxınlaşırdılar, mən də başıma gələnləri onlara danışmalı olurdum. Qaynar şəhər həyatına, dolu vitrinlərə heyranlıqla baxırdım.

Saat 22:15-də mənim qatarım Manhaym istiqamətində – vətənimə doğru yola düşdü. Yanvarın 5-nə keçən gecə saat 02:30-da sürət qatarı 1-ci platformada, vaqonum isə vağzalın vestibülünün çıxışında, birbaşa doğmalarımın qarşısında dayandı: atamla bacım Erika məni gözləyirdilər. Bu görüşü sözlə ifadə etmək mümkün deyil...

Göz yaşlarımızı saxlaya bilmirdik. Birlikdə evə, Vindtorst küçəsinə gedirdik. Zimonlar ailəsinin evinin yaxınlığında əziz anam məni qarşıladı. Təxminən 6 il idi bir-birimizi görmürdük, sağ qalmaq üçün çox ağır şərtlərə qatlaşmalı olmuşduq. 18 yaşımdan onlardan uzaq düşmüşdüm, indi 25 yaşın içində olan yetkin şəxs kimi geri qayıtmışdım...

***

Mən yalnız yaxın tanışlarımın və dostlarımın əhatəsində, eləcə də hökumət orqanlarında görünürdüm. Diqqəti cəlb edən məqam o idi ki, rusların yerini amerikalılar tutmuşdu. Təbii ki, yeni şəraitə öyrəşmək lazım idi. Biz özümüz işğal altında olan ölkəyə çevrilmişdik; vətənimiz dağıntılar altında qalmışdı, yaşam şərtləri son dərəcə məhdudlaşmışdı, yeni adamlar söz sahibi olmuşdular, hər yerdə amerikansayağı rəqs edir, hoppanıb düşürdülər.

1950-ci ilin mart ayının 13-də Manhaymda yenidən mühəndislik ixtisası üzrə təhsil almağa başladım. Tələbələrin təqribən 70 faizi müharibə iştirakçısı, onların da haradasa 40 faizi rus əsirliyindən qayıdanlar idi. Ünsiyyət, təmas yaratmaqda heç bir çətinlik çəkmirdim. Təhsilim əla gedirdi. Mən həyat eşqi ilə dolmuşdum.

1950-ci ilin 20 oktyabrında anamın qəfil ölümü ilə yeni həyatımın ən böyük üzüntüsünü yaşadım. Bu, əsirlik həyatından sonra taleyimin mənə növbəti ağır zərbəsi idi.

60-cı illərin ortalarında mən Frankfurtdakı böyük bir kitab mağazasında yeni atlas gördüm. Mingəçevir orada Boden gölü boyda bir su anbarı ilə bərabər çəkilmişdi...

(ardı var)

Poeziya guşəsi



Rüstəm BEHRUDİ

Rüstəm Behrudi 1957-ci ilin 12 sentyabrında Ordubad rayonunun Behrud kəndində anadan olub. Ədəbiyyata 1980-ci illərdə gəlib. "Yaddaşlara yazın", "Şaman duaları", "Salam, dar ağacı", "Boz qurd", "İblis mələkdən gözəldir", "Din sevdim din üstünə" kimi bir sıra poetik toplular müəllifidir. Şeirləri polyak, fransız, latış, Ukrayna və başqa Avropa dillərinə tərcümə edilib.

Vətən

Qarşı yatan qara dağın – yaylağım,
Düzənlərin, ormanların – oylağım,
Əyilməyən çinarların – bayrağım –
Vətən!

Bax gör, sevgim təzədimi, tərdimi?
Hər doğulan oğuldumu, ərdimi?!
Daşlarına yazdım min il dərdimi –
Vətən!

Ağ alnıma Araz qara yazıdı,
Varaq, yol uzaqdı – qar ayazıdı,
Kərkükdü, Göyçədi, Qarayazıdı –
Vətən!

Hər ağrılar, hər acılar ötəndi,
Əl uzatsam, Ərzuruma yetəndi,
…Füzulinin məzarı da Vətəndi –
Vətən!

Mənə üz tut – yurda ocaq qurana,
"Turan" – deyib, Boz qurd kimi durana,
Sonun yoxdu, çevrilməsən Turana –
Vətən!

Mənim andım "Ya bütövlük, ya qan"dı,
Zalım dostlar, qəbul edin bu andı,
Qara başım bu yol üstə qurbandı –
Vətən!

Haqq sevən bəndəyə elə dindi türk

Göy Tanrı, Qara Xan, Oğuz, Gültəkin...
Hərəsi içdiyim bir anddan gəlir.
Mənim ruhumdakı bu üsyan, qiyam
Tanrıqut Metedən, Gürşaddan gəlir.

Yenə də qılınclar çıxıbdı qından,
Qisas almalıyam dar ağacından,
Başıma bu sevda Tanrı dağından –
– Qibləmiz Altaydan – ilk yurddan gəlir.

Tanrıdan savayı kimə yendi türk?!
Nə vaxtsa ruh kimi göydən endi türk.
Haqq sevən bəndəyə elə dindi türk.
İnam da, iman da bu anddan gəlir.

Bir əlində qılınc, birində Quran
Yadlara qızıl taxt ucaltdı Turan,
Ucaldıb özünə daş atdı Turan –
Bəlamız, kim deyir, tək yaddan gəlir?!

Səndən də, bil, daha dönübdür üzüm,
Min ildir içimi göynədən dözüm.
Mənim qərib-qərib ulayan sözüm
Atilla gözləyən Boz Qurddan gəlir.

Tək sənə inandım, kim olursan ol,
Anam ol, bacım ol, ancaq sən “sən” ol,
Təki sevdiyim qız, bilim, bircə yol,
Bu sevdan göydəki son qatdan gəlir.

Mən tənha, qurd yalqız, o Tanrı təkdi,
Yalqızlıq içimdə bir sevda əkdi.
Təkcə mən bilirəm Boz Qurd nə çəkdi,
Nə yaxşı yazdığım umuddan gəlir.

Yolçuluq

Mən sevda yolçusuyam,
dəlilik var başımda,
Ona görə sözlərim
kədərlidir, qəm dadır.
Gözləməkdən yoruldum,
son səbri var daşın da,
Duydum, daha dözmərəm,
dözüm məni aldadır.

Mən sevda yolçusuyam –
sənətim yolçuluqdur,
Kəsə bilməz yolumu
tale qarla, yağışla,
Dünya dolu adamdır –
yol durub, yolçu yoxdur,
Geciksəm də, gəlirəm,
ey yol, məni bağışla!

Daha qulam büsbütün
içimdəki sevdama,
Mən sevda yolçusuyam,
mənimki məndən keçib.
Mən sənin olmamışam,
Vətən, heç vaxt, sən demə,
Sənə dəyən zərbələr
adlayıb məndən keçib.

Zaman, məkan bir qırıq,
daha gəlməz eynimə,
Əfsanədir, nağıldır
bu yoldan özgə hər şey!

Sevdamı zireh kimi
geyinmişəm əynimə,
Ölümsüzəm bu qəmlə,
yolum üstə duran, hey...

Qoy işləsin bu yaram
gündən-günə lap dərin,
Mən bir sıra nəfəri –
Ölmək var! – Dönmək nədir?!
Bil, sonuncu dənizə
varıb gedən ərlərin
Qəbrində qərar tutmaz
ölməz ruhu məndədir.

Tanrı baxır, yol verməz
sevda əkim, qəm yeyim,
Mənim zamanım gəlir...
Bax – tarix səksəkədə!
Mən səni gedəcəyəm,
ey yol! – Mənim taleyim! –
Zalım dostlar arxamca
gəlsə də, gəlməsə də!

Ölüm, xoş gəldin

Qarşı dağdan əsib gələn
Yelim, xoş gəldin, xoş gəldin.
Gəlmisən, qoy qəm-sevinci
Bölüm, xoş gəldin, xoş gəldin!

Qəm biçənlər sevda əkir,
Kim nə çəkir, niyə çəkir?!
Nədən ruhum göyə çəkir –
Bilim, xoş gəldin, xoş gəldin!

Könül, daha özünə var,
Hara çönsən, ayrılıq var.
Yıxdı bizi ayrılıqlar,
Gülüm, xoş gəldin, xoş gəldin!

Ocaq daşı tərsə çönən,
Tərsə çönüb, sonra sönən,
Qayıdıb özünə dönən
Elim, xoş gəldin, xoş gəldin!

Vaxtında gəlmir gözlənən,
Dərdimdir belə sözlənən,
İçində qoru közlənən
Külüm, xoş gəldin, xoş gəldin!

Dərdimi dil-dil ötməyə,
Sözə bəndəlik etməyə,
Varıb Tanrıya yetməyə
Dilim, xoş gəldin, xoş gəldin!

Gözlərimə baxa-baxa
Məndən ömür qoparmağa,
Son mənzilə aparmağa
İlim, xoş gəldin, xoş gəldin!

Alçaq da sən, uca da sən,
Cavan da sən, qoca da sən.
Sən hər şeydən ucadasan,
Ölüm, xoş gəldin, xoş gəldin!

Mən sözəm, söz – göydən gəldim

Mən sözəm, söz – göydən gəldim,
Yaxşı mənəm, yaman mənəm,
Yer Tanrının, göy Tanrının,
Yerə, göyə aman mənəm.

Qələm, dərdi sözə köçür,
Sözə köçür, candan keçir,
Əbədiyyət andan keçir,
Zaman sığan o an mənəm.

İnsan adlı ada yenib, –
Göydən məntək buta yenib,
Ağac, yarpaq, ota yenib,
Qam qamlayan şaman mənəm.

Yen mənə bil, zaman-zaman
Necə sığır bədəndə can,
Ey Tanrıya yol arayan –
Mənə üz tut, güman mənəm.

Günah edib, tövbə dedim,
Ey günahım, tövbədi din,
Musa, İsa, Məhəmmədin
Tapındığı iman mənəm.

Qaçsın deyə bəşər şərdən
Dua qıllam sübh-səhərdən,
Tanrım, adsız bəndələrdən
Sənə tövbə uman mənəm.

Ey günahkar ruhum, oyan,
Oyan, sənə olsun əyan,
Bu məkana sığışmayan,
Dövr eyləyən zaman mənəm.

Bəndə həmən, Allah həmən,
Sözəm, – yendim Allaha mən –
İncil, Zəbur, Quran – həmən
O müqəddəs "həmən" mənəm!

Ölüm bilmir

Tanrı işığı üzümdə,
Üzüm bilir, əlim bilmir.
Mən Tanrıya yol gedirəm,
Günüm bilir, ilim bilmir.

Təmənnasız dərviş olan,
Bilir birdi ölən, qalan,
Nə doğru var, nə də yalan,
Aləm bilir, zalım bilmir.

Çiynimdəki qoşa mələk
Nə çəkirəm bilməyəcək,
Həşəm oldum ləçək-ləçək,
Aləm bilir, gülüm bilmir.

Haqq da mənəm, nahaq da mən,
Ruham – candan uzaqda mən,
Odam – sönən ocaqda mən,
Nə çəkirəm, külüm bilmir.

Haqq soruşsa kiməm, nəyəm,
Tanrı qulu divanəyəm,
Bir kitabam – göydən ayəm
Gəlib, kimsə dilin bilmir.

Söz qələmin baxtı deyil,
Demək tale taxtı deyil,
Vallah, ölmək vaxtı deyil,
Mən bilirəm, ölüm bilmir.

Parisdə

Paris – qürbətin adı,
Qəm köklənib qəm üstə.
Mən əbasız, xirqəsiz
Bir dərvişəm –
Parisdə.

Yenisey çölü yanır,
Alışıb gülü yanır.
Rembonun külü yanır –
Parisdə.

Yenilib "Zəfər tağı",
Baxır başı aşağı.
Lüksemburq bağı – ağı –
Parisdə.

Qınından sıyrılacaq
Xəncərdi – Eyfelə bax.
Yer göyə saplanacaq –
Parisdə.

Qıza bax, ay üzlüdü,
Janna Darkın özüdü.
Yer üzü göy üzüdü –
Parisdə.

Ömür şərabdı camda,
Ruhum küləkdi şamda.
Duaydım Notrdamda –
Parisdə.

Halıma baxıb gülər
Luvrda ilahələr.
Nazsızdı fahişələr –
Parisdə.

Sena hüznlə axır,
Axıb ruhumu yaxır.
Sözümdən Allah baxır –
Parisdə.

Nə qalır sonuncu Tanrı dərsinə?!

Sən göydən gəlmisən, göy adamısan,
Tanrının işindən bir xəbər denən.
Nə qalır sonuncu Tanrı dərsinə?
Qiyamət gününə nə qalır, de, nə?

Sən göydən gəlmisən, göy adamısan,
Bəlkə də gəlmisən sonumuz bitə.
Gözlərin boylanır göy üzü boyda,
Yaman oxşayırsan əbədiyyətə.

Sən göydən gəlmisən, göy adamısan,
Səniynən nə gəlib? Kitab? İman? Din?!
Köməksiz, kimsəsiz, qərib dərvişəm,
Hər şey adiləşib – vaxtında gəldin.

Hər şey adiliyə sığınıb elə,
Ot, yovşan – həməndi, ağac – ağacdı.
Gedirik, gəlirik, dünya dəyişmir,
Ölüm də növbəti dayanacaqdı.

Sən göydən gəlmisən, göy adamısan,
Göylərdən enmisən əbədi ruhtək.
Mən açа bilmirəm, nə sirsən, nəsən?
Özün aç, açmasan, bilinməyəcək.

Təkrardan keçmişəm min il, milyon il,
Əvvəlin bilinmir, bəs bu son nədir?!
Müqəddəs ruhdusa əvvəl də, son da,
Bədən adındakı bəs bu don nədir?

Müqəddəs ruhdusa əvvəl də, son da,
Ey Tanrı, qəribə işindən əl çək!
– İztirab yeridi bu Yer kürəsi,
Əzabdı yenidən doğulub ölmək.

“Bezdim yer üzündə” – o göylər niyə
Eşitmir, sökülüb üstümə axmır?!
Yüz ildi, min ildi üzüm göylərə,
Göy üzü bir dəfə üzümə baxmır.

Sən göydən gəlmisən, göy adamısan,
Səndən xəbərsizdir, eh, hamı bəlkə.
Çəkdiyim əzabın açdım sirrini,
Tanrıya yetirdin duamı bəlkə....

Mən kölgəmi adladım

Vaxt adlı qürbətdəyəm,
Zamanı içib gəldim.
Min üç yüz il ardından
Bu günə köçüb gəldim.

Bir qanadsız quş idim,
Tövbə, namaza uydum.
Öləcəyimi duydum,
Qanadsız uçub gəldim.

Sirri var dərin-dərin
Göydən gələn sözlərin.
Mən bu dəli sözlərin
Tilsimin açıb gəldim.

Bu dəli şair adı,
Təsəllim də olmadı.
Mən kölgəmi adladım,
Özümü keçib gəldim.

Bu elə dərd-qəmdi ki,
Bilinməz sonu, ilki,
Mən Tanrı deyiləm ki,
Getsəm də, qaçıb gəldim.

Hər sözüm sökülən dan,
Aç sirrini anbaan.
Keç açdığım qapıdan,
Mən özüm keçib gəldim.

İçimdə iman evi var

Ey mənə kafir söyləyən,
Çağır, qoy görsün hər kəsi;
İçimdə iman evi var,
Kədərdəndi minarəsi.

İnansa da hansı dinə,
Dönüb sevinə-sevinə,
Bir gün bu iman evinə
Bir kimsə varmı girməsin?!

Ey daş qoyub məscid quran,
Uzaq yoldur İncil, Quran.
Çiçək, yarpaq... yoldu hər yan,
Bəndəylə Tanrı arası.

Yüz dua qıl, əyil anda,
Duyacaqsan lap son anda,
Sən Tanrının dərgahında
Öz içindən gələn səsi.

Səndən mənə o səs baxdı;
Ağıllıdan dəli haqdı;
Olsa da, bir fərqi yoxdu,
Kimin, nəyin divanəsi.

Tanrım, uduza-uduza
Çevirdin məni yalqıza.
Apar bir soyuq ulduza,
Bir kəs dalımca gəlməsin.

Bu iman evində mənəm,
Dinsizəm, haqq dində mənəm.
Dinimə gir, sən ey sənəm,
Gir ki, dinimiz ölməsin.



Qoderdzi Çoxeli

Gənc yaşlarından məşhurlaşan gürcü yazıçısı, ssenaristi və rejissoru Qoderdzi Çoxeli 1954-cü ilin 2 oktyabrında Gürcüstan SSR-in Duşet rayonunun Çoxi kəndində dünyaya gəlib. 1979-cu ildə Tbilisi Teatr İnstitutunun Rejissorluq fakültəsini bitirib. Həmin ildən "Gürcüfilm" kinostudiyasında fəaliyyətə başlayıb. 1981-ci ildən Gürcüstan Yazıçılar Birliyinin üzvü olub. Bir neçə nəsr kitabının, iyirmiyə yaxın filmin (ssenarist və rejissor kimi) müəllifidir. Roman, povest və hekayələri bir sıra dünya dillərinə tərcümə olunub.

2000-ci ildən Gürcüstanın Kareli rayonundakı bir monastırda inzivaya çəkilib, cəmiyyətdən uzaqda tənha həyat sürməyə başlayıb. 2007-ci ilin 16 noyabrında ağır xəstəlik nəticəsində vəfat edib. Msxeta bölgəsində yerləşən Müqəddəs Nino qadın monastırının həyətində dəfn olunub.

Küknarlara məktub

(hekayə)

Qarmaqarışıq yuxular Cğunanı təntitmişdi. Birdən o diksinib hövlnak oyandı.

Başını sallayıb çarpayıda bir xeyli oturdu, yuxusunu xatırlamağa çalışdı. Sonra palçıqlı çəkmələrini geyinib fikirli-fikirli Berinin evinə sarı yol aldı.

Günəş çıxdığı yerdən xeyli aralanmışdı.

Berinin evinin qabağında kəndin qarıları yığışıb nəsə pıçıldaşırdılar. Berinin arvadı da onların arasındaydı, üzünü əlinə söykəyib evin pəncərəsinə baxır, köksünü ötürürdü.

Sakitliyi yalnız hasarın dirəyinə qonmuş qarğa pozurdu.

Qarğa sanki bəd xəbərlər qarıldayırdı.

– Zəhrimar, çor, Allah səsinizi batırsın, – qarılar deyinirdilər.

Cğuna hasardan taxtanın birini qoparıb qarğaya atdı. Qarğa uçub indi də eyvanın üstünə qondu, qarıldamağına davam elədi. Cğuna yerdən yastı daş götürdü, divarın dibinə qısıla-qısıla yaxınlaşıb daşı quşa atdı. Qarğa yalnız yerini dəyişdi. Cğuna qarıların yanına qayıtdı.

– Necədi kişinin halı? – Berinin arvadından soruşdu.

– Gecə yenə ürəyi sıxılırdı.

– İynə vurdular?

– Yox, qoymadı.

– Heç olmasa bir az quruyubmu?

– Quruyur, elə onun dərdidi də kişini öldürən. Ürəyi də elə ona görə ağrıyır.

– Həkim gəlməmişdi?

– Bu səhər gəldi, – Berinin arvadı köksünü ötürdü.

– Nə dedi?

– Deyir yazdığım iynələri vurdurmasa, quruyan deyil. Nə qədər yalvarırıq, iynəni yaxına qoymur.

– Ayrı dərman yazmadı?

– Hələ yox, içəridədi, danışırlar.

Cğuna evə girdi.

Beri çarpayıda oturmuşdu. Paltarının sol çiynini kəsmişdilər, oradan balaca küknar ağacının başı görünürdü. Çılpaq ayaqlarını çarpayının qabağında qazılmış yerə sallayıb, üstünə su tökürdü.

– Belə eləmə, Beri, eləmə, soyuq dəyər, özünü niyə öldürürsən? – altmış yaşına çatmış həkim, alçaqboy yəhudi qadın yalvarırdı. Bu həkim Qudamağarililərin xilaskar mələyi idi.

– A kişi, belə də iş olar, iynə vurmağa qoymursan, özün də ayaqlarını soyuq suya salmısan. Beləliklə adam sağalar?

– Mənə yox, buna köməyi dəyər, – Beri çiynindəki balaca küknarı göstərdi.

– A sağolmuş, bəyəm başa düşmürsən ki, sən ölsən, küknar da məhv olacaq? Nə üzə durmusan, vurdur da iynələrini.

– İynə onu qurudar, görmürsən necə soluxub.

Beri ayaqlarını basdırdığı torpağa yenə su tökdü. Bir yad adam otağa girib onlarla salamlaşdı. Beri onun salamını alıb damağındakı siqareti göstərdi:

– Söndür, tüstünün küknara ziyanı dəyər.

Gələn adam siqaretini söndürdü:

– Mən sizin məktəbin təzə coğrafiya müəllimiyəm, bu qəribə hadisəni eşidib gəlmişəm. Heyrət olunasıdı, birinci dəfə eşidirəm ki, insanın çiynində küknar bitib. Heç inanmaq olmur. Siz Allah, məni başa salın görüm bu nə işdi belə?

– Burda başa salınası nə var? Elə-belə çıxdı da küknar, çıxdı, vəssalam, – Beri cavab verdi.

– Siz nə danışırsınız, necə yəni vəssalam?! Mən eşitmişəm siz küknara öz övladınız kimi baxırsınız. Havada gəzdirirsiniz ki, dərmanlar onu qurutmasın,

öz həyatınızı təhlükəyə atırsınız. Ona öz övladınız, canınızın bir parçası kimi baxırsınız. Adam lap mat qalır…

– Mənim uşağım yoxdu, – Beri dedi, sonra təzə siqaret yandırmaq istəyən müəllimdən xahiş elədi: – Amandı, burda çəkməyin.

– Bağışlayın, yadımdan çıxmışdı. Bəlkə elə bilirsiniz məni sizin arvadınız göndərib, hə? Yox, bu mənim öz məsləhətimdi: siz iynələri mütləq vurdurmalısınız, yoxsa ürəyiniz sağalmaz. Bu küknardan, ağsaqqal, meşədə nə qədər desən var, sizsə bir balaca ağacdan ötrü…

– Sizin çiyninizdə bitsəydi, neynərdiniz? – Beri soruşdu.

– Sizin kimi ürəyim ağrısa, əlbəttə, dərman atardım. Sizsə öz həyatınızı təhlükə qarşısında qoyursunuz, bu hərəkətlə də içinizdə yaşayan Allahı öldürürsünüz.

– Bəyəm bu küknar canlı deyil? – Beri dilləndi.

– O küknar onsuz da quruyacaq.

– Bəlkə də qurumadı, – Beri getməyə hazırlaşdı.

– Hara gedirsən? – Cğuna soruşdu.

– Bunu gəzdirməliyəm, burda hava çox bürküdü, doğrudan da quruya bilər.

– Ürək damcılarını içəydiniz… – həkim az qala yalvardı.

Beri heç nə demədi, ensiz qapıdan ehtiyatla çıxdı ki, küknarın budaqları ilişməsin.

– Siz Allaha inanırsınız? – həkim müəllimdən soruşdu.

Müəllim özünü itirdi:

– Yox, elə sözgəlişi dedim. Ağlasığmaz işdi: ağac insanın çiynində necə bitib? Bundan sonra gəl inanma. Necə olub ki, bu kişinin çiynində bitib küknar?

– Müharibədə yaralanıb, meşədə yarasına küknar tozu tökülüb, – həkim cavab verdi.

– Necə olacaq, görən köməyi dəyəcək? – Cğuna soruşdu, bu sualla elə bil dərdini də söylədi.

– Gərək birtəhər iynə vuraq ki, küknar qurusun.

– Necə vurasan, görmürsən gecə də yatmır, küknarı uşağı kimi sığallayır.

– Ürəyi tab gətirməyəcək, müalicə olunmalıdı.

– Doğrudan da, bu məsələ dərindən öyrənilməlidi, – müəllim siqaretini tüstülətdi.

***

Beri qozluqda xeyli gəzdi, sonra fikirləşdi ki, fındıqlıqda gəzmək küknara daha çox xeyir verər, ona görə də yuxarı dırmandı. Yolda meşəbəyi ona rast gəldi.

– Necədi, quruyur? – Beridən soruşdu.

– Hə, nəsə yaxşı deyil.

– Elə bil ürəyinin ağrısı da buna bənd imiş.

– Elə onu de.

– Düzü, Allahın rəhminə nə deyim... Bu meşələrdə küknar bitməz, sənin çiynində hardan bitdi? Onun yerinə bir uşaq versəydi…

– Mən elə buna görə də şükür eləyirəm Allaha. Kaş qurumaya.

– Nə qurumaya, görmürsən soluxub! Bir də, ay sağolmuş, bəxt deyilsə, bəs nədi, niyə Allah ayrı ağac bitirmədi, yenə gilasdan-zaddan olsaydı… Bu Tanrının da heç insafı yoxmuş…

– Mən narazı deyiləm, – Beri dedi.

– Bir yana baxanda düzünü sən deyirsən. Eşitmişəm küknar qozasından qursaq dərmanı düzəldirlər. Bu ağrı məni öldürdü, a kişi. Bizim meşələrdə də dərmanlıq bir küknar tapmazsan, hamısı vələsdi, palıddı. Qardaşımsan, əgər qurumayıb bar gətirsə, qozasını heç kəsə vermə, mənə ver, bəlkə bu ağrıya dərman oldu. Yoxsa, vallah, az qalır öldürə məni.

Beri küknarın ilk barını meşəbəyiyə söz verib yoluna davam elədi.

Təpənin başında oturub dincəldi.

Dörd tərəfi açıqlıq idi, həmişə burada ayaq saxlayıb dincini alardı, küknarı sığallayardı. Bu yer çox xoşuna gəlirdi. Bir az dincələndən sonra qalxdı, kolluqda elə gizləndi ki, ancaq küknar görünürdü. Beləcə o vaxtacan durdu ki, küknarın üstünə bir quşcuğaz qondu, bir az cikkildəyib, uçub getdi. Beri qalxıb quşun dalınca minnətdarlıqla baxdı.

Sonra yenə bayaqkı yerində oturub sol çiynini qayalıqdan əsən yelə verdi.

Aşağıdan Araqvi meşəliyi milyon gözlə ona baxırdı.

Lap aşağıda isə təpələrin arasında böyük bir kənd görünürdü. Kolxoz idarəsi bu kənddəydi. Ağ daşdan tikilmiş hündür binaydı.

Berinin ağlına belə bir fikir gəldi: idarəyə gedib sədrdən putyovka istəsin. Özü də elə yerə ki, ora bütün küknarlıq olsun. Bəlkə həmin yerin havası düşdü, onun küknarı qurumadı.

Bu fikir ağlına gələn kimi ürəyinin ağrısı da yadından çıxdı, qaça-qaça üz qoydu aşağıya. Heyrətlənmiş adamlar Berini görüb dalınca düşdülər.

Kolxoz sədri öz otağında oturmuşdu.

– Putyovka istəyirəm.

– Nə putyovka, başa düşmürəm, – sədr təəccübləndi.

– Elə yerə ki, küknarlıq olsun.

– Biz burda işlə məşğuluq.

– Bilirəm.

– Bəs onda nə istəyirsən?

– Bəlkə düzəldəsən?

– Mümkün deyil.

– Xahiş eləyirəm.

– A kişi, nə zəhləmi tökürsən, sənə deyirlər iynələrini vurdur da!

– Sən də onların tərəfini saxlayırsan?

– Mənə heç kəs heç nə deməyib. Höcətləşmə!

– Mən neyləyim, bitdi də!

– Bitdi, quruyar! İndi mənimçün meşəçilik sovxozu aç, belində də kol ək, almadan, armuddan, zoğaldan da içinə qat, bir az da vəhşi heyvandan-zaddan

burax. Ovçular girərlər, ağacları kəsərlər, sonra da qoyma məni dincəlməyə, məndən meşəbəyi istə, onlara da maaş verək, sonra birisi bağ evi üçün yer istəsin. Hə, az qaldı yadımdan çıxsın, üzümlük də sal, çaxır çəkək, beləcə rahat yaşayaq… Əl çək məndən, yoxdu putyovkam, sənə nə deyiblər, onu da elə. Fikirləşmə ki, sənin qarın məni öyrədib, yox, mən özüm deyirəm sənə, küknarı qurut getsin!

Beri sədrə heç nə deməyib idarədən çıxdı, yoluna davam elədi.

***

Beri soraqlaşa-soraqlaşa Borjomiyə gedib çıxdı. Çiynində bitmiş ağacı görənlər onu dəli hesab eləyirdilər. Mehmanxanada yer vermədilər. Sanatoriyalar da dincələnlərlə doluydu.

Onda Beri küknarlıqda bir dəyə tikib gününü orada keçirməyə başladı.

Neçə gün ürəyinin ağrısı kəsmədi, ancaq sonra əhvalı düzəldi.

Bir həftədən sonra küknar da yaxşılaşdı, dirildi, yaşıllaşdı.

Küknar birdən-birə boy atdı, Beri onun köklərini sinəsində hiss eləyirdi, budaqlarını üzünə toxundurub xoşhallanırdı.

İndi o, küknarın hər fikrini başa düşürdü, başqa ağaclarla danışığını duyurdu. Beri sirlərlə dolu gözəgörünməz, naməlum bir kainatın varlığını hiss eləyirdi. İndi onun bədənində dolaşan iki ruh bir-birinə sığınmağa çalışırdı. Bədən birliyə, bütövlüyə can atırdı. Onlar bir-birini soğurdular, yavaş-yavaş bir bütövü doldururdular.

Bir ay sonra Berinin başından yuxarı qalxmış küknar öz qonaqlarını – quşları qarşılayırdı.

Berinin ürəyi arvadını, dostu Cğunanı istədi.

Meşəbəyiyə verdiyi söz də yadından çıxmamışdı.

– Qorxma, qozalarımı verəcəm, özünü qurtararsan,

Belə qərara gəldi ki, meşənin içiylə kəndlərinəcən piyada getsin, onda nə adamla rastlaşar, nə də küknara bir xətər yetər. Küknar meşəsiylə vidalaşıb kəndə yola düşdü.

***

"Küknarlara məktub!"

Bu məktubu kənddən yazıram. Özüm də yaxşıyam. Tez-tez meşədə gəzirəm. Kəndçilərim yaxın gəlmirlər, məndən qorxurlar. Dünən coğrafiya müəllimi məndən xahiş elədi ki, yeni ildə küknarımı bəzəməyə rüsxət verim. Mən də razılaşdım, ancaq qorxuram ki, budağımı sındıralar. Bircə nəfərlə adam balası kimi danışmaq olur, o da meşəbəyidi. Barımı ona söz vermişəm, ancaq acgöz adamdı, mənim küknar olmağımla heç razılaşmaq istəmir. Hərdənbir yenə deyinir ki, kaş gilas olaydın, ağzımı şirin eləyərdim.

Bu gün yenə gəzməyə çıxmışdım. Arvadım məndən ayrılmır, qorxur budağım ağırlıq elər, uçuruma-zada düşərəm. Öz taleyiylə barışıb.

Cğuna ayrı kəndə köçdü, daha biz tərəflərə gəlmir. Ürəyim yaman istəyir onu, yaxşı dost idi.

Keçən həftə toya getmişdim, bir qəşəng qızınan rəqs elədim. Onun da mənim kimi bədöy bədəni vardı.

Burada bir əyyaş kişi yaşayır, hər keflənəndə baltanı götürüb itiləyir, deyir:

– Berini kəsəcəm! Berini kəsəcəm!

Ondan aralı gəzirəm, kefli adamdan nə desən gözləmək olar, birdən doğrudan da kəsər məni.

Buradakı meşələr artıq saralır. Onlar çox təəccüblənirlər ki, mən yamyaşılam, rəngim dəyişmir. Məni yeriyən görəndə dəli olurlar. Yəqin, elə bilirlər göydən gəlmişəm. Elə qısqanırlar ki…

Mən onları başa saldım ki, göydən-zaddan gəlməmişəm. İnanmadılar, dedilər:

– Torpaqda yaranmısansa niyə bizim kimi rəngin dəyişmir? Yerdəki ağaclar yerimirlər, sənsə hara istəsən gedirsən. Həm də sənin yarpaqların bizimki təki deyil.

Nə deyə bilərəm? Nəynən inandırım onları? Vəlsi yenə inandırmaq olar, ancaq qalanları yaman inadkardı.

İstəmirəm meşəni pərt eləyim, bir tərəfdən də onlarsız durammıram. Meşənin lap ortasında balaca bir çinar var, onu hər gün görməsəm dözəmmərəm. Məni görəndə elə əsir ki… Yəqin, o da məni sevir. Axır vaxtlar ona çox yaxınlaşıram, deyəsən, arvadım duyuq düşüb. Qorxuram məni hədələyən o kefli kişini tovlayıb çinarı kəsdirsin.

Deyəsən, kəndçilərim də, ağaclar kimi, şübhələnməyə başlayıblar. Kəndin qırağında bir qoca kişi yaşayır, bu dünyada bir kimsəsi yoxdu. Qabaqlar Allaha inanmırdı, ona görə də kənddən aralandı. Kəndin qurtaracağında ev tikdi, elə bir hasar çəkdi ki, ora quş da səkəmməz. Bütün ömrünü Allaha söyməklə keçirdi. İndi qocalıb, canı-cəsədi üzülüb, kasıblıq da belini büküb. Hərdən ona Allah xətrinə çörək-su verən ola-olmaya. Qurumuş cəsədində nəfəsi zorla gedib-gəlir. İndi hər gün Allaha yalvarıb günahının bağışlanmasını istəyir.

Meşəyə gedən yol o kişinin evinin böyründən keçir. Hər dəfə onu görəndə ürəyim ağrıyır. Dizi üstə çökür, göyə üz tutub deyir:

– Ey göydəki, mənə kömək ol!
Öz ətəyinə sığındır məni.
Bax, bu gözlərimi yum.
Bax, bu dilimi-ağzımı kilidlə.
Bax, bu dizlərimi qır.
Qəddimi oraq kimi əy.
Apar məni!
Bu həyatdan al məni.
Daha yoruldum,
bu qaranlıq quyuda gözləməkdən yoruldum.
Məni görən kimi titrək səslə yalvarmağa başlayır:
– Dilə fələkdən, mənə köməyə gəlsin.
Dilə, köməyə gəlsin.
Kömək elə, yalvar...

Bu kişiyə yaman yazığım gəlir, bilmirəm ona necə kömək eləyim. Xətrinə dəyməsin deyə mən də əllərimi qaldırıb deyirəm:

– Kömək elə, kömək elə!

Ancaq heç kim görünmür.

Gecikir…

Gecələr möcüzəli yuxular görürəm; gah görürəm ki, uçuram, gah aşağı enirəm, torpağın ürəyinə girirəm, onun döyüntüsünə qulaq asıram. Yer insan kimi nəfəs alır, hələ onun nəfəsini də eşidirəm. Elə bilirəm üstündəkilərin hamısı onun yuxusudu.

Gah da yuxuda çox hündürə qalxıram, oradan baxıram ana torpağa. Yuxarıdan başqa cür görünür:

O, canlıdı!

Çaylar – onun qan damarlarıdı.

Dənizlər, okeanlar – ciyərləridi.

Meşələrlə nəfəs alır o.

Hava – onun ruhudu.

Adəm də özüdü, Həvva da.

Dünyada hər şeyin torpaqdan necə çıxdığı, necə yenə torpağa qayıtdığı uzaqdan yaxşı görünür… Kaş hərdənbir mənim yuxuma baxasınız, görəsiniz necədi ana torpaq.

Göylər?

Mən ona inanıram, çünki torpağa inanıram. Bizsə torpağın bir parçasıyıq. Yəqin, ana torpaq da göylərin bir parçasıdı. Bunu hələ yuxuda görməmişəm. Ancaq torpaqdan çıxan şeylər torpağa qayıtdığı kimi, torpaq da göylərə qarışır.

Bilirəm, mənim halımla çox maraqlanırsınız. Fikir çəkməyin, indi ürəyim az ağrıyır. Bu gün qaratoyuq budağıma qonub elə şirin oxudu ki, ağrım yadımdan çıxdı.

Buradakı meşəlikdə küknar bircə mənəm. Təpənin başında bir yeri çox sevirəm, tez-tez orada dururam, oradan hər tərəf görünür.

Gecələr yuxuda mənə elə gəlir ki, köklərim torpaqdadı.

Ürəyim sizi istəyir.

Öpürəm çoxlu-çoxlu…"

Məktubun üstünə ünvan da yazılmışdı:

"66793

Borjomi.

Bu məktubu küknar meşəsinə tullayın.

Beri".

***

Payızda Berinin ürəyinin ağrısı artdı.

Bir gecə küknarın dizlərindən də aşağı kök atdığını hiss elədi.

Ürəyi yaman darıxırdı.

Aylı gecədə evdən çıxdı, bel götürüb meşəyə gedən yola düşdü.

Qış yaxınlaşırdı.

Ay işığında çılpaq ağaclar göylərdən rəhm diləyən adamlara oxşayırdı.

Meşəbəyinin daxmasını keçdi.

Gecəyarı öz sevimli yerinə çatdı. Buradan hər yer aydın görünürdü. Beri dərin bir xəndək qazıb içinə girdi, sonra ayaqlarının üstünə torpaq tökdü. Beləcə durdu.

Handan-hana Beri iki gövdənin bir-birinə necə axdığını, bir bədən olduğunu, nazik köklərin torpaqdan necə yapışdığını hiss elədi.

Bundan sonra ilk duyduğu günəşin doğuşu oldu.

Gürcü dilindən tərcümə edən: Nəriman Əbdülrəhmanlı



Rəşad İLYASOV
fəlsəfə üzrə fəlsəfə doktoru

Kamal Abdullanın "Birun-Əndərun" dilemmasına metafizik baxış

Klassik yanaşmalardan biri budur ki, fəlsəfənin, o cümlədən metafizikanın predmeti "var olması baxımından mövcudluq", yəni varlığın mahiyyətidir. Bu kontekstdə seçdiyimiz mövzuya – hörmətli ədibimiz Kamal Abdullanın "Düma ilə Coys arasında" kitabında yer almış "Birun və Əndərun oyunları" ədəbi essesinə dair mülahizələrimizi qısaca bölüşmək istərdik.

Yeri gəlmişkən, fəlsəfə tarixinə, xüsusilə həm Şərqdə, həm də Qərbdə hermenevtikanın keçdiyi yola baxdığımız zaman görürük ki, bir çox hallarda mətn və ona dair mətnlər sayəsində "dairəvi elmi ənənə" yaradılıb. Bu ənənəyə misal kimi Qərbdə Latın İbn Rüşdçülüyünü, Şərqdə isə Əkbəri (İbn Ərəbi) məktəblərini göstərmək olar. Nümunələri çoxalda bilərik, amma bu, artıq başqa mövzudur.

Adını çəkdiyimiz essenin girişində Kamal Abdulla əndərun-birun dilemmasını yaşam tərzindən və real həyatdan nümunələr gətirməklə izah edir, bu dilemmanın sosial sferadan tutmuş təhtəlşüura qədər ən müxtəlif qatlarda özünü büruzə verdiyini vurğulayır: "Bu, təkcə ədəb və ərkanda özünü göstərmirdi, təhtəlşüurdan (altşüurdan) vurub dil-danışıq qatından keçir, sosial münasibətlərin bu və ya başqa cür formalaşmasına təsir edirdi". Burada ədib klassik düşüncəmizdə əndərun-birun fərqliliyinin şüurlu şəkildə ayrıldığına və hər birinin özünə məxsus mahiyyətlər qazandığına sətiraltı işarə vurur. Yazıçı-mütəfəkkir müasir dövrdə zənn edildiyinin əksinə olaraq, yaşadığımız modern və postmodern həyat tərzinin belə bu fərqliliyi aradan qaldırmadığını vurğulayır. Müəllif milli mentalitetimizə və ictimai şüurumuza istinadla birun-

əndərun oyunlarının hələ də aktual olduğunu təsvir edir, qəlbimizin əndərunla, beynimizin isə birunla analogiyasını aparır. Bu yanaşma dahi fransız filosofu Rene Dekartdan sonra fəlsəfi baxımdan bir-birindən ayrılan, tamamilə yad, hətta antaqonist mövqeyə gətirilən şüur-bədən (Mind and Body) ikiliyini xatırladır. Sonrakı dövrlərdə Kant və pozitivistlər tərəfindən inkişaf etdirilən bu tendensiya bir qədər də sonra Nitşe, Freyd, Haydegger kimi mütəfəkkirlərin ciddi tənqidlərinə məruz qaldı. Onlara görə, şüur-bədən yadlaşması eqonun parçalanmasına gətirib çıxarırdı.

Kamal Abdulla da bu ziddiyyətə diqqət çəkir, Dekartdan öncəki dövrlərdə fəlsəfi tendensiyanın fərqli olduğunu xatırladır: "Qədimdə ümumi dəyərlər daha çox və bir-birinə daha bağlı olub". Müəllifə görə, əndərun-birun oyunları Şərqdə daha çox calaq tutub ki, bu da ədəbi-bədii mətnlərdə özünü qabarıq şəkildə büruzə verir. Yeri gəlmişkən deyək ki, məşhur fransız mütəfəkkiri, din tarixçisi Ernest Renan İslam haqqında mühazirələrində müsəlman sivilizasiyasını ciddi tənqid atəşinə tutsa da, bir məsələdə ona haqq qazandırır: o, İslam mədəniyyətini dil mədəniyyəti adlandırır.

Təəssüf ki, Renan İslam sivilizasiyasında nə üçün ilkin olaraq dil elmlərinin yaranıb inkişaf etməsinin gerçək mahiyyətinə, epistemioloji alt qatlarına vara bilməmişdi. Müasir dövrdə, xüsusilə ötən əsrin 60-cı illərində Oksfordda analitik dil məktəbinin yaranmasından, İngiltərədə Oustin, ABŞ-da isə Sörlün kimi alimlərin tədqiqatlarından sonra hər bir dilin özünəməxsus varlıq sferasına malik olduğu müəyyən edildi. Digər tərəfdən də, məşhur filosof Naom Çomskinin dilin birbaşa şüurda kateqorial aparatın yaranmasındakı funksional rolu haqqında elmi-fəlsəfi mülahizələri dil sahəsinin sadəcə dilçiliklə məhdudlaşmadığını sübuta yetirdi. Bu baxımdan İslam sivilizasiyasında dilçilik elmlərinin və dil fəlsəfəsinin meydana gələn ilk elmlər olması təsadüf deyil.

"...Eynən Əndərun barədə də Birundakı "vurnuxmalar" və "var-gəllər" vasitəsilə təsəvvür əldə etmək mümkündür". Ədibin bu yanaşması ilə İslam fəlsəfəsində əşyanın məzmununu, mahiyyətini və materiyadakı hərəkətliliyi izah edən cövhər (substansiya) və ərəz (aksidensiya) münasibətləri arasında bənzərliklər görmək mümkündür. İslam düşüncə tarixi boyunca cövhərlə ərəz arasındakı münasibətlərin araşdırılmasına bir çox fəlsəfi traktatlar həsr olunub. Səfəvilər dövründə yaşamış mütəfəkkir Sədrəddin Şiraziyə qədər müsəlman Şərqində qədim yunan filosoflarından qalma "fenomenlər aləmində cövhər dəyişməzdir" düşüncəsi hakim idi. Ancaq Sədra ərəzdəki dəyişmələrin cövhərdəki hərəkətlənməyə də təsir göstərdiyini isbat etməklə fenomenlər aləminin mahiyyətinə yeni rakursdan baxmışdı. Zənnimcə, bədii mətnlərdəki əndərun-birun oyunları da fenomenlərdəki dəyişmələr kimi həyata keçirilir.

Ədibin zahiri və batini mənaların alt qatına nüfuz etməsi, hətta Füzuli kimi çoxlarının əzbər bildiyi bir şairin timsalında minillik ədəbiyyatımızın əndərununa yol tapması klassik irsimizə yeni gözlə baxmağa, onu yeni təfəkkürlə anlamağa təkan verir. Əlbəttə, "Mətləül-etiqad" ("İnancın doğuluşu") kimi fəlsəfi-teoloji əsər müəllifinin, elmsiz şeiri təməlsiz divara bənzədən

mütəfəkkir şairin sözün hərfi mənasında əndərunla uğraşdığını düşünmək sadəlövhlük olardı.

Kamal Abdulla bu məqamda Füzuli ilə Axundov arasındakı fərqə və fikri qırılmaya da diqqət çəkir: "XIX əsrdə bu dirilmə baş verə bilərdi. Axundov buna imkan vermədi". Həqiqətən də klassiklərin dövrümüzdə çətin anlaşılmasının əsasında ilkin olaraq M.F.Axundovun Azərbaycan ədəbiyyatında şaquli metafizik istiqaməti ortadan qaldırması dayanır. Məlumdur ki, Füzulinin, eləcə də digər klassik ədib və mütəfəkkirlərimizin paradiqması şaquli, yəni "elmi-ilahi" adlandırılan metafizik anlayışa istinad edirdi. Axundov ədəbiyyatımızda bunu üfüqi, yəni ictimai anlayışla əvəzlədi. Bunun özü ədəbi-bədii sahədə ciddi dəyişiklik idi. Elm tarixində İbn Xəldunun etdiyi inqilaba sanbalca bərabər bir addımı Azərbaycan ədəbi düşüncəsində Axundov atdı.

Kamal Abdulla əndərun-birun oyunlarını müəllif, mətn və oxucu kontekstində ələ almaqla maraqlı mülahizələr irəli sürür. Müəllifin niyyəti, mətnin məqsədi və oxucunun şəxsi anlama dünyası müasir analitik fəlsəfədə də ciddi mövzulardan hesab olunur. Kamal Abdulla bütün bunlara diqqət çəkərək həm dünyanın, həm də mətnlərin bu cəhətlərdən anlaşılmasının vacibliyini izah edir. Digər tərəfdən, ədib essedə Nitşeyə istinadla "səhranın böyüməsinin", yaddaşın itməsinin də əndərun-birun oyunlarına təsirindən danışır. Müəllifin böyük alman filosofuna istinad etməsi təsadüf deyil, çünki Nitşe fəlsəfəsində əndərun-birun oyunlarının çoxlu izlərini tapmaq mümkündür. Nitşenin bazar yerində əlində çıraq gəzə-gəzə "Tanrı öldü, Tanrı öldü!" deyə fəryad qoparan qəhrəmanı insanların laqeydliyini gördükdən sonra çırağı yerə çırpıb "Tanrını siz öldürdünüz!" deyir. Doğrudan da, müasir Qərb əndərun-birun oyunlarını bir məkanda cəmləşdirməklə, Adornonun da dediyi kimi, "ağıl tutulması"nın genişlənməsinə səbəb olub...

Kamal Abdulla şəxsiyyət daxilində də əndərun-birun ikiləşməsinin reallığından bəhs edərək, mənin laylarını, kəşf edilməmiş qatlarını bu kontekstdə qiymətləndirməyin vacibliyini vurğulayır. Müəllif Aristotel, Neyman və Qanturalıya istinadla əndərun və birun arasındakı münasibətləri, "bəlkə" keçidlərini orijinal bir şəkildə şərh edir. Klassik Şərq-müsəlman düşüncəsində bu, öz ifadəsini "varlıq mərtəbələri" (məratibül-vücud) və "həqiqət mərtəbələri" (məratibül-həqiqət) anlayışında tapır. Yəni əndərun-birun dairəsində hər bir varlığın və həqiqətin öz mövcudluq mərtəbəsi var. Bu mövcudluq həm fenomenlər aləmində, həm də insan nəfsində cərəyan edir.

"Tale" və "həyat" sözlərini analiz edən müəllif bu sözlərə, daha doğrusu, sözlərin mənalarına yeni öhdəliklər yükləyir. Xatırladaq ki, məhz yazdığı dilə yeni sözlər və mənalar gətirən ədiblər, mütəfəkkirlər tarixdə yaşamaq haqqı qazanırlar. Böyük filosof Haydegger deyirdi: "Dil varlığın evidir". Bu evi genişləndirən, varlıq mərtəbələrinin dizaynını quran və onu əbədi mühafizə edən də söz xiridarları – şairlər, yazıçılardır.

Essenin sonuna doğru Kamal Abdulla bəzi məfhumlara yeni gözlə baxmalı olduğumuzu bizə təlqin edir. Sonda isə xristian və təsəvvüf fəlsəfəsinə istinadla həqiqətin yek olduğunu təsdiqləyir. Bu mənada ədib haqlı olaraq

təsəvvüfün İslam düşüncəsinin zirvəsi olduğunu vurğulayır. Bu da təsadüfi deyil ki, yüzillər boyu İslam aləmində fəaliyyət göstərmiş mədrəsələrdə öyrədilən ən sonuncu elm təsəvvüf olub. İbn Sina, Nəsirəddin Tusi, Şihabəddin Sührəvərdi kimi onlarla böyük mütəfəkkirin əsərlərində təsəvvüfi metodun vacibliyi daim vurğulanıb. Məsələn, İbn Sinanın "Əl işarat və əl-təmbihat" əsərinin sonuncu "Ariflərin məqamları" fəsli birbaşa sufi epistemiologiyasının şərhinə həsr olunub.

Sonda bunu da deyək ki, bölüşdüyümüz mülahizələr Kamal Abdullanın "Birun və Əndərun oyunları" essesinə dair, müəllifin təbirincə söyləsək, kiçik bir "ricət" idi...

İyul

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) "Azərbaycan multikulturalizmi" fənninin xarici və ölkə universitetlərində tədrisi layihəsi uğurla davam edir. Hazırda sözügedən layihə çərçivəsində respublikamızın 38, dünyanın 15 aparıcı universitetində "Azərbaycan multikulturalizmi" fənni tədris edilir.

Bu sıraya daha bir universitet əlavə olunub. Almaniyanın nüfuzlu Vürtsburq Universitetində mütəxəssis Samirə Adışova tərəfindən "Azərbaycan multikulturalizmi" fənninin tədrisi keçilir. Universitetin magistrlərindən ibarət qrupda seçmə fənn kimi keçilən Azərbaycan multikulturalizminin tədrisi prosesində almaniyalı tələbələrə ölkəmizdəki multikultural və tolerant mühit, milli-mənəvi dəyərlərimiz, müxtəlif etnik kökə və fərqli dini etiqada malik insanların əsrlərdir dinc yanaşı yaşaması haqqında ətraflı məlumat verilir. Kurs iyulun sonunda yekunlaşıb.

Qeyd edək ki, keçən semestr Almaniyanın Auqsburq Universitetində də "Azərbaycan multikulturalizmi" fənninin tədrisinə başlanıb.

Xatırladaq ki, BBMM-in Himayəçilər Şurasının sədri akademik Kamal Abdullayevin ideya və təşəbbüsü ilə "Multikulturalizmə giriş" və "Azərbaycan multikulturalizmi" fənləri üzrə tədris proqramları Təhsil Nazirliyində təsdiq olunduqdan sonra sözügedən layihəyə start verilib, Mərkəzin imkanları hesabına xarici ölkə universitetləri ilə bu fənlərin tədrisi haqqında danışıqlar aparılıb və ilkin mərhələdə 7 xarici universitet təklifi müsbət qarşılayıb. Hazırda isə bu tədris ocaqlarının sayı 15-ə çatıb.

***

İyulun 4-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində cari ilin 6 ayının yekunları və qarşıda duran vəzifələrə həsr olunan kollegiya iclası keçirilib. İclasda kollegiya üzvləri ilə yanaşı, Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi Vüqar Babayev, həmçinin Mərkəzi Aparatın və bölgə şöbələrinin müdirləri iştirak ediblər.

İclasda çıxış edən dövlət komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, komitə cari ilin birinci yarısında vəzifəsindən irəli gələn funksiyaların həyata keçirilməsi istiqamətində mövcud qanunvericiliyi, Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrini rəhbər tutaraq milli və dövlətçilik maraqlarının qorunması yolunda fəaliyyətini davam etdirib. Dini durumun öyrənilməsi, dini icmalarla işin gücləndirilməsi, radikal dini cərəyan və təriqətlərin qanunazidd əməllərinin aşkarlanması ilə bağlı tədbirlər görülüb. Din adı ilə milli və dövlət maraqlarımıza zidd, milli-mənəvi dəyərlərimizə yad ideoloji təlimlərin yayılmasına qarşı mübarizə mümkün vasitələrlə davam etdirilib, bu istiqamətdə qabaqlayıcı, profilaktik və maarifləndirmə işləri aparılıb.

Kollegiya iclasında dövlət komitəsinin Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova və Quba bölgəsi üzrə şöbənin müdiri Eynulla Nurullayevin hesabat məruzələri dinlənilib.



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində bu ilin 6 ayının yekunlarına həsr olunan kollegiya iclası

***

İyulun 14-də Azərbaycan Dillər Universitetində (ADU) Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkilatçılığı ilə "Azərbaycan multikulturalizmi" dərsliyinin təqdimatı olub.

Tədbirdə ADU-nun rektoru, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri akademik Kamal Abdullayev ölkəmizdə multikulturalizmin dövlət siyasətinin əsas istiqamətlərindən biri olduğunu söyləyib. O bildirib ki, müasir dövrdə Azərbaycan cəmiyyətdəki etnik-mədəni müxtəlifliklərin düzgün tənzimlənməsi sahəsində örnək ölkələrdən biridir. Ölkəmizdə müxtəlif dinlərin nümayəndələri sülh və qardaşlıq münasibətləri şəraitində yaşayırlar. Azərbaycanda multikulturalizm dəyərləri təhsildə, mətbuat və ictimaiyyətdə davamlı qaydada təşviq olunur.



"Azərbaycan multikulturalizmi" kitabının təqdimat mərasimi. Çıxış edir Azərbaycan Dillər Universitetinin rektoru, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri akademik Kamal Abdullayev

Professor Etibar Nəcəfov, akademik Teymur Kərimli, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov və başqa çıxış edənlər bu gün ölkəmizdə multikulturalizmin siyasət və elm müstəvisindən təhsil müstəvisinə proyeksiya olunduğunu söyləyiblər. Bildirilib ki, ölkəmizdə multikulturalizm elmin, mədəni dəyərlərin qorunmasına yönəlib. Kitab Azərbaycanın multikulturalizm modelinin öyrənilməsində tələbə və müəllimlər üçün dəyərli mənbə, eyni zamanda, gənc nəslin bu sahədə maariflənməsinə böyük töhfədir.

Kitabın müəlliflərini təbrik edən Misir Ərəb Respublikasının ölkəmizdəki səfirliyinin Mədəniyyət və Təhsil Əlaqələri Mərkəzinin direktoru Əhməd Sami Elaydi, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr Ata Azərbaycanda uğurla həyata keçirilən multikulturalizm siyasətindən söz açaraq müxtəlif dinlərə məxsus xalqların nümayəndələrinin mehriban şəraitdə yaşadıqlarının şahidi olduqlarını söyləyiblər.

***

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi Azərbaycan multikulturalizmi fənnini elmi əsaslarla tədris edəcək mütəxəssislər üçün növbəti intensiv treninqlər təşkil edib.

İyulun 1-dən 22-dək BBMM-də keçirilən treninqlərdə Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, Naxçıvan Dövlət Universiteti, Azərbaycan Dövlət Polis Akademiyası, Bakı Avrasiya Universiteti, Sumqayıt Dövlət Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Dövlət Sərhəd Akademiyası, Azərbaycan Dövlət Dəniz Akademiyası, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Bakı Biznes Universitetinin müxtəlif elmi dərəcəli alimləri və müəllimləri iştirak ediblər.



Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkil etdiyi növbəti treninqlərin yekununa dair tədbirdən görüntü

Treninqlərdə Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər üzrə şöbəsinin baş məsləhətçisi Etibar Nəcəfov, həmin şöbənin aparıcı məsləhətçisi Ceyhun Məmmədov, tarixçi professor Həcər Verdiyeva, BBMM-in Analitika şöbəsinin müdiri Rəşad İlyasov və Azərbaycan Texniki Universitetinin İctimai fənlər kafedrasının dosenti Əyyub Kərimov müvafiq olaraq "Azərbaycan Respublikasının multikulturalizm siyasəti və ölkənin xarici siyasəti",

"Azərbaycanda dinlərin tarixi", "Etnik müxtəliflik və Azərbaycan Respublikasının multikulturalizm siyasəti ilə bağlı qeydlər", "Dünya ölkələrində multikulturalizm modelləri", "Azərbaycanın ictimai-fəlsəfi fikir tarixində tolerantlıq" mövzularında təqdimatlarla çıxış ediblər.

Treninqlər zamanı geniş diskussiyalar aparılıb, gələcəkdə bu fənni tədris edəcək mütəxəssislərin sualları ətraflı cavablandırılıb, onlara əyani vəsait kimi BBMM-in nəşrləri, həmçinin yenicə işıq üzü görmüş ali məktəblər üçün "Azərbaycan multikulturalizmi" dərsliyi təqdim edilib.

***

Ədliyyə Nazirliyi Penitensiar xidmətinin Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ilə birgə hazırladığı tədbirlər planına əsasən, məhkumların vicdan və dini etiqad azadlığının təmin edilməsi məqsədilə cəzaçəkmə müəssisələrində dini maarifləndirmə tədbirləri davam etdirilir.

Növbəti maarifləndirici tədbir Penitensiar xidmətin 8 və 13 saylı cəzaçəkmə müəssisələrində "Azərbaycanda birgəyaşayış ənənələri" mövzusunda keçirilib.

Tədbirdə DQİDK-nın Dinşünaslıq ekspertizası şöbəsinin müdir müavini Cahandar Əlifzadə, Azərbaycan Milli Elmlər Akademiyası Z.Bunyadov adına Şərqşünaslıq İnstitutunun elmi işçisi Elvüsal Məmmədov və Penitensiar xidmətin əməkdaşları iştirak edib.



Cəzaçəkmə müəssisələrində "Azərbaycanda birgəyaşayış ənənələri" mövzusunda keçirilən tədbirdən görüntü

***

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı iyulun 17-də Gürcüstanın Yevangelik-Lüteran kilsəsinin yepiskopu Hans Yoakim Kiderlen ilə görüşüb.

Komitə sədri görüşdə həyata keçirilən uğurlu siyasət nəticəsində ölkəmizdə yaranmış multikultural mühit barədə söz açıb. Azərbaycanın tolerant ölkə olduğunu, burada milli-mənəvi və dini dəyərlərə böyük önəm verildiyini, dini mənsubiyyətindən asılı olmayaraq hər kəsin azad fəaliyyəti üçün dövlət tərəfindən imkan yaradıldığını bildirən Mübariz Qurbanlı ölkəmizdə heç vaxt dini zəmində ayrı-seçkilik və vətəndaş qarşıdurması

baş vermədiyini, bu sahədə qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi münasibətlərin mövcud olduğunu diqqətə çatdırıb.

Hans Yoakim Kiderlen bu gün dünya ölkələrində dini-etnik millətçilik ideyalarının vüsət alması fonunda Azərbaycanda multikulturalizm və tolerantlıq ideyalarının inkişaf etməsinin hamıya örnək olduğunu bildirib.



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının Gürcüstanın Yevangelik-Lüteran kilsəsinin yepiskopu Hans Yoakim Kiderlen ilə görüşü

Avqust

Avqustun 2-də Valiske Assosiasiyasının təşkilatçılığı ilə Azərbaycanda olan Fransa yəhudi icmasının nümayəndə heyəti Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində olub.



Fransa yəhudi icmasının nümayəndə heyəti Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində

Nümayəndə heyətinin Azərbaycana səfərinin məqsədi ölkəmizdə mövcud dini tolerantlığın nəzəri əsasları, Azərbaycanda "İslam Həmrəyliyi İli", müsəlman-yəhudi birgəyaşayışının təmin olunması və ekstremizmin qarşısının alınması istiqamətində görülən işlərlə tanış olmaq idi.

Qonaqlara ölkəmizdəki multikultural mühit barədə məlumat verən BBMM-in əməkdaşı Rəvan Həsənov bildirib ki, sivilizasiyaların qovuşuğunda yerləşən Azərbaycanın zəngin mədəni-mənəvi irsə və tolerantlıq ənənələrinə malik olması beynəlxalq aləmdə etiraf edilən həqiqətlərdəndir.

Azərbaycandakı unikal müsəlman-yəhudi birgəyaşayış modeli, ölkəmizdə multikulturalizm və tolerantlıq sahəsində aparılan dövlət siyasəti aralarında aşkenaz, sefard, islahatçı liberal yəhudilərin olduğu Fransa yəhudi icması nümayəndələrinin böyük marağına və rəğbətinə səbəb olub.

***

Avqustun 6-da Tehranda "İslam həmrəyliyi İran–Azərbaycan dostluğu timsalında" mövzusunda konfrans keçirilib. Azərbaycan Prezidenti İlham Əliyevin 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsi ilə bağlı müvafiq sərəncamına uyğun olaraq keçirilən konfransı Qafqaz Müsəlmanları İdarəsi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, İran İslam Respublikasının İslam Məzhəblərinin Yaxınlaşdırılması Beynəlxalq Assosiasiyası, eləcə də Mədəniyyət və İslam Əlaqələri Təşkilatı ilə birgə təşkil edib. Konfransda qeyd edilib ki, "İslam Həmrəyliyi İli" çərçivəsində bir neçə xarici ölkədə tədbirlərin keçirilməsi nəzərdə tutulub və "İslam həmrəyliyi İran–Azərbaycan dostluğu timsalında" mövzusundakı konfrans bu qəbildən ilk beynəlxalq tədbirdir. Konfransda İranın nüfuzlu din xadimləri, xarici işlər və mədəniyyət nazirliklərinin nümayəndələri iştirak edib.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə bildirib ki, Azərbaycan dünyanın ən tolerant ölkələrindən biridir. Burada müxtəlif dinlərə və məzhəblərə mənsub insanlar bərabər və mehribanlıq şəraitində yaşayırlar. Azərbaycan Prezidenti İlham Əliyev İslam dininə xüsusi əhəmiyyət verərək, 2017-ci ili "İslam Həmrəyliyi İli" elan edib. Bu il çərçivəsində Bakıda İslam Həmrəyliyi Oyunları keçirilib. Oyunlara qatılan İslam ölkələri bütün dünyaya həmrəylik nümayiş etdiriblər.



İran İslam Respublikasının paytaxtı Tehran şəhərində keçirilən "İslam həmrəyliyi İran–Azərbaycan dostluğu timsalında" adlı konfransdan görüntü

Sentyabr

Sentyabrın 11-də Azərbaycan Dillər Universitetində "İndoneziya və Azərbaycanda multikulturalizm: müqayisəli araşdırma" mövzusunda seminar keçirilib. ADU və İndoneziyanın Azərbaycandakı səfirliyinin birgə təşkilatçılığı ilə keçirilən seminar hər iki ölkənin dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb.

Açılış niqti ilə çıxış edən ADU-nun rektoru, AMEA-nın həqiqi üzvü, Əməkdar Elm Xadimi Kamal Abdulla səfiri və indoneziyalı qonaqları salamlayaraq onları ADU-da görməkdən məmnun olduğunu söyləyib. O, bu yaxınlarda İndoneziyanın milli bayramının Azərbaycanda yüksək səviyyədə qeyd edildiyini bildirib və iştirakçılar adından qonaqlara təbriklərini çatdırıb. Akademik ADU-da İndoneziya Araşdırmalar Mərkəzinin fəaliyyət göstərdiyini vurğulayaraq bu mərkəzin hesabına Azərbaycanda indoneziyaşünas mütəxəssislərin yarandığını diqqətə çatdırıb. K.Abdulla səfir Hüsnan Bəy Fananinin yaxından dəstəyi ilə Cakartadakı İndoneziya Universitetində Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin açılması istiqamətində konkret addımların atıldığını diqqətə çatdırıb, yaxın gələcəkdə orada tələbələrin Azərbaycanla bağlı tədbirdə himnimizi məhəbbətlə səsləndirəcəklərinə ümid etdiyini bildirib.



Azərbaycan Dillər Universitetində "İndoneziyada və Azərbaycanda multikulturalizm: müqayisəli araşdırma" mövzusunda seminar. Çıxış edir İndoneziyanın Azərbaycandakı səfiri Hüsnan Bəy Fanani

Rektor daha sonra İndoneziya və Azərbaycanın multikultural dəyərlərindən danışıb. Onun sözlərinə görə, İndoneziya ilə Azərbaycanı bir çox cəhətlər birləşdirir ki, bunlar arasında multikulturalizmi xüsusilə qeyd etmək lazımdır. K.Abdulla bildirib ki, Prezident İlham Əliyev multikulturalizmi Azərbaycanın dövlət siyasəti elan edib: "Multikulturalizm Azərbaycan xalqının qədim tarixindən bu gününə qədər onun ən böyük ziyalılarının yaradıcılığından qırmızı xətlə keçən son dərəcə insansevər və dünyəvi dəyərlərə açıq olan mənəvi bir xəzinədir. Ulu Öndər Heydər Əliyevin siyasi əsaslarını qoyduğu multikulturalizm xətti bu gün Prezident İlham Əliyev tərəfindən dövlət siyasəti kimi inkişaf etdirilir və bizim universitet də bu inkişafa öz töhfəsini verir. Mən inanıram ki, bizim universitetin müəllim-tələbə heyəti, potensialı bizə imkan verəcək ki, Azərbaycanın multikulturalizm ideyalarını dünyanın bir çox ökələrinə aparaq, o cümlədən İndoneziyada son dərəcə davamlı, etibarlı dayaq nöqtəsi yaradaq. Bu gün ADU-da Multikulturalizm elmi-tədqiqat laboratoriyası yaradılıb, ölkəmizdə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi fəaliyyət göstərir. Eyni zamanda dünyanın 15 universitetində, həmçinin İndoneziyada "Azərbaycan multikulturalizmi" fənni uğurla tədris edilir".

Multikultural dəyərlər baxımından İndoneziyanı Azərbaycanın böyük mənəvi müttəfiqi kimi xarakterizə edən akademik bu ölkənin özlüyündə böyük bir multikultural dövlət olduğunu vurğulayıb. O, mindən çox millətin, xalqın yaşadığı bir ölkədə bu insani münasibətlərin qədim zamanlardan inkişaf edə-edə bugünkü vəziyyətə dostluq, qardaşlıq şəraitində gəlib çıxmasının səbəbini Azərbaycanda olduğu kimi, İndoneziyada da insanlar arasında həmrəylik münasibətlərinin dövlət səviyyəsində tənzimlənməsi ilə izah edib.

Daha sonra çıxış edən İndoneziyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Hüsnan Bəy Fanani bu seminarın Azərbaycanda keçirilən II İndoneziya mədəniyyət festivalının tərkib hissəsi olduğunu vurğulayıb. İndoneziyanı dünyanın ən böyük multikultural ölkəsi kimi dəyərləndirən səfir bu dövlətdə yaşayan 270 milyon insanın 1300-dən çox etnik qrupa mənsub olduğunu, lakin dil və dinin onları birləşdirdiyini sözlərinə əlavə edib. Sonda səfir Azərbaycanı özünün ikinci vətəni adlandırıb.

Seminarda Banqdunq Dövlət İslam Universitetinin rektoru Prof. Dr. M.Mahdmud M.Si "İndoneziya və Azərbaycan multikulturalizmi qlobal model kimi", Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktor əvəzi Rəvan Həsənov "Azərbaycan multikulturalizminin siyasi-hüquqi əsasları", Cokyakarta Sinan Kalicaqa Dövlət İslam Universitetinin əməkdaşı Dr. Munavar Ahmad "Azərbaycan və İndoneziyada multikulturalizmin möhkəmlənməsində ictimai kapitalın rolu", Azərbaycan Dillər Universitetinin Ümumi dilçilik kafedrasının professoru Həbib Zərbəliyev "Azərbaycan və İndoneziyada multikulturalizm: kontekst və çağırışlar", Beynəlxalq Multikulturalizm Mərkəzinin şöbə müdiri, fəlsəfə doktoru Rəşad İlyasov isə "Azərbaycan multikulturalizminin ədəbi-bədii və fəlsəfi qaynaqları" mövzularında çıxış ediblər.

***

Gəncədə Aleksandr Nevski adına Rus Pravoslav Kilsəsinin 130 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilib. Qərb bölgəsində yeganə kilsə olan Aleksandr Nevski Rus Pravoslav Kilsəsinə gələn xristianlar dini ayinlərini yerinə yetiriblər.



Gəncə şəhərindəki Aleksandr Nevski Rus Pravoslav Kilsəsinin 130 illiyinə həsr edilmiş mərasim

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində Azərbaycanın tolerant ölkə olduğunu qeyd edərək kilsədəkilərə təbriklərini çatdırıb.

Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri Vladimir Doroxin tədbir iştirakçılarını salamlayaraq kilsənin 130 illiyi münasibətilə onları təbrik edib. Bu günün əlamətdar olduğunu vurğulayan səfir yeni təmir olunmuş kilsəyə insanların dini ayinlərini yerinə yetirmək üçün bundan sonra da gələcəklərinə inandığını bildirib.

Bakı və Azərbaycan yeparxiyasının Baş yepiskopu Aleksandr İşein Aleksandr Nevski adına Rus Pravoslav Kilsəsi haqqında geniş danışıb. Kilsənin təmir olunmasını sevinc hissi ilə qeyd edən Aleksandr İşein Nizami yurdunda bu məbədi indiyə qədər qoruduqlarına görə Gəncə sakinlərinə təşəkkür edib.

Qeyd edək ki, 1887-ci ildə inşa edilmiş bu kilsə bölgədə yaşayan pravoslavların ibadət yeridir.

***

Sentyabrın 25-də İstanbul şəhərində "Türkiyə və Azərbaycan timsalında islam həmrəyliyi" mövzusunda beynəlxalq konfrans keçirilib.

Toplantının açılışında çıxış edən QMİ sədri Şeyxülislam Allahşükür Paşazadə terror təşkilatlarına qarşı mübarizədə islam həmrəyliyinin böyük rol oynadığını deyib: "Vaxtında qarşısı alınmayan və düzgün siyasi qiymət verilməyən hadisələr sonradan daha ağır cinayətlərin törədilməsinə səbəb olur. Əzəli torpaqlarının 20%-i erməni işğalı altında olan Azərbaycanın Xocalı qəsəbəsində ermənilərin törətdikləri soyqırımın düzgün qiyməti verilsəydi, müsəlmanlara qarşı başqa soyqırımları həyata keçirilməzdi".

A.Paşazadə separatçılıqdan əziyyət çəkən bir ölkə kimi qətiyyətlə Azərbaycanın İraqın şimalında keçirilən referenduma qarşı olduğunu vurğulayıb. O, Türkiyədə 15 iyul 2016-cı ildəki hərbi çevriliş təşəbbüsünə qarşı başda Prezident İlham Əliyev olmaqla, Azərbaycan xalqının tam həmrəy şəkildə Türkiyə dövlətini dəstəklədiyini xatırladıb.



Türkiyənin İstanbul şəhərində "Türkiyə və Azərbaycan timsalında islam həmrəyliyi" mövzusunda keçirilən beynəlxalq konfransdan görüntü

Azərbaycanın Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı dini ekstremizmin və terrorun qarşısının alınması üçün "dində vəhdət və birlik" ideyasını həyata keçirdiklərini söyləyib. Bu ideyanı ölkədə və bölgədə uğurla həyata keçirdiklərini diqqətə çatdıran M.Qurbanlı bu istiqamətdəki təşəbbüslərini dünya miqyasında davam etdirəcəklərini vurğulayıb.

Türkiyə Baş nazirinin dini işlərə cavabdeh müavini Bəkir Bozdağ çıxışında bu toplantını "bir millət, iki dövlət" arasındakı həmrəyliyin və eyni mədəniyyətdən bəslənən

insanların bir-birinə daha çox yaxınlaşmalarının örnəyi kimi gördüyünü deyib. O, Konfransda iştirak edən elm adamlarına müraciət edərək: "Terror təşkilatlarını aradan çıxarmaq üçün ən böyük vəzifə sizin üzərinizə düşür. Quranı, Peyğəmbərimizin həyat və fəaliyyətini, düzgün hədisləri insanlara çox dərindən öyrətməliyik. Terror təşkilatları kimi bir zəhərə qarşı biz sadəcə elm, kitab, Quran yoluyla mübarizə apara bilərik", – deyə B. Bozdağ vurğulayıb.

Konfrans elm və din adamlarının çıxışları ilə davam edib.

***

Sentyabrın 28-də Qırmızı qəsəbədə Albert Aqarunovun adını daşıyan küçədə Milli Qəhrəmanın xatirə lövhəsinin açılış mərasimi keçirilib. Tədbirdə Quba Rayon İcra Hakimiyyətinin başçısı Yaşar Məmmədov, Milli Məclisin deputatı Yevda Abramov, Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov və digər rəsmi şəxslərlə yanaşı, Milli Qəhrəmanın döyüş yoldaşları, ailə üzvləri və qəsəbə sakinləri də iştirak edib.

Çıxışlarda qeyd olunub ki, Albert Aqarunov Xankəndi, Daşaltı, Cəmilli istiqamətində gedən döyüşlərdə erməni işğalçılarının xeyli sayda canlı qüvvəsini və zirehli texnikasını məhv edib. O, 23 yaşında olarkən 1992-ci il mayın 8-də Şuşa uğrunda gedən döyüşlərdə snayper gülləsinə tuş gələrək döyüş meydanında qəhrəmancasına şəhid olub. Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 7 iyun tarixli fərmanı ilə Aqarunov Albert Aqarunoviç ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Döyüş yoldaşları və yaxınları Albert Aqarunovu Vətəni sevən, yaşadığı torpaq uğrunda canından keçməyə hazır olan insan kimi xarakterizə ediblər.

Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun qardaşı Rantik Aqarunov göstərilən yüksək diqqət və qayğıya görə ailəsi adından ölkə rəhbərliyinə minnətdarlığını bildirib.



Quba rayonundakı Qırmızı qəsəbədə Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun xatirə barelyefinin açılışı

Address of the "Young Friends of Azerbaijan" multicultural union to world community



Military offenses against civilians lasting from the result of Armenia's occupation of 20% of the territory of Azerbaijan recognized by the world community continue even today. Azerbaijani citizens living in the territory of frontier are regularly fired from various weapons, exposed to artillery attack.

We - the Young Friends of Azerbaijan, world-spreading achievements and successful experience of Azerbaijan in the field of multiculturalism, condemn the next provocation, carried out by the occupiers, firing mine and grenade launchers, which was aimed against the peaceful population of Alkhanli village of Fizuli region of Azerbaijan on July, 4th.. We call all of our friends – who promote peace and prosperity in the world, peacekeepers, including the United Nations, the European Union, the Council of Europe, the OSCE Minsk Group, the Organization of Islamic Cooperation to urge to unite efforts for punishment of criminals targeted on civilians, innocent babies, women and elderly.

The terrible crime committed by Armenian armed forces on July 4 and the murder of 2-year-old innocent Zahra should raise every human being who does not tolerate child deaths. This crime is not a crime against a single Azerbaijani girl, but a crime against all humanity and to our future - children.

We – Young Friends of Azerbaijan, call our peers and the international community to express their strong attitude towards the cruel killings of civilians, condemn aggression and provocation, take effective measures to put an end to them and try their best to establish sustainable peace.

The Members of the Club of the Young Friends of Azerbaijan
July 7, 2017

“Azərbaycanın Gənc Dostları” multikultural birliyinin dünyadakı həmyaşıdlarına müraciəti

Ermənistanın Azərbaycan Respublikasının dünya birliyi tərəfindən tanınan ərazilərinin 20 faizini işğal etməsi nəticəsində dinc insanlara qarşı törədilən hərbi cinayətlər bu gün də davam edir. Cəbhəboyu ərazilərdə yaşayan Azərbaycan vətəndaşları mütəmadi olaraq müxtəlif silahlardan atəşə tutulur, artilleriya hücumuna məruz qalır.

Biz – Azərbaycanın multikulturalizm sahəsində əldə etdiyi nailiyyətləri və uğurlu təcrübəni dünyada yayan Azərbaycanın gənc dostları olaraq iyulun 4-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən Füzuli rayonunun Alxanlı kəndinin dinc əhalisini və yaşayış yerlərini qəsdən məhv etmək məqsədilə mina və qumbaraatanlarla atəşə tutaraq növbəti təxribat törətməsini qətiyyətlə pisləyirik. Dünyanın müxtəlif ölkələrində yaşayan həmyaşıdlarımızı, dünyada sülh və əmin-amanlığı təbliğ edən dostlarımızı, sülhpərvər insanları, o cümlədən BMT-ni, Avropa İttifaqını, Avropa Şurasını, ATƏT-in Minsk qrupunu, İslam Əməkdaşlıq Təşkilatını mülki şəxsləri, məsum körpələri, qadın və qocaları hədəf seçən bu cinayətkarların tezliklə cəzalandırılması istiqamətində səylərini birləşdirməyə çağırırıq.

4 iyul tarixində baş verən və 2 yaşlı günahsız Zəhranın ölümünə səbəb olan erməni silahlı birləşmələrinin törətdiyi dəhşətli cinayət faktı uşaq ölümlərinə göz yummayan hər bir dünya insanını ayağa qaldırmalıdır. Bu cinayət bir azərbaycanlı körpə qıza qarşı deyil, bütün bəşəriyyətə, sabahımız olan uşaqlara qarşı yönəlmiş cinayətdir.

Biz – Azərbaycanın gənc dostları, öz həmyaşıdlarımızı, beynəlxalq ictimaiyyəti dinc insanların amansız qətlinə qarşı öz qətiyyətli münasibətini bildirməyə, təcavüz və təxribat hallarını kəskin qınamağa çağırır, bu kimi halların qarşısının alınması, ədalətli sülhün bərqərar olunması naminə öz səslərini ucaltmağa səsləyirik.

Azərbaycanın Gənc Dostları Klubunun üzvləri

7 iyul 2017-ci il

Redaksiyadan

“Azərbaycanın Gənc Dostları Klubu” İctimai Birliyi 2016-cı ilin yayında Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin və Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun birgə təşkilatçılığı ilə keçirilən və 16 ölkədən 50-dən çox tələbənin qatıldığı “Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: milli və dini dəyərlər” adlı III Beynəlxalq multikulturalizm məktəbi layihəsi çərçivəsində Litva Pedaqoji Universitetinin magistrantı Salomeya Lukaite və Yunanıstan Afina Universitetinin tələbəsi Dimitrios Asproulisin təşəbbüsü ilə yaradılıb. İctimai birlikdə Azərbaycan multikulturalizminin ölkəmizə qazandırdığı xarici gənclər və ziyalılardan ibarət dostlar təmsil olunur. Azərbaycansevərləri ətrafına toplayan qurum günügündən əhatə dairəsini genişləndirir. Birliyin üzvləri Azərbaycanın multikulturalizm modeli, mədəniyyəti, tarixi – bütövlükdə haqq işinin dəstəklənməsi və Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində yeni töhfələr verirlər.

“Mədəniyyətlərarası dialoq dini və mədəni müxtəliflik kontekstində – Azərbaycanda dinlərarası harmoniya”

V Beynəlxalq multikulturalizm yay məktəbi

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradıldığı üç ildən artıq müddətdə Azərbaycan multikulturalizminin dünyada tanıdılması, beynəlxalq arenada təbliği və təşviqi ilə bağlı layihələr gerçəkləşdirir.

Mərkəzin önəmli layihələrindən biri də artıq ənənəyə çevrilmiş, mütəmadi olaraq təşkil edilən beynəlxalq multikulturalizm qış və yay məktəbləridir.

24-30 iyul 2017-ci il tarixində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, UNESCO, “Erasmus+”, “ALADDİN layihəsi” və Azərbaycanın Gənc Dostları Klubunun təşkilatçılığı ilə V Beynəlxalq multikulturalizm yay məktəbi fəaliyyətə başlayıb.

Beynəlxalq multikulturalizm qış və yay məktəbləri layihəsi BBMM-in “Azərbaycan multikulturalizmi fənninin xaricdə və ölkə universitetlərində tədrisi” layihəsinin məntiqi davamıdır. Tədris layihəsi çərçivəsində hazırda dünyanın 15, Azərbaycanın 38 nüfuzlu ali təhsil ocağında Azərbaycan multikulturalizmini öyrənən tələbələr üçün təşkil olunan qış və yay məktəblərinin məqsədi həmin gənclərin nəzəri şəkildə öyrəndiklərini multikultural və tolerant dəyərlərin qorunub yaşandığı ölkəmizdə öz gözləri ilə görüb şahid olmasına şərait yaratmaqdır.

V Beynəlxalq multikulturalizm yay məktəbində Azərbaycan, Almaniya, İsveçrə, Estoniya, Litva, Bolqarıstan, Türkiyə, Əfqanıstan, Avstraliya, ABŞ, Rusiya, Ukrayna, Norveç, Benin, Tunis, Misir, İsrail, Polşa, Böyük Britaniya, Fransa, Liviya, Braziliya, Çin kimi ölkələrin aparıcı universitetlərindən 60-dan artıq tələbə iştirak edib. Yay məktəbinin fəaliyyəti Bakı şəhəri ilə yanaşı, Şəki, İsmayıllı, Qəbələ və Qax rayonlarını əhatə edib. İştirakçıların Azərbaycanda yaşayan müxtəlif dini və etnik icmaların rəhbərləri, görkəmli dövlət və din xadimləri ilə görüşləri baş tutub.

Yerli alimlərlə yanaşı xarici mütəxəssislər də yay məktəbinin iştirakçılarına Azərbaycandakı multikultural durum, tolerant əhvali-ruhiyyə, etnik-dini müxtəliflik, ölkəmizdə müxtəlif xalqların nümayəndələrinin, fərqli konfessiyaların dinc yanaşı yaşaması haqqında mühazirələr oxuyublar. Tələbələrin Fəxri xiyabana, Şəhidlər xiyabanına, Qobustana, Atəşgaha, İçərişəhərə, Nic, Lahıc qəsəbələrinə, Şəkidəki Xan Sarayı kompleksinə, Qəbələdəki Tufandağ yay-qış turizm istirahət kompleksinə səfərləri olub.

Artıq ənənəyə çevrilmiş multikulturalizm yay və qış məktəbləri nəticəsində Azərbaycanın gənc dostlarının və onların yaxın çevrəsinin timsalında xaricdə ölkəmizin haqq işini dəstəkləyən intellektual gənclərdən ibarət ünsiyyət platforması və güclü lobbisi formalaşıb. İntensiv şəkildə davam edən bu proses sübut edir ki, Prezident İlham Əliyevin Azərbaycanın dünyada tanıdılması istiqamətində müəyyənləşdirdiyi hədəflər uğurla reallaşmaqdadır.

***

Prezident İlham Əliyevin tövsiyəsi ilə BBMM, UNESCO, “Erasmus+”, “ALADDİN layihəsi” və Azərbaycanın Gənc Dostları Klubunun birgə təşkilatçılığı ilə keçirilən

"Mədəniyyətlərarası dialoq dini və mədəni müxtəliflik kontekstində – Azərbaycanda dinlərarası harmoniya" adlı V Beynəlxalq multikulturalizm yay məktəbinin iştirakçıları iyulun 24-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir Azərbaycanın memarı Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə tər güllər düzüblər.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.



V Beynəlxalq multikulturalizm yay məktəbinin iştirakçıları Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edir

Sonra Şəhidlər xiyabanına gələn qonaqlar ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, məzarları üzərinə tər güllər düzüblər.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verilib.

***

Yay məktəbi çərçivəsində iyulun 25-i günün birinci yarısında BBMM-in aparıcı məsləhətçisi İrina Kuninanın "Azərbaycanda etnik müxtəliflik" mövzusunda mühazirəsi dinlənilib.

Mühazirəçi ilk olaraq auditoriyaya "Siz multikulturalizmi necə başa düşürsünüz" sualı ilə müraciət edib. Tələbələr multikulturalizmin müxtəlif milli və dini baxışları daşıyan insanların sülh və əmin-amanlıq şəraitində birgə yaşaması olduğunu bildiriblər.

Sonra Azərbaycanın multikultural durumunu və etnik mənzərəsini əks etdirən film nümayiş olunub.

İrina Kunina bildirib ki, Azərbaycan polietnik dövlətdir. Ölkənin etno-mədəni mənzərəsini yaradan çoxlu sayda faktor mövcuddur. Azərbaycanda yaşayan milli azlıqlar, etnik qrup və xalqlar – udinlər, ingiloylar, yəhudilər, tatlar, talışlar, ləzgilər və başqa azsaylı xalqlar tarixən burada formalaşıblar və Azərbaycan türkləri ilə birlikdə vahid polietnik Azərbaycan xalqını təşkil edirlər.

Multikulturalizmin Azərbaycan modeli ilə Kanada, ABŞ, Avstraliya və digər ölkələrin modelləri arasında müqayisə aparan, bu modellərin oxşar və fərqli cəhətlərini nəzərə çarpdıran İrina Kunina azərbaycançılıq ideologiyasında digər etnik qrup və dini

konvensiyalara hörmətin xüsusi yer tutduğunu vurğulayıb. Bildirib ki, məhz bu səbəbdən də ayrı-ayrı dövrlərdə müxtəlif etnik qrup nümayəndələrinin kompakt şəkildə Azərbayca-Azərbaycana gəlməsi və burada məskunlaşması heç bir problem yaratmayıb. Fərqli din və dil daşıyıcıları olan malakan, yəhudi və digər etnik qrupların Azərbaycanda əsrlər boyu birgə yaşaması, ötən müddətdə aralarında hər hansı bir qarşıdurma faktının qeydə alınmaması Azərbaycan multikulturalizminin pozitiv mahiyyətini xarakterizə edir.

Sonra ABŞ-ın Florida Beynəlxalq Universitetinin professoru Tudor Parfittin "Yaxın Şərqdə Yəhudilik və İslam: tolerantlıq, müxtəliflik və müasirlik" mövzusunda mühazirəsi dinlənilib.

İslam və yəhudi dinlərində olan müqəddəs mətnlər barədə tarixi faktlara əsaslanan məlumatlar verən mühaziraçi bu dinlər arasında əsrlər boyu mövcud olan problemlərə diqqət çəkib və bunu daha çox dialoqun olmaması ilə əlaqələndirib. Professor bu problemlərin həlli kimi müxtəlif səviyyələrdə və formatlarda açıq müzakirələrin, dialoqun həyata keçirilməsinin vacibliyini önə çəkib.

Mühazirələrdən sonra iştirakçıları maraqlandıran suallar ətrafında geniş müzakirələr aparılıb.



V Beynəlxalq multikulturalizm yay məktəbinin iştirakçıları üçün təşkil edilmiş "Azərbaycanda etnik müxtəliflik" mövzusunda mühazirə. Çıxış edir Bakı Beynəlxalq Multikulturalizm Məktəbinin aparıcı məsləhətçisi İrina Kunina

***

V Beynəlxalq multikulturalizm yay məktəbinin iştirakçıları iyulun 25-i günün ikinci yarısında Qax rayonuna səfər edib, rayonun tarixi məkanları ilə tanış olub, görməli yerlərini gəziblər.

İlisu kəndində yerləşən və inşa tarixi XVII-XVIII əsrlərə aid edilən Sumuq qala müdafiə qülləsi ilə tanışlıq yay məktəbi üzvlərinin marağına səbəb olub. İştirakçıların diqqətinə çatdırılıb ki, Qax rayonu Azərbaycanın inkişaf etmiş turizm bölgələrindəndir. Rayon ərazisində orijinal xüsusiyyətlərə malik qədim tarixi-memarlıq abidələri çoxdur. Belə abidələrdən biri də Sumuq qaladır. Qalanın inşa tarixi İlisu Sultanlığının inkişaf etdiyi, çiçəkləndiyi dövrə düşür. Sümük kimi möhkəm olduğu üçün müdafiə qülləsini Sumuq qala adlandırıblar. Qala rayona gələn yerli və xarici turistlərin ən çox üz tutduqları tarixi məkanlardan biridir. Sumuq qala tarixi-memarlıq abidəsi dövlət tərəfindən qorunur.

Yay məktəbinin iştirakçıları qalanın sonuncu mərtəbəsinin pəncərələrindən qədim İlisu kəndinin təbiət gözəlliklərini seyr edib, xatirə şəkilləri çəkdiriblər.

Daha sonra Qax şəhərindəki Cümə məscidi ziyarət olunub, şəhərin görməli yerlərinə gəzinti təşkil edilib.



V Beynəlxalq multikulturalizm yay məktəbinin iştirakçıları Qaxda Sumuq qalada

***

V Beynəlxalq multikulturalizm yay məktəbi iyulun 26-da Qaxda öz işini davam etdirib.

Yay məktəbinin üçüncü günü Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici əlaqələr şöbəsinin müdiri Nicat Məmmədlinin "Azərbaycanda dini müxtəliflik", ABŞ Merrimack kollecinin professoru Jozef Merinin "Yaxın Şərq yəhudiləri, xristianları və müsəlmanlarının avtobioqrafik əsərlərində müqəddəs və dünyəvi elementlər" mövzularında mühazirələri dinlənilib.



V Beynəlxalq multikulturalizm yay məktəbinin iştirakçıları üçün təşkil edilmiş "Azərbaycanda etnik müxtəliflik" mövzusunda mühazirə. Çıxış edir Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici əlaqələr şöbəsinin müdiri Nicat Məmmədli

Nicat Məmmədli mühazirəsində ölkəmizdə müxtəlif dini etiqadların qədim zamanlardan bəri təşəkkül tapdığını diqqətə çatdırıb: "Azərbaycan ərazisində dini təsəvvür və əqidələr ən qədim zamanlardan mövcuddur. Qədim azərbaycanlılar arasında əcdadların ruhlarına, qayalara, ağaclara, müxtəlif təbiət hadisələrinə, xüsusən də səma cisimlərinə pərəstiş güclü olub. Novruz bayramı ilə günümüzədək gəlib çatan od ayin və

mərasimləri Azərbaycanda atəşpərəstliyin güclü ənənələri olduğunu göstərir. Atəşpərəstlərin məbədi Atəşgah adlanır. Atropatenanın dini mərkəzi Azərbaycan ərazisində Qazaxda yerləşib, Bakı, Şamaxı, Salyan və Lənkəranda isə atəşgahlar olub".

Bildirilib ki, Suraxanıdakı Atəşgah Hindistandan gələn atəşpərəstlərə xidmət üçün XVIII əsrdə tikilib. Qafqaz Albaniyasında atəşpərəstlik xristianlıq tərəfindən təqibə məruz qalsa da, mövcudluğunu qoruyub saxlaya bilib.

Diqqətə çatdırılıb ki, Azərbaycanda geniş yayılmış dinlərdən biri də zərdüştilik olub. Zərdüştilik vəhy dinlərinin ən qədimi hesab olunur. Antik yunan və orta əsr müsəlman tarixçiləri, həmçinin bir çox sonrakı tədqiqatçılar Azərbaycanı zərdüştiliyin vətəni hesab edirlər.

***

V Beynəlxalq multikulturalizm yay məktəbinin iştirakçıları iyulun 26-sı günün ikinci yarısında Şəkiyə səfər edib, rayonun tarixi məkanları ilə tanış olub, görməli yerlərini gəziblər.

Yay məktəbi iştirakçılarının bu qədim diyarla ilk tanışlığı Azərbaycan memarlığının şah əsərlərindən olan Şəki xan sarayını ziyarətlə başlayıb. Qonaqların diqqətinə çatdırılıb ki, Şərq memarlığının nadir incisi hesab olunan, XVIII əsrə aid dünya əhəmiyyətli tarix-memarlıq abidəsi sayılan bu saray xalqımıza xas yüksək mədəniyyətin, böyük inkişaf yolu keçmiş xalq tətbiqi sənətinin nümunəsidir. Sonra qonaqlar sarayın yerləşdiyi "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisini gəziblər. Qonaqların diqqətinə çatdırılıb ki, qoruq Şəkiyə gələn yerli və xarici turistlərin ən çox üz tutduqları tarixi məkanlardan biridir.

Yay məktəbinin iştirakçıları sonra qoruğun ərazisində yerləşən və inşa tarixi XVIII əsrin sonlarına aid edilən "Yuxarı Karvansaray" kompleksi ilə tanış olublar. Məlumat verilib ki, Şərq memarlığı üslubunda tikilən bu kompleks üç yüzədək otaq və zirzəmidən ibarətdir. XVIII-XIX əsrlərdə Yaxın və Orta Şərq ölkələrindən gələn turistlər əsasən bu karvansarada qalır, ticarətlə məşğul olurdular. Hazırda bu abidə mehmanxana kimi fəaliyyət göstərir.



V Beynəlxalq multikulturalizm yay məktəbi iştirakçılarının
Şəki xan sarayının önündə xatirə şəkli

Şəkiyə səfərləri çərçivəsində yay məktəbinin iştirakçıları Kiş kəndindəki qədim alban məbədini də ziyarət ediblər. Bildirilib ki, məbəd miladın I əsrində Qafqaz Albaniyasında geniş yayılan Ay məbədinin özülü üzərində qurulub. Əhəngdaşdan tikilən

bu abidə erkən orta əsrlərdə yaranmış ilk günbəzli, zal tipli məbəddir. 2001-2003-cü illərdə məbəddə Azərbaycan–Norveç birgə layihəsi üzrə bərpa işləri aparılıb. Layihə məşhur Norveç alimi Tur Heyerdalın dəstəyi ilə həyata keçirilib. Alimin xatirəsini əbədiləşdirmək məqsədilə məbədin yanında onun büstü də qoyulub. Məbəd tarixi-memarlıq abidəsi kimi dövlət tərəfindən qorunur.

Məbədin içərisindəki Yaloylutəpə mədəniyyətinə aid nümunələr, orta tunc-antik dövrə aid saxsı qablar, həyatindəki ilkin orta əsrlərə məxsus sərdabələr qonaqların böyük marağına səbəb olub.

*****

Yay məktəbinin dördüncü günü Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər üzrə şöbəsinin baş məsləhətçisi professor Etibar Nəcəfovun "Azərbaycan Respublikasının multikulturalizm siyasətinin onun xarici siyasətinə təsiri" mövzusunda mühazirəsi dinlənilib.

Etibar Nəcəfov bildirib ki, Azərbaycan Respublikası multikulturalizmi dövlət siyasəti kimi qəbul edən nadir dövlətlərdəndir. Ölkəmizdə multikulturalizm siyasətinin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndərin siyasi hakimiyyətə qayıdışı ölkədə olan tarixi tolerantlıq ənənələrinin qorunması və inkişafı üçün real şərait yaradıb. Mühazirədə vurğulanıb ki, multikulturalizm Azərbaycan Respublikasının daxili siyasətinin mühüm istiqaməti kimi ölkənin xarici siyasət fəaliyyətinə də müsbət təsir göstərir: "Multikulturalizm Azərbaycan Respublikasının uğurlu xarici siyasətinin mühüm amili kimi çıxış edir. Bu, özünü ilk növbədə ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasında göstərir. Azərbaycanın multikulturalizm siyasəti sahəsində əldə etdiyi uğurlar dünya ölkələri tərəfindən etiraf olunur. Ölkənin uğurlu xarici siyasəti isə öz növbəsində onun daxili siyasətinin tərkib hissəsi olan multikulturalizm siyasətinə müsbət təsir göstərir, bunun daha da davamlı olmasına şərait yaradır".

Daha sonra mühaziraçi iştirakçıların mövzu ilə bağlı suallarını cavablandırıb.



V Beynəlxalq multikulturalizm yay məktəbinin iştirakçıları üçün təşkil edilmiş "Azərbaycan Respublikasının multikulturalizm siyasətinin onun xarici siyasətinə təsiri" mövzusunda mühazirə. Çıxış edir Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər üzrə şöbəsinin baş məsləhətçisi professor Etibar Nəcəfov

*****

V Beynəlxalq multikulturalizm yay məktəbinin iştirakçıları iyulun 27-də tanışlıq məqsədilə Qəbələ rayonuna səfər ediblər. Qonaqlar əvvəlcə Nic qəsəbəsindəki "Cotari" Alban-Udi kilsəsinə baxıblar. Onlara məlumat verilib ki, kilsə tarixi baxımdan qədim və əhəmiyyətli abidələrdən biridir. Nic qəsəbəsi tolerantlığın kiçik bir modeli hesab edilir. Qəsəbədə üç kilsə, iki məscid var. Altı min əhalisi olan qəsəbədə 3700 udi yaşayır. Nic qəsəbəsində udilər öz dilini, dinini, adət-ənənələrini 2500 ildir qoruyub saxlayırlar. Qəsəbədəki məktəblərin ibtidai siniflərində udi dili tədris olunur.

Sonra tələbələr "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi ilə tanış olublar. Qonaqlara məlumat verilib ki, kompleksin 4 kanat xəttinin və 10 xizək yolunun hamısında tikinti işləri başa çatdırılıb. Qonaqlar kanat yolu ilə dağların zirvəsinə qalxaraq oradan Qəbələ şəhərini, ətrafdakı çayları, meşələri, gözəl mənzərəni seyr edib, xatirə şəkli çəkdiriblər.

Yay məktəbinin iştirakçılarına Qəbələ ilə tanışlıq zamanı rayonun qədim tarixi, müasirliyi, yerli əhalinin məşğuliyyəti, sosial-iqtisadi inkişafı istiqamətində görülən işlər, uğurlar barədə məlumat verilib. Bildirilib ki, 2500 yaşı olan qədim Qəbələ şəhəri 900 il Qafqaz Albaniyasının paytaxtı olub.



V Beynəlxalq multikulturalizm yay məktəbinin iştirakçıları Qəbələ rayonunun Nic qəsəbəsində "Cotari" Alban-Udi kilsəsini ziyarət edir

*****

V Beynəlxalq multikulturalizm yay məktəbinin iştirakçıları iyulun 28-də İsmayıllı rayonunun Lahıc qəsəbəsinə gediblər. Qonaqlara Lahıcın tarixi, mədəniyyət abidələri, turizm potensialı barədə ətraflı məlumat verilib. Bildirilib ki, yüksək dağlıq ərazidə yerləşən Lahıc qəsəbəsi qədim şəhərsalma və memarlıq sənətinin orijinal abidəsidir. Bu orta əsrlər yaşayış məskəni Qafqazda ən məşhur sənətkarlıq-ticarət mərkəzlərindən biri olub. Tarix-diyarşünaslıq muzeyində yay məktəbinin iştirakçılarına məlumat verilib ki, Lahıc XVIII-XIX əsrlərdə də Azərbaycanın misgərlik və silah istehsalı mərkəzlərindən olub. Lahıc ustalarının misdən hazırladıqları, mürəkkəb və incə naxışlarla bəzədikləri dolça, sərnic, güyüm, aşsüzən, kəfkir, kasa, cam, qazan, çıraq və digər məişət əşyaları dünyanın müxtəlif ölkələrində ən məşhur muzeyləri və şəxsi kolleksiyaları bəzəyir.



V Beynəlxalq multikulturalizm yay məktəbinin iştirakçıları İsmayıllı rayonunun tarix-diyarşünaslıq muzeyində

***

V Beynəlxalq multikulturalizm yay məktəbi çərçivəsində iyulun 29-da İsrailin Təl-Əviv Universitetinin professoru Daniel Zisenvinenin "İnterkultural əlaqələrin öyrənilməsi: yəhudilər və ərəblər Şimali Afrikada" mövzusunda mühazirəsi dinlənilib.

Mühazirəçi islam və yəhudi dinlərinin müqəddəs mətnləri barədə tarixi faktlara əsaslanan məlumatlar verib, bu dinlər arasında əsrlər boyu mövcud olan problemlərə diqqət çəkib və bu problemləri dinlərarası dialoqun olmaması ilə əlaqələndirib. Professor bu problemlərin həlli kimi müxtəlif səviyyələrdə və formatlarda açıq müzakirələrin, dialoqun həyata keçirilməsinin vacibliyini önə çəkib.

Sonra iştirakçıları maraqlandıran suallar ətrafında müzakirələr aparılıb.



V Beynəlxalq multikulturalizm yay məktəbinin iştirakçıları üçün təşkil edilmiş "İnterkultural əlaqələrin öyrənilməsi: yəhudilər və ərəblər Şimali Afrikada" mövzusunda mühazirə. Çıxış edir İsrailin Təl-Əviv Universitetinin professoru Daniel Zisenvine

***

Həmin gün yay məktəbinin iştirakçıları Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində olublar. Komitənin sədri Mübariz Qurbanlı Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin və digər qurumların təşəbbüsü ilə Azərbaycanda xarici ölkələrdən dəvət olunan gənclərin yay və qış məktəblərinin təşkil edildiyini xatırladaraq, Prezident İlham Əliyevin tövsiyəsi ilə həyata keçirilən bu layihənin əhəmiyyətindən danışıb. O, yay məktəbinin iştirakçılarına DQİDK-nın fəaliyyəti barədə ətraflı məlumat verib.

Mübariz Qurbanlı iştirakçıların çoxsaylı suallarını cavablandırıb. O, ölkəmizdə hökm sürən tolerantlıq mühiti, xalqımıza məxsus multikultural dəyərlər, ayrı-ayrı dinlər və konfessiyalar arasında qarşılıqlı hörmət və etimada əsaslanan münasibətlərdən söhbət açıb.

Komitə sədri görüş iştirakçılarına Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında da ətraflı məlumat verərək bildirib ki, Azərbaycan Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalıb, ərazimizin 20 faizi işğal edilib, 1 milyondan çox azərbaycanlı öz yurd-yuvasından didərgin salınıb.



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinini sədri Mübariz Qurbanlının V Beynəlxalq multikulturalizm yay məktəbinin iştirakçıları ilə görüşü

***

İyulun 29-da Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri akademik Kamal Abdullayev V Beynəlxalq multikulturalizm yay məktəbinin iştirakçıları ilə görüşüb. O, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması baxımından yay məktəbinin əhəmiyyətindən danışıb. Bildirib ki, beynəlxalq multikulturalizm qış və yay məktəbləri layihəsi BBMM-in "Azərbaycan multikulturalizmi fənninin xaricdə və ölkə universitetlərində tədrisi" layihəsinin davamıdır. Tədris layihəsi çərçivəsində hazırda dünyanın 15, Azərbaycanın 38 nüfuzlu ali təhsil ocağında tələbələr üçün qış və yay məktəbləri təşkil olunub. Əsas məqsəd həmin gənclərin nəzəri şəkildə öyrəndiklərini multikultural və tolerant dəyərlərin qorunub yaşandığı ölkəmizdə öz gözləri ilə görüb şahid olmalarına şərait yaratmaqdır. Kamal Abdullayev vurğulayıb ki, Prezident İlham Əliyevin sərəncamı ilə ötən ilin ölkəmizdə "Multikulturalizm İli" elan edilməsi və həmin ilin fonunda görülən bütün işlər Azərbaycan multikulturalizminin dünyada təbliği və təşviqi istiqamətində bir-birini tamamlayan, sistemli hərəkata çevrilən

siyasi iradənin tərkib hissəsidir. Azərbaycanın son dərəcə tolerant, multikultural dəyərlərlə yaşayan bir ölkə olduğunu deyən akademik diqqətə çatdırıb ki, bu ənənənin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Prezident İlham Əliyev isə Azərbaycan multikulturalizminin perspektivlərini göstərdi, bugünkü vəziyyətini bir daha təsbit etdi. Azərbaycan hökumətinin sistemli şəkildə həyata keçirdiyi və dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirdiyi multikulturalizm siyasəti nəticəsində qazanılan uğurlar ölkəmizin dünyada multikultural dövlət imici əldə etmiş mərkəz kimi tanınmasına, bir çox dünya dövlətlərinə, o cümlədən Avropaya örnək olmasına zəmin yaradıb. İştirakçıları Azərbaycanın inkişaf tarixi, o cümlədən Dağlıq Qarabağ münaqişəsi barədə məlumatlandıran Kamal Abdullayev onların Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında əllərindən gələni edəcəklərinə əminliyini bildirib.

Sonda akademik yay məktəbi iştirakçılarını maraqlandıran sualları cavablandırıb.



Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri akademik Kamal Abdullayevin V Beynəlxalq multikulturalizm yay məktəbinin iştirakçıları ilə görüşü

***

"Mədəniyyətlərarası dialoq dini və mədəni müxtəliflik kontekstində – Azərbaycanda dinlərarası harmoniya" adlı V Beynəlxalq multikulturalizm yay məktəbinə uğurla yekun vurulub.

İyulun 30-da Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində bununla bağlı mətbuat konfransı keçirilib.

BBMM-in Himayəçilik Şurasının sədri akademik Kamal Abdullayev mətbuat konfransında bildirib ki, Prezident İlham Əliyevin tövsiyəsi, BBMM, UNESCO, "Erasmus+", "ALADDİN layihəsi" və Azərbaycanın Gənc Dostları Klubunun birgə təşkilatçılığı ilə keçirilən V Beynəlxalq multikulturalizm yay məktəbində 26 ölkənin aparıcı universitetlərinin 60-a yaxın tələbəsi iştirak edib. Onlar Azərbaycandakı tolerant, multikultural əhvali-ruhiyyə ilə yaxından tanış olub, həm ölkəmizdə, həm də dünyada baş verən ictimai, siyasi, mədəni proseslər barədə fikir mübadilələri aparıblar.

Kamal Abdullayev diqqətə çatdırıb ki, ölkəmizlə yaxından tanış olan yay məktəbinin iştirakçıları Azərbaycanın Gənc Dostları Klubunun üzvləri olurlar. Biz onlara Azərbaycan həqiqətlərini çatdırırıq. Onlar da öz ölkələrində bu həqiqətləri yayırlar. Bu klub hazırda dünyada bir sıra siyasi-ictimai proseslərdə fəal iştirak edir. Beynəlxalq miqyasda ölkəmizə olan münasibətin tənzimlənməsində Azərbaycanın Gənc Dostları Klubunun özünəməxsus rolu var.

UNESCO baş direktorunun xüsusi məsləhətçisi Abe Radkin mətbuat konfransında çıxış edərək yay və qış məktəblərinin əhəmiyyətini qeyd edib. O, Azərbaycan multikulturalizminin dünya ölkələri üçün örnək olduğunu vurğulayıb. Xüsusi məsləhətçi Azərbaycanda mövcud olan multikultural, tolerant dəyərlərin digər dövlətlərdə də təbliğ olunmasına ehtiyac olduğunu vurğulayıb.

Abe Radkin yay məktəbinin uğurla başa çatdığını bildirib, bu önəmli layihənin gələcəkdə də davam etdiriləcəyinə inamını ifadə edib.



"Mədəniyyətlərarası dialoq dini və mədəni müxtəliflik kontekstində – Azərbaycanda dinlərarası harmoniya" adlı V Beynəlxalq multikulturalizm yay məktəbinin yekununa dair mətbuat konfransı. Çıxış edir Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri akademik Kamal Abdullayev

V Beynəlxalq multikulturalizm yay məktəbinin iştirakçılarının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciəti

Zati-aliləri, cənab Prezident!

Biz, Azərbaycanda keçirilən V Beynəlxalq multikulturalizm yay məktəbinin dünyanın müxtəlif ölkələrindən olan iştirakçıları 22-30 iyul 2017-ci il tarixlərində bir araya gəldik.

Sizin sərəncamlarınız əsasında 2016-cı il Azərbaycanda "Multikulturalizm İli", 2017-ci il isə "İslam Həmrəyliyi İli" elan edilmişdir. Bu, bir daha aydın şəkildə göstərir ki, Azərbaycanda müxtəlif irqi, etnik, dini və mədəni mənsubiyyətə malik insanlar arasında ayrı-seçkiliyə yer yoxdur. Beynəlxalq multikulturalizm yay məktəbinin iştirakçıları ilə birlikdə qatıldığımız tədbirlər və gəzdiyimiz müxtəlif yerlər Azərbaycan haqqında multikulturalizm və tolerantlıq məkanı kimi eşitdiklərimizin sübutu oldu.

Biz, 26 ölkənin vətəndaşları, bu yay məktəbinə multikulturalizmin Azərbaycan modeli, bu ölkədəki tolerantlıq mühiti və bu istiqamətdə həyata keçirilən uğurlu dövlət siyasəti haqqında öz fikir və təəssüratlarımızı paylaşmaq üçün qoşulduq.

Hörmətli cənab Prezident!

Azərbaycan, onun zəngin tarixi və mədəniyyəti haqqında doğru məlumatları yaymaq sahəsində fəaliyyətimizi davam etdirmək ruhunda və əzmində olduğumuzu Sizə bildirmək istərdik.

Fürsətdən istifadə edərək Siz Zati-alilərinə dərin hörmətimizi bildiririk.

REGİON

"Multikulturalizm" təqdim edir:
TƏBRİZDƏN GƏLƏN SƏSLƏR

Arazdan keçən poeziya karvanı *(İlham Qəhrəman)* 100

Bəxtiyar MUĞANOĞLU

DARIXACAM 102
HABİL 103
KƏLBƏCƏR 103

Elmira KƏRİMİ

BİZDƏN SONRA DÜNYA NECƏ OLACAQ? 105
TANRI BOYU SEVGİ 106

Rəsul QƏDİRİ

ACI ƏFSANƏ 108
BURASI ORTADOĞU 109
UDUZDU TANRI 110

Məhəmmədrza LƏVAYİ

SƏKKİZ MİLYARD NƏFƏR OLDU SEVGİ 111
PAYIZ 112
QUYU 112
HANI SƏNƏ VURULDUĞUM DƏHŞƏT 112

Şərifə CƏFƏRİ

AYRILIQ 114
HƏPSİ ALLAHIN İŞİDİR 115
VAR-YOX BU DÜNYADA BİR UMUDUM VAR 116

Duman ƏRDƏM

AĞACLARIN ŞÜURALTINDA SINIQ-SINIQ AYNALAR VAR 117
QADIN SƏSİ ÇİÇƏK AÇIR 118
ATA BİZ OĞULLARINI TOPLADI 118

Çalğın MƏHƏMMƏD

İSTEFA 119
BAKI 119
CULFADAN BAŞ ALDIM ARAZ YENİŞƏ 121
MƏN ÖLƏNDƏ 121

Aydın ARAZ

YALNIZLIQ 123
RƏSSAMIN ÇƏKDİYİ HƏSRƏT 124
VİVALDİNİN "DÖRD FƏSİL" ƏSƏRİNƏ 125

Arəş SAİ
GÖZLƏRİN 126
ANA 127

Arəş ƏHMƏDİ
SƏNDƏN SONRA 129
"Sən Təbrizdə darıxırsan..." 129
"Dönsən əyər bir gün..." 129
"Gözlərin payızdır..." 130
"Yaz..." 130

Bulud MURADİ
LEYLİM LEY 131
YALNIZ SƏNƏ İZİN VAR 131
EŞQ 132
SAAT BEŞ AXŞAMDA 132

Rəna ZARE
ŞAHGÖLÜDƏ QAR YAĞIR 133
"Əllərim cibimdə..." 134
"Bal kimi daddım ürək qırılmağı..." 134
"Türkcəyə çevirəcəyəm bütün dərdlərimi..." 135

DİNMƏZ
GƏLMƏ GECƏ 136
"Gözünüzə görünən..." 137
"İstanbulda..." 137
"Bakıdayam..." 137
QARANLIQ 138

Məsum CABBARPUR
SİL ORTAQ DİLİMİZİ YAZILARDAN 139
"Nə deyirdim?!..." 141

Rəsul İSMAİLİAN
"Doldurub içimi lal darıxmalar..." 143
"Salam, doğum günü, salam, qardaşım..." 144
"Gövdəsiz kölgəyə dönmüşəm indi..." 145

Susən NƏVADEYE RƏZİ
BİZİM ÜRƏK 146
ƏBƏDİYYƏTDƏ VƏTƏNİN ADI NƏDİR? 146
VER XƏYALININ QANADINI 147

Xosrov BARIŞAN
SƏN GETDİN 149
GECƏNİN DALINDA DURMA, GƏL 149



İranın Şərqi Azərbaycan ostanının Qaradağ vilayətində yerləşən Bəzz qalası. VIII əsr



Təbriz şəhərində yerləşən tarixi memarlıq abidəsi – Göy məscid. XV əsr



Təbriz şəhərindəki Ərk qalası. XIV əsr



Ərdəbil şəhərində yerləşən Şeyx Səfi məqbərəsi. XVI–XVII əsrlər

Arazdan keçən poeziya karvanı

Ötən əsrin Azərbaycan poeziyasında aparıcı yer tutan mövzulardan söz düşsə, şübhəsiz, o dövrü görmüş sadə oxucunun da ağlına cənub mövzusu birincilər sırasında gələr. Tanınmış şairlərimizin çoxu bu həsrət dolu mövzudan yan keçməyib, Süleyman Rüstəm, Məmməd Rahim, Bəxtiyar Vahabzadə, Məmməd Araz, Eldar Baxış, Sabir Rüstəmxanlı... kimi qələm adamlarımızın yaradıcılığında cənub mövzusu hər zaman aparıcı yerlərdən birini tutub.

Bu o dövr idi ki, Arazın o tayında yaşayan soydaşlarımızdan çox az məlumatımız vardı, babalarımızın bir vaxtlar karvanlar sürdüyü yollar, ellərin üstündən keçib dağa-arana getdiyi Xudafərin körpüsü üzümüzə bağlı idi. Şairlər ayrılıq acısını, həsrət hüznünü vətənimizi ikiyə bölmüş Araz çayına, tikanlı məftillərə xitabən nəzmə düzürdülər. SSRİ adlı imperiyanın sərhəd dirəkləri aramızda göz dağı kimi dayanıb ikiyə bölünmüş xalqın dərdinə keşik çəkirdi. Amma qadağalara baxmayaraq, ictimai statusuna, fəxri adlarına güvənən bəzi şair və yazıçılarımız hərdən o tayda yaşayıb-yaradan qələm adamları ilə məktublaşırdılar. Bu məktublar da əsasən ədəbi mətnlərdən – şeirlərdən ibarət olurdu. Belə təəssübkeş ədiblərimizin sayəsində ara-sıra İran İslam Respublikasında yaşayan qələm adamlarının Bakıda kitabları da nəşr olunurdu. Məsələn, farsca yazmış İran azərbaycanlısı Səməd Behrənginin dünyaca məşhur "Balaca qara balıq" kitabı hələ ötən əsrin 70-ci illərində çap olunub balaca oxucuların ixtiyarına verilmişdi. Şəhriyarın məşhur "Heydərbabaya salam" kitabı, Mirzə İbrahimovun tərtib etdiyi üçcildlik "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası" da Azərbaycan oxucularının yaxşı yadındadır.

Allaha şükürlər olsun ki, bu gün İran İslam Respublikasıyla aramızda yollar açıqdır, sərbəst gediş-gəliş var. Sələflərimizin on illər boyu çəkdiyi Araz, Təbriz həsrəti, tikanlı məftillər aradan qalxıb. Arazın o tay-bu tayında yaşayan azərbaycanlı şairlərin, aşıqların, bütövlükdə mədəniyyət, incəsənət adamlarının bir-biriylə ünsiyyət saxlaması, yaradıcılıq mübadiləsi aparması üçün geniş imkanlar yaranıb.

Bu imkandan tez-tez yararlanan qələm əhlinin sırasında bəndənizin də yeri var. Bir neçə ildir ki, mən İran ərazisində, ələlxüsus Təbriz və ona yaxın bölgələrdə yaşayıb-yaradan azərbaycandilli şairlərin yaradıcılığını yaxından izləyirəm. Təbrizdə keçirilən ədəbi əncümənlərdə dəfələrlə iştirak etmişəm, şairlərin ən son şeirlərini onların öz dillərindən eşitmişəm. Belə get-gəllərin sayəsində Bəxtiyar Muğanoğlu, Rəna Zare, Çalğın Məhəmməd, Rəsul İsmailian, Aydın Araz, Dinməz,

Xosrov Barışan, Şərifə Cəfəri, Məhəmmədrza Ləvayi kimi şairlərlə şəxsi tanışlığım, dost münasibətim yaranıb.

Hələ 2008-ci ildə Tehranda olanda kitab mağazalarında Ramiz Rövşənin, Sücaətin, Bəhmən Vətənoğlunun ərəb əlifbasıyla nəşr olunmuş kitablarını görmüşdüm. Sonrakı illərdə bu siyahıya çoxlu başqa adlar da əlavə olundu. O vaxt bundan həvəslənib mən də Bakıda bir qrup cənublu şairin şeirlərindən ibarət "Dəyirmanın alt daşı" adlı kitab çap etdirdim. Bundan sonra o taylı şairlərin bu tayda çap olunmağa marağı bir az da artdı, şeirlərini latın qrafikasına çevirib nəşr etdirdiyim şairlər mənə tanımadığım başqa istedadlı şairləri də nişan verdilər. Bu münvalla xeyli imzanın ölkəmizdə fəaliyyət göstərən qəzet və saytlarda görünməsinə nail oldum.

İran İslam Respublikasında yaşayan soydaşlarımızın Azərbaycan Respublikasında oxucu auditoriyası qazanması onları ana dilində yazmağa, oxumağa ruhlandırır. "Multikulturalizm" jurnalının bu sayında yaradıcılığından nümunələr təqdim edilən cənublu şairlərin bəziləri əvvəl yalnız fars dilində yazıblar, hətta bu dildə kitabı çıxanlar da olub. Anadilli oxucu auditoriyasının son illər genişlənməsi sayəsində onların bir qismi artıq Azərbaycan türkcəsində də yazmağa üstünlük verir.

O taylı-bu taylı azərbaycanlılar arasında gediş-gəliş yolları uzun illər bağlı qalsa da, şairlərimizin, yazıçılarımızın, aşıqlarımızın sayəsində mənəvi bağlarımız üzülmədi. Mirzə İbrahimov, Balaş Azəroğlu, Mədinə Gülgün, Əli Tudə, Söhrab Tahir bir zamanlar Arazın o tayını bu tayına calayan mənəvi körpülərin ağır sütunları idilər. Bu məqamda onları rəhmətlə anmaq borcumuzdur.

İndi, şükürlər olsun, yollar açılıb, ölkələrimiz arasında sərbəst gediş-gəliş var. Bu körpüdən mən də o tay-bu taya gücüm çatan qədər ədəbi yük keçirmişəm. Cənublu şairlərin şeirlərini ərəb əlifbasından latın qrafikasına çevirmişəm, şimaldan olan şair və nasirlərin ədəbi mətnlərini seçib cənublu oxucular üçün nəzərdə tutulan antologiyaya təqdim etmişəm.

Ümidvaram ki, "Multikulturalizm" jurnalında İran İslam Respublikasında yaşayan şairlərin Azərbaycan dilində bədii yaradıcılığından nümunələrə yer verilməsi qələm adamlarımız arasında ədəbi bağları bir az da möhkəmlədəcək.

İlham QƏHRƏMAN

Şair-publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü



Bəxtiyar MUĞANOĞLU
(Parsabad)
1961-2017

DARIXACAM
(Şairin son şeiri)

Dostlar, sizdən ayrı düşdüm,
Sizdən sarı darıxacam.
Şirin-şirin o söhbətdən,
Sözdən sarı darıxacam.

Nəhs taleyim durdu başda,
Dərdə düşdüm mən bu yaşda.
Ömrüm bitdi qarlı qışda,
Yazdan sarı darıxacam.

Gözdən itib əkilməyən,
Çətinlikdə çəkilməyən,
Yad önündə bükülməyən
Dizdən sarı darıxacam.

Var-dövlətim olub talan,
Bu dərdlərdir mənə qalan,
Taleyimi daşa çalan
Qızdan sarı darıxacam.

Muğanoğlu, əzdirdiyim,
Məclislərdə süzdürdüyüm,
Sinəm üstə gəzdirdiyim
Sazdan sarı darıxacam.

HABİL

Diləyir kamanın o dörd simində
Haqdan ellərinə amanı Habil.
Gah zamandan ötüb keçir qabağa,
Gah dala qaytarır zamanı Habil.

Yüz min illik yolu bir anda kəsir,
Hər duyan ürəyi eyləyir əsir.
Sevgililər görüşməyə tələsir
Götürüb çalanda kamanı Habil.

Çaxnaşır, birbəbir gedir fəslimiz,
Yada düşür ötüb keçən nəslimiz.
Kərəmlə vüsala çatır Əslimiz,
Çalır eşq odunda yananı Habil.

Dəniztək kükrəyib çağlayıb daşır,
Yaşıl meşələrdən, dağlardan aşır.
Həsrət qalan el-obanı dolaşır,
Ağlayır el dərdin ananı Habil.

Kim sağaltsın ürəklərin yarasın,
Çal, düşünək ayrılığın çarasın.
Muğanoğlu haçanadək arasın –
Həsrət qala-qala cananı, Habil?

KƏLBƏCƏR

Müdrik babaların miras qoyduğu,
Necoldu qeyrəti, arı, Kəlbəcər?!
Uca dağlarında bayquş banladı,
Çapıldı, talandı varı, Kəlbəcər.

Tapdağı olmusan yağının, yadın,
Külüngünün səsi gəlmir Fərhadın.
Vətəndən didərgin düşmüş övladın
Qan ağladı səndən sarı, Kəlbəcər.

Qaçqına, köçkünə döndü hər kəsin,
İdrisin, Qəmkeşin ucaltmır səsin.
Yaqubun oxumur "Mənsuriyyə"sin,
Susubdur kamanı, tarı, Kəlbəcər.

Sazla haray-həşir salır Ədalət,
Şəmşir yata bilmir məzarda rahət,
Dünyadan həsrətlə köçdü Sücaət,
Bəhməni itirmə barı, Kəlbəcər.

Xocalı talandı, Şuşa da yandı,
Göyçənin fəryadı ərşə dayandı.
Muğanoğlu deyər, ölləm, amandı,
Çağır gəlsin dostu, yarı, Kəlbəcər.



Elmira KƏRİMİ
(Səlmas)
(1984-2017)

BİZDƏN SONRA DÜNYA NECƏ OLACAQ?

Bizdən sonra dünya necə olacaq?
Heç bilmirəm
Günəş hər səhər doğacaq yenidən
Yaşamla dolu hər yer
Bir tək biz
Qaranlıqlar içində
Dərin bir yuxuya gömülüb
Unudulmağa tapşırılacağıq həyatın içində
Düşünürəm hər doğuluşda
Bizi xatırlayacaqmı günəş?!
Biz gedəndə
Varlıq hiss edəcək yoxluğumuzu!
Sərin çay kimi səssiz gedəndə
Buludlar bağıracaqmı?
Tanrı özləyəcəkmi?
Yoxsa unudub
Yoxluğumuzdan intihar edəcəkmi?..
Görəsən Tanrı neçə dəfə intihar edib?
Bir hiss içimdə doğur
Bəlkə indi getməliyik...
Ürəyimdə bir sancı başlayır
Darıxıram
İçimdən bir səs:
Yox! Yox!
Hazır deyiləm
Buraxmalıyıq!!!
Gücüm olmaz

Hər şeyi buraxıb getmək!
İndi getmək zamanı olsa
Necə durdurmaq olar yaşamı
Varlıq həyatla dolu
Necə vida etmək olar
Ağlamağım kəsilmir
Ay... Günəş... özləyəcəm bütün varlığı
Bir daha görə bilməyəcəyim çox şey var
Toxunuram hər bir yerə
Bir anlıq olmalı olsa da
İzi qalsın məndə həyatın
İçimə çəkə-çəkə baxıram
Sanki içimdə qazılır varlıq
Biz bu dünyadan gedəndə
Yoxluq bizi qucaqlayıb
Göməcək əbədiyyətə
Düşünürəm bütün insanlar
Dünyadan gedəndə
Öz dünyasını da gömsələr
Necə olar dünya?
Tanrı necə olar?..

TANRI BOYU SEVGİ

Tanrı boyu sevərsən məni,
Tanrı boyu –
nə qədərdi, görəsən?!
Tanrı böyükmü,
heç kiçik Tanrı varmı?!

***
Biz heç biz olmadıq
Eyni zamanda yaşamağa
Məcbur qalan insanlardandıq.
Hansı mövsümün uşaqlarıyıq biz
Belə yalnız qalıb əllərimiz...

***

Yasaq bir yaşam
Qutsal bir torpaq
Fərq etməz
Haralı olursan ol
Dünya sadəcə
Kişilərin beyinlərində qurulur
O zaman Qadın olmaq
Böyük bir savaş Tanrıyla.

***

Bir az ulduz gətir
Burada gecələr aysız
Günəşdən
bir parça saxladım saçlarımda
Sən
Sevgi gətir
Mən
İşıq olub qaranlıqları aşaram!

***

Ana dilim
Bəlkə atamın olsaydın
Yasaqlanmazdın
Kişilərin dünyasında!



Rəsul QƏDİRİ
(Təbriz)

ACI ƏFSANƏ

Yaradan
insanların hamısını Özü kimi yalnız yaradıb...
Sevgi
uzaqdan görünən bir tablo,
uzaqda çalınan təbil!
Çiyinlərimizdən iki göyərçin uçdu,
göyün şeh beşiyində dimdik-dimdiyə dayandılar.
Külək buludları itələyirdi,
Acımasız ovçu bir gözünü yummuşdu,
ikilüləli tüfənginin dar dəliyindən baxırdı onlara.
Lülələr qaranlıq dalan kimi,
dalanın dibində bir cüt köpək gizlənmişdi.
Barmaq tətik üstündə,
Göyərçinlər gözlərini yummuşdular.
Zaman bir an dayanmışdı...
Ovçu tətiyi çəkdi,
Yırtıcı köpəklərin zəncirini açdı,
Hürmək səsi buludları da diksindirdi,
Lələklər ovçunun başına sovruldu,
Qan yağışı yağdı başımıza,
Sevgi beşiyinə azadlıq qanı damdı,
Ax, ağılsız ağıl, ax!..
Nə qazanırsan sevgi qanına yerikləməkdən,
Sevgi meydanını qanla suvarmaqdan?!
Keşkə heç yetişməyəydik bir-birimizə,
sevgili olaydıq,
sevgili qalaydıq,
heç birimiz bilmədən...
Uydurma eşq acı əfsanədir,
Xoş özlərini tovlaya bilənlərin halına...

BURASI ORTADOĞU

Burası Ortadoğu,
Bitmək bilmir burada ölüm karnavalları,
Körpələr bombalarla əmizdirilir,
Analar mərmilərlə döşlərini doldurur,
Atalar da
güllələrin mahnısı ilə dans edir...
Hiroşima körpələri,
yurdumuzun ortadoğusu Xocalıda,
Naqasaki yeniyetmələri Türkmən dağında[1] quylansaydı,
bizim uşaqlar da məzarlarında qorxmazdılar bəlkə...
Körpələrimiz yalnız,
Analarımız kimsəsiz,
Hindistanda ildə bir gün boyalar karnavalı olar,
İspaniyada pomidor şənliyi vardır,
Ancaq Ortadoğuda gündə bir tarix,
ildə bir ömür,
lalələr bitir üzü qara torpaqlardan,
Artıq heyvanlar da
bir-birlərini alçaldanda,
adam balası adam deyirlər...
Burası Ortadoğu,
Hər gün rulet oynayırlar burada,
Qurşun darağının yalnız bir xanası boşdur,
Göylərində
Boşbeyinli, daşürəkli dəmir quşlar uçur,
Dimdiklərində bomba,
adresləri yanlış,
Tarlalarında güllər yerinə güllələr əkilir,
xanlar suvarır tarlalarını,
çaylarının hamısı Qızılüzəndir,
nəhəng qızılalalar[2] o çaylardan tutulur.
Bütün qara torpaqlarına qırmızı xalçalar döşənməyincə,

[1] *Suriyada türkmənlərin kompakt yaşadığı yer*
[2] *Balıq adı*

karnaval bitməyəcək sanıram...
Burası Ortadoğu,
Ölülər də savaşırlar burada,
Məktəblər bir-birinin üstünə qusur,
Savcılar da acı çəkir bəlkə,
Tanrım,
harada gizlənibsən?
Ya özünü yaratmayaydın, ya da Ortadoğunu,
Bu karnavalın sorumlusu kimdir?..

UDUZDU TANRI

Gizlənqaç oynayırdım Tanrılar ilə,
İlk mən göz yumdum.
Neçə min il saymağa başladım:
Amon Misirdə piramidalarda,
Ares Ortadoğuda,
Apollon Günəşdə gizləndilər.
Zevs buludlarda,
Asteria ulduzların arxasında daldalandılar…
Onirus röyalarında,
Venus könlündə,
Ax! Afrodita da gözlərində gizlənibdi.
Amerikanı hələ tanımırdılar Tanrılar…
Gözlərimi açdım,
Hades hamısını çuğullatdı,
Mən də hamısını köbələdim[1].
Sonra birləşdilər Tanrılar…
Ortadoğuda göz yumdu tək tanrı,
Avropada gizləndilər insanlar,
Afrikada göz qoyduğu zaman
Amerikada daldalandı bəşəriyyət…
Daldaqalan, bu tayda qalan o tayda qalanı sormadan
Bu gizlənqaçı bilməz uduzdu Tanrı.

[1] *Köbələmək – gizlənqaç oyununda oyunçuları tapanın əlini göz yumduğu yerə vurması*



Məhəmmədrza LƏVAYİ
(Xoca)

SƏKKİZ MİLYARD NƏFƏR OLDU SEVGİ

Payız yavaş-yavaş ev qadını olur,
Açır pəncərəni üzümüzə.
Fəsillərini eyvana çıxarıbsan səhər yeməyinə,
Qartal qayğısıdır qaşların dağlara,
Əl atırsan yaxana, məmləkət calanır küçəyə.
Həmin məmləkətdə
Hər gün bir Məhəmmədrza qoparıb sürgün edirlər məndən.
Yapışmır anamın dodağına məmləkət mənsiz
Atamın "Allahu-əkbər"ində kürtaj[1] olan tarixin sancısı var
Adam oğlu, saxsılara şeir əkək deyirsən,
Olmaz, bir az çox xalam evidir ayrılıq.
Saçlarına taxılıb qalır sorunlar, sorular
Hansı gözün tülküsüdür pəncərəndə günəş?!
Hansı köynəyin cırılan vaxtıdır bu soyuq səhər?!
Cümə axşamına dırmaşan möminlərin beyni deyilmi
bu meydan?!
Sənə çarpıb səkkiz milyard nəfər oldu sevgi,
Ölkə-ölkə paylaşır yalnızlığını Yer kürəsi
Dodağından qonur bayraqlara milli qürur!
Ağaclar – sən ola bilməyən qadınlar,
Daşlar – şeirində gəzməyən ərkəklər,
Yollar – insanın insandan qaçış yetənəyi.
Bir şeir yaz, quş olsun sümüklərimiz,
Təqvimlərdə çürüdüyümüz sərhədlərə hayıf!

[1] *Uşaq salmaq (anabətnindən)*

PAYIZ

Sonunda bu payız gözlərin deyilmi Aysuda?
Saralır baxışlarının Təbrizi, Ərdəbili,
Ağaclardan vətən tökülür,
sevgi tökülür, mən tökülürəm,
Başmaqlarımdan başıma doğru
düşüş yüksəlir...
Payız qulaqlarımdan içimə düşür,
gözlərimdən dışarı sıçrayır,
Payız məni payız edir gedir,
Gözlərin mənəm artıq, baxsana...

QUYU

Mən gördüm,
O yetim uşağın topunu alıb quyuya atdılar.
Quyunun ürəyi dolub daşdı,
Quyu kimsəni boğmadı, amma topu geri qaytardı!

HANI SƏNƏ VURULDUĞUM DƏHŞƏT

Bir gün məniöldürər bu sevda,
Gözlərim ovuclarına sıxılar bir gün,
Axaram xatirələr astanasında.
Geri dön, sevgilim, geri dön,
Gündüzlərim gündəliklərlə bükülür –
Bu nə haldı, heeey!
O qədər ayığam, yuxum tökülür!
Hanı həmən bu dilimlə vulkanları
Üfüqlərə qandırdığım günlər?!
Hanı həmən bu dilimlə
Xalqa ürək yandırdığım günlər?!
Hanı sənə vurulduğum dəhşət?!
Bir gün məni öldürər bu sevda,

Yanaqların cəhənnəm caydırır üstümə,
Baxışların göyü leş salır ayaqlarıma.
Bəli, düşünürəm:
Yoxsulluq – sevgiyə günüdür!
Bəli, düşünürəm:
Yavan tikənin əvvəli sevdanın sonudur!
Yox, heç də qayıtma –
Sənin də haqqın var
İldırımda, yağmurda.
Sənin də haqqın var
Həyat adlı yalanlarda.
Mənə yetər bu suçlar,
Qələmlə yaratdığım sevinclər, kədərlər,
Ayrılıq mahnısı ilə ulaşmağım
Və iştə
Üzüm ağacıtək özümə dolaşmağım…
Bir gün mənə öldürər bu sevda.



Şərifə CƏFƏRİ
(Miyana)

AYRILIQ

Gedibsən – qalanın düşünmə daha,
Dərdə alışqandı mənim ürəyim.
Mənim ürəyimin yazısı budur,
Gerçək bir yalandır mənim ürəyim.

Ən yanğın çağımda yetişdim sənə,
İnandım dünyanın kədəri bitdi.
İçdikcə susadım, içdikcə yandım,
Sən getdin, həyatın nədəni getdi.

Kimsənin qoynunda rahatlanırsan,
Rahatlan, kimsəni sevirsən də sev.
Daha dözəmmirəm – nə yalan deyim,
Məni sanki yeyir bu otaq, bu ev.

Gedibsən, hər şeyi – məni də unut,
Nə özünü incit, nə mən inciyim!
Yanğınlıq mənimdir, yalnızlıq mənim,
Bu mənim yazımdır, nədən inciyim?

HƏPSİ ALLAHIN İŞİDİR

Həpsi Allahın işidir,
Son nəfəsdə can yetişir.
Kəsilirkən yerdən-göydən
Dərdinə dərman yetişir.

Yetişir Allahın özü,
İki əli, iki gözü.
Çalır səndən ürəyini,
Yenə həyəcan yetişir.

Yenə başdan doğulursan,
Yenə də adam olursan.
Özünə heyran qalırsan:
Bu yaşam hardan yetişir?!

Yenə də çiçəklər açır,
Yenə dünya gözəlləşir.
Yenə bir şey ürəyinin
Paslı məzarını deşir.

Deşir, qalxırsan ayağa,
Başlayırsan oynamağa.
Kəndində bir şey bulursan,
Bir şey Allahdan yetişir.

Heç ömründə görmədiyin
Olur tam arzu-diləyin,
Durmadan çarpır ürəyin,
Damarına qan yetişir.

Bir mələk çatır dadına,
Vurulursan hər zadına.
Buğlanır qanın göylərə,
Həyat dəryadan yetişir.

VAR-YOX BU DÜNYADA BİR UMUDUM VAR

Var-yox bu dünyada bir umudum var,
Onu da, nə olur, öldürmə belə.
Gözümün önündə yumub gözünü
Umud çırağımı söndürmə belə.

İki gözüm çıxsın, bir canım çıxsın,
Görməyim daş üstə uzanmış səni.
Bilirsən nə qədər mutludu könlüm? –
Dünyadan doyarkən qazanmış səni.

Nə olur, yandırma artıq qəlbimi,
Bir daha ölümdən danışma mənə.
Yadında – söylərdin, tək məni sən sev?
Bir kərə demədin alışma mənə.

İndisə o qədər sevib durmuşam,
Fələk də, ölüm də çalammaz səni.
Baxma ki, susuram sən sevişəndə –
Allah da əlimdən alammaz səni.



Duman ƏRDƏM
(Təbriz)

AĞACLARIN ŞÜURALTINDA SINIQ-SINIQ AYNALAR VAR

Ata tərəfindən göyüzü,
Ana tərəfindən dəniz şivəsində baxır.
Hər kəsin öz tikəsində öz şəkli...
Öz ləhcəmdəki göyüzünün aynasına baxdım,
Özümü gördüm gecələr.
Hələ yeniyetmə idi,
Hələ kölgə idi gecələr.

Aynada Tanrı,
Həyatda insan.
Ölümü tədqiq üçün gecələr yatır insan,
Həyatı yazmaq üçün ağaclarda oyanır Allah.
Hər gecə, hər səhər
Bu yat, dur, yat, dur,
Yat, dur, yat, dur,
Yat, dur, yat, dur, yat, dur, yat, dur
Ritmi qədim musiqi alətlərinin
burnundan çıxan dağların şüuraltıdır.
Dağlar və ağaclar insanı düşündükcə uşaqlaşdırırlar.
Uşaqlaşdıqca uşaqlaşırıq,
Uşaqlığın o tərəfinə keçirik.
Qapı qabaqlarında qocaların uşaqlığı quruyub qalır...
Bir buludluq sərçə səsidir insan.
Ağacların şüuraltında Tanrı insan təkrarına,
Ayaqlarımız torpaq altında ölülər üzərində,
Gözlərimizin tarixi bundandır.
Sözlərimizin qədimliyi...
Torpağın altında öyrənirik
Üzərində, xanım hey...

Yuxularımız torpaqaltı ölümün həyatıdır.
Bir qarış ölüm,
Bir dürməklik,
Sadəcə bir içimlik....
Yat, dur, yat, dur, yat, dur, yat, dur,
Ritmindən bütün ölümlər və həyatlar
Bircə yerdə barışırlar –
Yaaaaaaaaaaaaaaaaaaaaaaaaaaaaaaaaaaaaaaaaaat!

QADIN SƏSİ ÇİÇƏK AÇIR

Buludlar damlardakı boruların tənəffüsündən
Göyüzünə qaçqındılar...
Göylərdən qadın naləsi yağsın,
Duaya çıxır şeyxlər...
Qadın səsi çiçək açır,
Buğda bitir
Çörəklənir əllərimizin daş yazılarında...

ATA BİZ OĞULLARINI TOPLADI

Tarixin çubuqlarını birləşdirdi.
Ata bizlərə birlik,
Bacılara tənhalıq öyrədir...
Bacılar evdə yoxdu,
Bacılar küçədə yoxdu,
Bacılar məzar qazır özlərinə.
Şeir yazmağı seçincə
İlk hərfi belə öyrətdi mənə küləklər –
İlk öncə atanı öldür,
Sonra özünü,
Və uzan bacıların qazdığı məzarda
ən qədım ağıların kiçik hərfinə çevril,
Beləcə öyrətdi küləklər şeirin ilk hərfini –
düşmən qəbiləni sev!
Çöllərə düş!
İfşa et ananın tarixini...



Çalğın MƏHƏMMƏD
(Təbriz)

İSTEFA

Şeir ölümün prezidentidir,
Şairlik elə bir postdur ki,
Yoxsullardan başqa kimsələrə verməzlər.

Şeir küçəmizdən keçir əlində çanta,
Günəş zəfəran şərbəti satır uzaqlarda,
Və mən
Özümü götürüb qaçıram.
Üzümə tüpürür xiyabanlarda yağış,
Təbriz də bu bic buludlarına güvənir, deyəsən,
Çətirini bəri tut bu kağız islanmasın, qardaş,
Mən istefamı yazıram.

BAKI

Sevirəm səni,
elə baxma
Baxışların sinəmdən bir tikə daş qopartdı.
Dodaqlarını möhür bas yanaqlarıma,
Dəyişik düşməkdən qorxum var.
Bilirəm, dünya sənsiz
gəlinsizdir,
Gəlinsiz dünya sonsuzdur.
Sevirəm səni –
Küçədən küçəyə,

Xiyabandan xiyabana.
Səni balıq bişirtdirirəm Sabunçuda,
Səni gül alıram Tarqovıda,
Səni don geydirirəm düşüncələrimə
"İyirmi səkkiz mayda".
Bəri bax,
hey!
Səninləyəm,
Gözləri bir cüt xurmaya bənzəyən qız,
Gözlərimdən düş,
Düşüncələrimin fotoqrafını çək,
Səbt[1] elə məni.
Gözlərini yum,
öpürəm səni.
Məni qurdan-qurdana[2] düşsələr də qəzetlərdə,
Məni şeirə oynaş yazsalar da nəqqadlar[3],
Lap masonlar səsimi müsadirə etsələr də,
Dodaqlarımı köçürtmüşəm yanaqlarına.
Qoy mənə vətəndaşlıq verməsinlər lap,
Sevirəm səni.
Qollarını aç,
Günəşi pirizdən[4] kim çıxartdı?!
Fəzanı kirləndirsələr də,
Sənsizliyimi göstərməsinlər deyə
Şəhərin bütün aynalarını sındıracağam.
Aç qollarını,
yanaqlarından öpürəm.
Dünən bir,
bu gün iki,
Sevirəm səni,
ey Bakı.

[1] *Çəkmək, yaddaş etmək*
[2] *Dedi-qodu*
[3] *Tənqidçilər*
[4] *Elekterik lampasını yandırıb-söndürən*

CULFADAN BAŞ ALDIM ARAZ YENİŞƏ

Yolları sürünə-sürünə getdim,
Bələndim Arazın ləpələrinə.
Dumana bürünə-bürünə getdim.
Bir gözəl o taydan nigaran baxır,
Bəlkə də səhəngi qalıbdır çayda.
Bəlkə də yaylığın yel aparıbdır,
Bəlkə də sevgisi qalıb bu tayda.
Mənə əl açmışdı Qarabağ, Şuşa,
Kəlbəcər dadına məni çağırdı.
Bağışla, Dəlidağ, bağışla məni,
Mənim öz nisgilim səndən ağırdı.

MƏN ÖLƏNDƏ


Mən öləndə
tabutumu
Lap yavaş-yavaş gətirin.
Mən tənhalıqdan darıxan bir şairəm,
Mənə bir yoldaş gətirin.

Mən öləndə
qəbrim üstə
Hamı ağ geyinsin, ağ üzdə gəlsin.
Xəbər çatdırın Bakıya,
Məni sevən qız da gəlsin.

Mən öləndə
Yeməyinizi fikirləşməyin, dostlar,
Suyum yox, unum yox mənim.
Xeyrətim sizə düşməz ki,
Sonsuzam, sonum yox mənim.

Mən öləndə
Şeirlərimi üstümə sərin lütfən,
Mənə öz sözüm ağlasın.
Mənə doğulmayan oğlum,
Mənə yox qızım ağlasın.

Mən öləndə
Başdaşıma
Bir ovuc torpaq çəkərsiz,
Başım üstə Azərbaycan,
Sinəm üstə dağ çəkərsiz.



Aydın ARAZ
(Culfa)

YALNIZLIQ

Yalnızlıq
Ayın ən aysız gecələri kimi bir şeydir...
Acı çəkmək deyil,
Çəkməyə acı tapmamaqdır yalnızlıq.

Xalqın üçün yediyin sillənin izində,
Xalqının tüpürcəyidir üzündə.

Yazdığım şeirdə sözcük tapa bilmirəm,
Bax siqaramın qüllab vurmadan tükənməyinə!

Yalnızlıq – yəni qapını döyənlər
Üzr istəyirlər yanlış gəldiklərinə görə,
Və həyat yoldaşın başqasını gəzdirə beynində
Sən ilə bir yataqda yatarkən!

Yalnızlıq elə budur –
Göndərdiyin məktubların qayıtması,
Məzarlıqda
Atanın qəbrini tapa bilmədiyindir yalnızlıq.
Polislərin səni tutmadıqları
Şeir yazammadığın çağlardır yalnızlıq.
Bax,
Ən aysız gecələrin birisində
Siqarama qullab vurmadan tükənirəm!..

RƏSSAMIN ÇƏKDİYİ HƏSRƏT

Biz bir rəssamın çəkdiyi həsrətik, gülüm,
Səsimiz,
Susumuz,
Və sevgimiz
Bir uşağın gizli siqara çəkdiyi qədər təhlükəlidir!
Bizi körpəlikdə qara bələyə bələyiblər, gülüm.
Və beşiyimizdə tabut məşqi öyrədiblər bizə.
Öz dırnaqlarımızla belə
Öz dərimizi soyublar.
Yalan hayqırıqlarımızla kefləndiriblər bizi.
Soyuq tərimizi
Torpağımız udubdur,
Sağımızda xəncər belindəkilər,
Solumuzda qulağı tüklülər
San[1] gedirlər, gülüm.
Və arada əzilirik biz
Bir yumruq kimi...
Böylədir bizdə əzginlik.

Dünənimizi
Xəmir kimi oynadırlar əllərində...
Bugünümüzü kündələyirlər
Sabahımızı yapmaq üçün.
Biz burada
Gülüşlərimizi yamsılamalıyıq onlardan
Və ağlamaqlarımızı
Gizlətməliyik, gülüm,
Qorxu çiçəyi göyərir boğazımızdan.

Əllərimiz zəncirlərlə adaxlanıb sanki,
Yaralarımız şor duzlaqların kəbinində...
Biz həsrət notlarıyıq, gülüm,
Yazılmışıq alnımızın qırışlarına.

[1] *Hərbçilərin nizami keçidi*

VİVALDİNİN "DÖRD FƏSİL" ƏSƏRİNƏ

"01 bahar"
Tumurcuqlar çırtlayır,
Baxışırıq.
Sanki illərdir tanışıq,
Hava dolur, boşalır bizim sağlığımızla.
Ürəklərimiz oyanır,
Əqrəblər vurulurlar biri-birinə.
Əqrəblər tələsirlər,
Təqvim səhifələrində sərxoşluq yazırıq,
Qışın yorğunluğu köçür çiynimizdən.

"02 yay"
Çiçəklər qürurla meyvələşirlər,
Hava qızışır ürəklərimiztək.
Günəş dərilməli bir alma.
Sevişirik,
Ürəklərimiz alışır
Daşırıq biri-birimizdən.
Döşəyirik ulduz çörəyə hər gecə
Vaxtımız yox – təqvim səhifələrində not yazmaq üçün
Sevirik yalnız.

"03 payız"
Çalırlar almamızı budaqlarımızdan,
Hava tutulur "yad buludlarla".
Hava qurtulur,
Boğazımıza tıxılır "sevirəm"lər.
Yarpaq tökürük ağaclar kimi.
Süpürür bir süpürgəçi sevgi sözcüklərimizi.
Ürəklərimiz sıxılır,
Yapışmırıq biri-birimizə.
Ayrılırıq
Sanki illərdir özgəyik.

"04 qış"
Qışa heç nə qalmayıb,
boşdur.
..
..
..



Arəş SAİ
(Təbriz)

GÖZLƏRİN

Gözlərin
Ah! Gözlərində qorunur insanın talanmayan isməti.
Baxışın barmaq basır
Ayın aydınlığına,
Günəşin suçsuzluğuna
Sevincin qaçhaqaç salır göylərdə
Buludlar təsadüfən toxunurlar biri-birlərinə.
Yağış oxuyur.
Çiçəklənir bir cüt sərçə boğazı...
Gözlərin adın qədər ulduzludur,
Zöhrə!
Adınla yaşıddır bəlkə də
adın.
Sürüsünü itirən,
yoxsa dinini itirən çobana
son ümiddir...
Ucalaram ucalaradək
Yolun keçər yuxularımdan həm də,
Ox, çək adını
İki qaşının arasından.
Ürəyim doludur.
Ay kimi bu gecə
Adına boşalmaq istəyirəm.
Dünyaya dolmaq...
Gözlərin
Ah! Gözlərində qorunur insanın talanmayan isməti.
Gözlərin
adın qədər ulduzludur, Zöhrə!..

ANA

Ayağımı çəkdilər,
Üzüm üstə yıxıldım,
Gözüm qanadı, amma
Daha ağlamadım, ana!
Böyüdüm böyük dağlar ətəyində
Oynadım dumanlarla
Buludlarla ağlaşdım,
– Varlığımsan, ana! –
Tüm daşlarla pıçıldaşdım.
Bundan belə dönməyəcəyəm bir daha
calamayacam yorğunluğumu əlinə, ana!
Nə olar, mənə baxma, duyarsan susqunluğunu
İllər boyu yaşarsan belə, nə olar... baxma bədənimə!
İndisə mən
40 günlük tamarzı çiçəyi açıldım ürəklərdə.
Ana!

Qançırlı görsən gözlərimi,
Və qandalla əllərimi.
Yanında otursam, belə batum[1] yeməkli,
Ağlama, ana!

Göz yaşlarını nifrətlə qurut,
Basdır gözlərini,
Tanrı görməsin belə.
Ölüm xoruzu banladıqda
Ürəyimi qussam ovcuna
Tapşırığımdır sənə –
Yetir adaxlıma
Yetir bə ona!
Darıxma, ana!
Gözlə məni, ana!
Gözlərinin hər yumuluşunda durmuşam.
Gələcəyəm hər gecə pəmbə yuxularına,

[1] *Polis dəyənəyi*

Ayla basdıracağam göz yaşlarını,
Bağrımda becərdəcəyəm sabahlarını,
Geciksəm belə,
Gecə boylu bir məktub...
Torpaq toyumdur, ana!
Ardımca su səp baxışlarını,
Tanrıya tapşır bə məni!
Ana, öpəmmədim son dəfə səni,
İndisə ağ geyimli, ağ güllüyəm!
Ana, gəlin də mən oldum, bəy də.
Dağları əy başıma,
Torpaq toyumdur, ana!
Dans etdim bir az öncə qurşunlarla...
Ana! Ayağa dur, ana!
Bilirəm, dönəcəksən,
Daşımın darıxmasına, mənə,
Yamanlığa çəkdirsəm ahını,
Halal et,
Tanrı boylu ana!
Torpaq namuslu ana!
Torpaq namusumdur, ana!
Halal et.
Bilirəm,
Yaşam dağını dağ bürüdü, ana!
Ardımca su səp baxışlarını,
Ana! Ana! An, ana!



Arəş ƏHMƏDİ
(Culfa)

SƏNDƏN SONRA

səndən sonra
səndən danışdım aynalara
danışdım aynalara yuxularımı...
şeir oxudum
saçlarımda qalan barmaq izlərinə, daraqlara...
və ölümü mahnı çaldım
sənsizliyi yallı gedən saatlara...
səndən sonra
siqareti alışdırıb
çəkib varaqlar üstə
uçmağı öyrətdim quşlara...
hey... səndən sonra
nifrət sənə və səndən sonralara...

***

sən Təbrizdə darıxırsan,
qəhərlənirsən ağlamağa –
Culfada yağış yağır,
mən islanıram...

***

dönsən əyər bir gün
sənə məktub yazacağam
öylə bir məktub ki,
içindəki güllər gülsün...
və bütün quşlar azadlığa uçsun, giləsi...

***

gözlərin payızdır
silkələyir şeirləri üstümə
yağış yağdırır sənsizlik saatlarıma
gözlərini bağışla mənə
üşüsəm də, islansam da
yetər şair olmağıma...

***

yaz,
payız şairlərin fəsli
payız fəsillərin şairi...
payız ağacları silkələyir
yapraqlar tökülür
şairlər darıxır
şeirlər yazılır
mən payız dəlisiyəm
baharı heç sevməm, qadası...



Bulud MURADİ
(Miyana)

LEYLİM LEY

Gözlərinin qaranlığına əl sürtürəm: hüzn!
Gözlərinin hüznünə əl sürtürəm: qaranlıq!

Böyüyür dodağındakı qırmızı güllər
Qopuz kimi alır dünyanı qucağına, oxşayır aşiq qadın
Yaşam striptiz karnavalı keçir
Çıxarır əynimdən alkol çiçəklərini[1].
Çılpaq dururuq şeirin əvvəlində, gülüm!
Ölümün sayğısı ilə susuruq,
Ölümün sayğısı ilə sevirik!
Sönür hüzn, yanır böyük şəhərin notları, leylim ley!
Axşamçıların[2] mahnısıdır şeir!
Yeridir susaq, danışsın gözlər, hüznlər...

Yeridir susaq, danışsın gözlər, hüznlər...

YALNIZ SƏNƏ İZİN VAR

Yalnız sənə izin var öldürəsən məni yenə
saçların ilə.
Telefon telləri ilə... boğasan.
Yalnız sənin iznin var yenidən doğasan məni!

Yalnız sənə çatır bayaqkı əllərimdə güllərin kökü,
dənizə çatır əllərim.
Əllərim dənizdir, batırıram göyə: Ay – çıxan balıqlar,
Əllərimi çıxarıram yerə: Gün – batan quşlar.

[1] *Alkoqolun təsirindən ayılmağa işarə*
[2] *Axşamı sevənlər*

...heç kim deyilsən!
Yerlə göyün ortaq dilində – gözlərində –
şeirsən!
...hər şeysən!

EŞQ

Ləhzələr[1] çolaq,
Bir roman kimi baxır sükut...

Və eşq
Dikdaban başmaqları ilə
Danişkədənin[2] pillələrində
Qocalacaq...

SAAT BEŞ AXŞAMDA

Saat beş axşamda, beş axşamda
Dümdüz
öküz kimi baxır bu şeirə hakim bəy,
Üzərində dalğalanır Leylinin qırmızı yaşmağı
Füzulinin əlində.
Saat beş axşamda, beş axşamda
başını qoyur çiynimə Təbriz.
Cünun yarpaqları kimi Payız metrosunda
ay-ulduz düşür yadıma.
Ah, Lorka!
Ayaq üstə yaşayırıq biz,
ayaq üstə sevişirik yenə.
Və yenə
həyat davam edir
"Tıraxtur"[3] bayrağı kimi qırmızı...

[1] *Bir baxış, bir nəzər, bir göz qırpımında keçən vaxt*
[2] *İnstitut, fakültə*
[3] *Təbrizin "Traktor" futbol klubu*



Rəna ZARE
(Təbriz)

ŞAHGÖLÜDƏ QAR YAĞIR

Şahgölüdə qar yağır,
Sərçələr barmaqlarımın ucundadır,
Ayaqyalın uçur düşüncəm.
Həmən o evdəsən,
Gölün ortasındakı restorana baxır pəncərən.
Sən başqa gözəlsən.
Qarğaların qocalmağını,
Tərk edilmiş balaca qayıqları,
Qar altında donan peşmək ağaclarını
Daha yaxşı gördüyün üçün
Şahgölüdə qar yağır.
Güney soyuğundan donan ağacların biriyəm,
Qollarımda özgürcəsinə həsrət var.
Və beləcə mənəm pəncərəndən asılan buz parçası.
Bahar nə böyük qorxudur!
Şahgölüdə qar yağır.
Böyük dədəm kürsü qurub fəvvarələrin olduğu yerdə,
Uşaqlığım buz üstündə sürüşür.
Nənəm qaryemişanı dağıdır gəlib-getməyənə.
Atam Şəhriyar oxuyur.
Mən qardan adam,
Qardan qadın,
Qardan azadlıq yapıram,
Sənə bənzəyir.

Əslində bütün gözlüklər səni görsədir.
Şahgölüdə qar yağır.
Nöqtə-nöqtə oynayır beynimdə anılar,
Dizayn edirəm səni evimdə,
Yoxluğunu kürüyürəm damdan,
Pəncərənə baxır Təbriz.
Və mənim dustaq divarıma
Corabsız üşüyür asılmış arzular.
Fırlanıram səssiz
Dəmpayilərim[1] ağ...
Düşünsənə:
Nə özgür həyəcandır!
Şahgölüdə qar yağır...

***

əllərim cibimdə
üşüyüb gözlərimdə çərçivələr
yanğın çıxıb kitablarımın yaşıl ormanında
tüstü basıb beynimin dar borularını
boğulub iyirmi beş yaşımdakı bakirə arzular
toxunmayacağam!
gələcək zamanı...
atam deyib saxla zamanı!

***

Bal kimi daddım ürək qırılmağı
Gözlərin aydın!
Sən gedərkən körpüdən atıldı
Ürəyimdəki saray...

[1] *Evdə, həyətdə geyilən başmaq*

***

Türkcəyə çevirəcəyəm bütün dərdlərimi
Nisgillərimi anlamayacaq özgələr
Darıxma fəlsəfəsini bir mən biləcəyəm
Bir də telefon kabinindən asılı qalan bir qərib əsgər!
Ürəyim qar altında donan qartal olacaq
Mən ölümlə türkcə salamlaşacağam!



DİNMƏZ
(Təbriz)

GƏLMƏ GECƏ

Sən gəlirsən –
iki göz,
iki dodaq,
iki əl,
iki ayaq gəlir üstümə.
Birdən ikiyə bölünürəm –
yarılanıram,
Yarım ölü,
yarım diri.
Məndə bir ölü,
bir diri yaşayır.
Birisinə çörək,
birisinə su daşımalıyam.
Çörək əllərimin qabarlarından,
su gözlərimin damarlarından çıxır.
Yox!
Məndə o güc yox.
Güc
ürəyi olmayan adamlarda olar!

***
Gözünüzə görünən
mən deyiləm,
Qarşınızdan keçirəm...
Baxışım ürəyinizə gülməsin,
Buraxın ayaqlarımı,
Gözünüzü dikin əllərimə –
Əllərimin gözü
cibinizdədir...

***
İstanbulda
"Ataköy" metrosundayam...
Metrolar boyu yoxsulluqlar içində
Şirin evlər qarşısında
Acı yalnızlıqları yaşayıram.
Gözlərim gecələr dolu yaş,
Əllərim,
ayaqlarım...
Burax!
Üşüyürəm, Təbriz.
İçimdəki soyuqluğu
yer doğur,
Göy sancı çəkir…

***
Bakıdayam,
İçərişəhərdə.
İçərim ayrılıqlar dolu,
İçərim yiyəsiz uşaq,
İçərim eşiksiz.
İçərim…
Burax,
Sıxılıram içərimdə.
Ürəyim

Göydə buludlar,
Buludlarda yağış,
Yağış yağıram…
Pəncərələr qapanır üzümə bir-bir,
Bir-bir şüşələrə dəyirəm,
Şüşələri yuyuram,
Yuyunuram şüşələrdə,
İslanır İçərişəhər,
İslanır Bakı,
İslanıram,
İslanır…
Yox, quruyur,
Qurumaz Təbrizin
Göz yaşları içərimdə…

QARANLIQ

Qaranlıq –
Sevgimin gözləri…
Gecələr yuxuma gələn,
gündüzlər başıma.
Günəş yuxudan oyanmadan
ürəyimdən uçan ümid quşları
köçər qaranlıqlara.
Qaranlıq –
Hərdən atamın qılığına girər,
Hərdən anamın çarşabını bürünər.
Qaranlıq – qardaşım,
Qaranlıq – bacım,
Qaranlıq...
Qaranlıq – mən…



Məsum CABBARPUR
(Təbriz)

SİL ORTAQ DİLİMİZİ YAZILARDAN

1
Gülməyi haçan itirdiyimi bilmədim,
yalnızca bir səs vardır boğazımda:
bir boğulmuş hıcqırıq,
İnanclarımda,
sürgünlər yurdunda.
Bir qadın
acı dolu çantası ilə
söz satır,
yalnız qəhər dolusu sözcüklər...
Buralarda
sözcüklər də kimlərin əlində, bilmədim.
Nifrət dolusu bir ürək sevgidən yazır,
sevgi dolusu bir ürək
necə də yana-yana kağızın bağrını deşir.
Baxsana,
söz ağzımdan düşür,
Birə kimi canıma daraşır kəlmələr.
Gecələr birisi
şeir dilənir yanıq ürəyimdən,
Menopozu[1] yaşayan bir otuz neçə yaşlı qız
erkən qarıma yaşayır
sevgi dadmadan.

[1] *48-55 yaş arası qadının vəziyyəti (burada – yəni otuz yaşında ruhən özünü yaşlaşmış hesab etmək)*

Baxsana,
qələm əl-ayağa düşür
səndən yazmağa,
Fahişə bir qadın sözləri ayaqlayacaq
yalnız sənin üçün!

2
Aman, aman ərincək dodaqlarından
içimdəki sənin
Əsirgəmə tozlu aynadan
bir dodaq gülüşünü, nə olur.
Sındırsana qayğılı axşamçağıların duruşunu,
Sən gülən ayın simgəsi[1]
Tala lüt ağacların tumurcuq bayraqlarını
yelin əl-ayağına.
Sən…
sən inanclarımda Tanrını dizə çökdürdün.
Millət,
yeni bir savcı[2] gətirsənə,
Bir yeni ecazla
əritsin parçalanmış dənizlə
duzların tarlalarını
duzlu gəlinin...
Bəlkə yırtdı qara ətəyini
Tikildi ağappaq gəlinliyi.
Ləpələndi qaşqabaqlı yumruğuna
güldü mavı gözləri!
Yoxsa
içimdə quylayacağam səni,
Adın qaranlıq qaynağı olacaq
günlərim kimi!
Gəl
ikicə işdən birini et:
ya iç qaranlığımda ağ qal,
Ya quyruqlu ulduzları dər,

[1] *Nişanə*
[2] *Burada peyğəmbər nəzərdə tutulur*

səpələ üstümə...
Ya içimə ulduzların istisini cala,
ya da köksümdəki dağlara yakamozun[1]
hər çeşidindən yax.
İçimdə olmayan bir rəngi boşalt
göbəyimə,
Qarın dərilərimə buğlanan rənglərinə…
Hər boyutundan tök
tök,
Bəlkə
şans bu gecə qapımı çaldı,
Rənglər üzümə yeridi,
incilər dənizsiz incilir!
Heç bilirmisən?
Gəl
ikicə işdən birini et –
Yoxsa
sil ortaq dilimizi yazılardan!

***

Nə deyirdim?!
Sınıq-salxaq insanlar qəzələ sığmazmı?!
Sərbəstsən şeirimdə –
sevərsən get,
sevməzsən də get,
ağ ciyərinin yerinə kirlətməsin kağızlarımı siqaran,
sevinərəm astma xəstəliyinə, ölmə!
Ölümcül ol,
darıxsa zaman,
bəzək olursa qayğılarım pay olan şeirimə,
özgürlük radiosu Nüsrətdən səsləndirəcək məni –
"Sən dəniz qoynuna tullanmış çiçək,
üstünə dalğalar atılacaqdır.
Saxta məhəbbətin saxta sənədtək
nə vaxtsa üstündə tutulacaqdır..."

[1] *Ay işığı düşən*

Darıxınca dincəlmək
səni tam itirməkdir!
Sehirli bir silgəcdir arzum...
Bir acı qəhvə içməliyəm
acılarımın sağlığına, dustaq sevgilim,
falına çıxarsa iki əl – qorx...
Boğazını gəmirəcək o terrorist
sevirsən, qaç,
sevməzsən də qaç,
hansı yatağı batırsan!
Siqarını mən yandırıb
sən yaxılacaqsan...



Rəsul İSMAİLİAN
(Təbriz)

***

Doldurub içimi lal darıxmalar,
Mələşir dilimdə nəğmələr mənim.
Dönmüşəm çağların qəbir daşına,
Quylanıb içimdə gör nələr mənim.

Keçmişlər indiyə çatan zamanda
Gecənin qolunda saat bir idi.
Tanış bir qaranlıq, ögey bir sükut
Bir fikir yolunun cüt səbiridi.

Başlanır bir fikir, içimdə ancaq
Başqa bir dərd olur, bürüyür məni...
Hey atdım, atıram uzaqlaşmağa
Özümdən özünə sürüyür məni.

Qurulur dərdilən fikirin toyu,
Mən də bu oyunun arasındayam.
Qabarır içimdə bütövləşən dərd,
Bilmirəm özümün harasındayam.

Keçmişdən qırılmış indilər kimi
Neylirəm özümü dindirəmmirəm.
Bütövləşən dərdi sıxıb içimdə,
Dözüb, dözməyimlə sındırammıram.

Əllərim əzabın əlindən tutub,
Axtarıb günahım hey çəkirəm ah,
Özümdə qalmağım səfil-sərgərdan,
Bu yorğun çağımda nədəndi, Allah?!

Kökləyib səhərə saat zəngini,
Ağır bir yuxuyla qucaqlaşıram,
Tapşırıb səhəri qulaqlarıma,
Baxan gözlərimdən uzaqlaşıram.

Yatıram gecənin sonsuzluğunda,
Saatın zəngi də yuxumu söymür.
Batrısı[1] qurtulan düşüncələrtək
Saatın ürəyi səhərə döymür.

Gözümü açarkən dilim tutulur,
Gördüyüm yuxular yozmağa gəlmir.
Saatım dayanıb, zaman yol gedir,
Dözümün qulağı burmağa gəlmir.

***

Salam, doğum günü, salam, qardaşım,
Nədən dinməz oldun məni görəndə?!
Danış, dindir, axı lal baxışların
Artıq ögeylədir səni görəndə.

Bilmirəm görürsən, ya yox, bu sənsən,
İlbəil üstünə dərd qalanıbdır.
Yaddaşın unudan bir kölgədir ki,
Keçmişi təqvimdə daldalanıbdır.

Hər il bir nömrədə çatmısan başa,
Çağların, keçmişin heç inanmamış.
Zaman sandıqçasın açıq görmədə
Oğrularsayağı heç yubanmamış.

[1] *Batareya*

Gileyli deyiləm, bilirsən bunu,
Hər il təkrarınla şən soyulmuşam.
Sanki baş götürüb gedib yiyəsi,
Yağmalanmış evtək boş qoyulmuşam.

***

Gövdəsiz kölgəyə dönmüşəm indi,
Deyəsən, gecədir, nə tez gec oldu?
Görən gedişimlə hansı nömrənin
Dili tutuluban gözləri doldu?!

Darıxma, əynindən silinirəm mən,
Fikrimi beynindən at yavaş-yavaş.
Gecənin yuxusu tələsir, sənə
Bir nağıl deyirəm, yat yavaş-yavaş.

Birisi varıdı, biri yoxudu,
Oldun, öldün, qaldı qara geyənin.
Bütün ağaclarda üç alma bitdi,
Başına düşdülər nağıl deyənin.



Susən NƏVADEYE RƏZİ
(Təbriz)

BİZİM ÜRƏK

Bizim ürək
Alma ağacları gül açanda açar,
Ətləsilər[1] Şahgölüdə
ətir saçanda açar.
Bizim ürək ceyran kimidir, –
Dağda-daşda ovçu əlindən
ürkək-ürkək qaçanda açar.
Quş kimidir bizdə ürək
Göy məscidin təvafına[2] gedər,
Ərkin başına
dolanıb uçanda açar.
Bizim ürək şairdi, şair!
Təbrizi şərbət kimi
Qurtum-qurtum içəndə açar...

ƏBƏDİYYƏTDƏ VƏTƏNİN ADI NƏDİR?

Əbədiyyət nə cür bir şeydir –
ordadamı qurbət var?
Ordadamı ayırırlar adamları –
öz-özündən?
Bir-birlərindən,
və kimliklərindən?

[1] *Tənbəkigülü, petuniya*
[2] *Həcc zamanı Kəbənin ətrafına dolanmağa deyilir*

Əbədiyyət nə rəngdədir –
Göy rəngi varmı?
Qırmızısı necə
və yaşılı?
Mənə bir şal gətir əbədiyyətdən,
yel qaçırtsa, burax qaçırtsın,
Mən qara rəngi heç sevmirəm axı.

Ordadamı sevəni incidirlər,
qan uddururlar vurğunlara?
Əbədiyyətdə vətənin adı nədir,
Sevmək olarmı qorxmadan vətəni?
Özünü, dilini?
Diləyini mənimsəmək olarmı hədə-qorxusuz?
"Sevirəm" demək olarmı sevgilinə,
qara yaxılmadan adama?
Urmu gölünü necə –
Urmusunu gəlin-gəlin çürütmürlərmi, görəsən?
Mən əbədiyyətdə adam doğmayacam
Böyüyüb alagöz ceyranları ovlayar birdən...

VER XƏYALININ QANADINI

Ver xəyalının qanadını
xəyalımın qanadına –
quşlaşaq.
Quşlaşıb, hər şeyə rəğmən
Zamansız Təbrizin göylərində uçaq –
Eynalıdan vuraq, Şahgölüdən çıxaq,
Gülüstan bağının ağaclarında oturaq,
Ərkə baxaq.
Göy məscidə qaş-göz oynadaq,
Vağzaldan uçaq qonaq Saman meydanına.
Dəvəçi bazarçasına yetişəndə
yenə adamlaşaq,

Üstüörtülü bazarları gəzək –
küçəbəküçə, dalanbadalan...
İkiqapılılar,
Sandıqçı bazar,
Pambıqçı bazar,
Zərgərə bazar,
Misgərə bazar,
Yunçu bazar,
İpçi bazar,
Fərşçi bazar,
Dəlləzənxana,
Başmaqçı bazar...
Və o pinti cızbızçıda
Cızbız yeyib ayran içək, dincimizi alaq.
Və sən mənə şeirləşdirincə bu gəzini
Mən başdan-ayağa qulaq olum sənin üçün.



Xosrov BARIŞAN
(Təbriz)

SƏN GETDİN

Sən getdin –
bir pianoçunun barmaqları qırıldı,
Sən getdin –
bir hambalın beli büküldü.

Sən getdin –
bir sürücünün kor oldu gözləri,
Sən getdin –
bütün bu olanlar adiləşdi –
və kimsə artıq şair olmadı.

GECƏNİN DALINDA DURMA, GƏL

Gecənin dalında durma, gəl.
Pəncərələrə mıxlanır gözlərim!
Paslı...
Paslı...
Paslanıram!
Yuxularım aftafa oğrusu.
Bu çıtlaq günlərim
işdən boldu, içi boş.
Ekrandadır qorxu filmi...
Bütün saatların batrılarını qurtarmışam.
Gecənin dalında durma, gəl.

Gecənin qapıları çox,
Gecənin gözləri yox.
Gözlərim sənindir,
Yumsan, öləcəyəm.
Gecədir
İntiharlar nəfəsi.
Gecədir
Yalqızlığın yorğun səsi.
Doğulacağam baxışların burulğanında.
Sən demə ön görmüşəm talehimi şeirlərimdə!
Gecənin dalında durma, gəl.
Xiyaban telefonlarında susqunluğum;
Dənizlər yaradılır ürəyinin çırpıntısında.
Söyüşlərin alovu caydırmaz məni.
Çirkin qara balığam –
Dənizdən bir az göy üzü yağsa,
Yoxluğunun qaranlığında boğulacağam.
Qıpqırmızıdır, qız, gözlərin,
Gecənin dalında durma, gəl.
Bir zindan doğacaqdım mən,
Bir hörümcək,
Bir işıq.
İşığa qaçsam, təsadüf olacaq,
Sığınsam əllərinə,
Tora düşəcəyəm.
Gözlərin beynimdə gedir kuf...
Kuf...
Kuf...
Kufuldayır[1] gözlərin.
Gecənin dalında durma, gəl.
Nədəndir yorğan-döşəyim xəncərindir?
Nədəndir o çılpaq bədənin
Dağ basılır bədənimə?
Nədəndir yaşamaq cinayət olur?
Nədəndir həyat doğulur cinayətdən?
Və nədəndir eşqimiz anadır silahlara?

[1] *Burada yellənmək mənasında*

Gecənin allığına basılıram,
Gecənin dalında durma, gəl.
Sənə tamamlanmamış bir şeir kimi bağlandım,
Kəlmə-kəlmə sevdim varlığını.
Mən şair olmadım ki –
Ayaqlarım səni yazdılar!
Sən corab deyilsən ki...
Ağlama!
Çözə bilmirəm devrimlərinin düyümünü,
Mən axına qarşı üzürəm.
Göz yaşlarında boğularam.
Xoşbəxtlik açılan pəncərədir.
Səni bitirmədən
Ölməkdən yaman qorxuram.
Gecənin dalında durma, gəl.
Məni kimsə duymaz,
Səsim ağır.
Məni kimsə qaldırmaz,
Səsim yağır.
Radarlar dışıdır yolum, yavrum!
Gecənin fahişəliyidir şəhərlər,
İtmə, mənə bax.
Gecənin dalında durma, gəl.

Baş redaktordan:

Təqdim etdiyimiz ədəbi nümunələrin bəyənildiyinə ümid edirik. "Region" əlavəsinin növbəti səfəri isə Azərbaycanın Qərb bölgəsinə olacaq. Mətnlərinizi gözləyirik.

«RS Poliqraf» MMC-nin mətbəəsində çap olunmuşdur.

Çapa imzalanıb: 28.11.2017. Ofset çap. Ofset kağızı.
Format: 70x100 1/16. Həcmi 9,5 ş.ç.v. Tiraj: 1000 nüsxə.
Qiyməti razılaşma yolu ilə.

"RS Poliqraf" MMC
Bakı şəh., A.Məmmədov küç., 113
Tel./faks (+994 12) 437 08 20